Xalqın qəzeti!

# Xalq qəzeti

№ 45 (30449) 28 fevral 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## QDİƏT PA AŞPA-nı Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməyə çağırıb

Səhifə ⇨ 2

# “Dəmir yumruq” yerindədir

*Tarixi ədaləti döyüş meydanında bərpa edən Azərbaycan Ordusu qarşıdakı dövrdə daha da gücləndiriləcək*



**Azərbaycan xalqı 2020-ci ildə bir yumruq kimi birləşərək işğal altındakı torpaqlarını azad etdi. Xalqımızın birliyi, bütövlüyü özünü Vətən müharibəsindən ötən dövr ərzində də dəfələrlə nümayiş etdirdi. O cümlədən, 2022-ci il dekabrın 12-də keçmiş separatçı xunta rejiminin hələ də nəzarəti altında qalan ərazilərdə təbii sərvətlərimizin qanunsuz istismarına qarşı ekoloji fəalların Laçın–Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində başladıqları dinc etiraz aksiyası bunun bir göstəricisi oldu. 138 gün davam edən aksiya yalnız 2023-cü il aprelin 28-də dayandırıldı. Bundan beş gün öncə isə Ermənistanla şərti sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi yaradıldı. Məntəqənin qurulması ilə Azərbaycan öz sərhədlərinə sahib çıxdı.**

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan xalqı və dövləti 2020-ci ildə Vətən müharibəsinin gedişi zamanı daha bir ölkə ilə – İranla sərhədlərinə sahib çıxmışdı. Azərbaycan–İran dövlət sərhədinin uzun illər Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan 132 kilometrlik hissəsi məhz Vətən müharibəsinin gedişi zamanı – oktyabrın 22-də azadlığına qovuşmuşdu. Həmin tarixdə Zəngilan rayonunun Ağbənd qəsəbəsinin işğaldan azad olunması ilə 30 ilə yaxın işğal altında olan Azərbaycan–İran dövlət sərhədi tam nəzarətə götürülmüşdü. Müjdəli xəbəri Azərbaycan xalqına Prezident İlham Əliyev çatdırmışdı. Dövlətimizin başçısı Azərbaycan–İran dövlət sərhədinin tam nəzarətə götürülməsinin təmin olunması münasibətilə hər iki ölkənin xalqını təbrik etmişdi.

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Həcc və Ümrə nazirini qəbul edib



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul edib.**

Taufiq bin Fauzən Əl Rabiə İlham Əliyevi prezident seçkilərində qələbəsi və Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Qonaq əvvəl çalışdığı vəzifələrdə də ölkəmizə səfər etdiyini xatırladaraq son dövrlərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında bütün sahələrdə olduğu kimi, turizm sahəsində də əməkdaşlığın genişlənməsini və qarşılıqlı turist səfərlərinin artmasını məmnunluqla qeyd etdi, uçuş reyslərində olan dinamikanı müsbət qiymətləndirdi.

Azərbaycan tərəfindən Səudiyyə Ərəbistanı Krallığının vətəndaşlarına münasibətdə vizaların verilməsi prosesinin asanlaşdırılmasının turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyini deyən Taufiq bin Fauzən Əl Rabiə ölkəsinin də Azərbaycan vətəndaşlarına vizaların verilməsi prosesinin sadələşdirilməsi istiqamətində addımlar atdığını diqqətə çatdırdı.

Qonaq “Expo-2030”un və 2034-cü ildə futbol üzrə dünya çempionatının Səudiyyə Ərəbistanında keçirilməsi ilə bağlı Azərbaycanın verdiyi dəstəyə görə bir daha təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının İslam həmrəyliyi prinsipindən çıxış edərək Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan ilə diplomatik əlaqələr qurmamasını xatırladaraq, İslam dünyasında Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın bu cür ədalətli mövqedən çıxış etməsinin Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Qarabağda aparılan bərpa-quruculuq işlərini qeyd etdi və Böyük Qayıdış layihəsinin həyata keçirildiyini bildirdi.

Azərbaycanda Səudiyyə Ərəbistanından olan turistlərin sayının artmasındakı müsbət dinamikaya toxunan dövlətimizin başçısı turistlərin sayı ilə bağlı COVID-19 pandemiyasından əvvəlki rəqəmlərə çatmağın vacibliyini vurğuladı və bu istiqamətdə böyük potensialın olduğunu dedi.

Görüşdə Azərbaycanda və Səudiyyə Ərəbistanında ölkələrimizin iqtisadi, investisiya, turizm və digər potensialını əks etdirən sərgilərin təşkilinin vacibliyi bildirildi, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd edildi.

Həm Azərbaycanda, həm də Səudiyyə Ərəbistanında urban inkişaf üzrə çox böyük layihələrin həyata keçirildiyi bildirilərək bu sahədə də əməkdaşlığın vacibliyi vurğulandı.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

# “Meğri azad iqtisadi zonası”

*Yaxud “Dünyanın kəsişməsi” məkanında növbəti fiasko*



**Ermənistan hakimiyyəti avantürasından əl çəkmir. İndiyədək “Dünyanın kəsişməsi” ideyasını ortaya atan rəsmi İrəvan bununla 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın icrasından yayınırdısa, indi məsələni bir qədər də fərqli, hətta real və ciddi qoymaq qərarına gəlib. Hərçənd, avantüraya münasibətdə “ciddi” və “real” sözlərini işlətmək bir o qədər yerinə düşmür. Ancaq...**

Əlqərəz, Ermənistanın iqtisadiyyat nazirinin müavini Narek Teryan dünən ölkə parlamentinin iclasında deputatların suallarını cavablandırarkən, Meğri azad iqtisadi zonasının yaradılmasından söz açıb və bildirib ki, hökumət mövcud istiqamətdə yeni inkişaf proqramı hazırlayacaq. Nazir müavini bu fikri söyləyərkən, vurğunu Meğrinin İranla sərhəddə olması üzərinə qoyub.

*(ardı 3-cü səhifədə)*

# Berlin görüşü: səmərəli təmas, yoxsa İrəvanın növbəti imitasiyası?

*Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşündən gözləntilər*

**Məlum olduğu kimi, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovla və Ararat Mirzoyan bu gün Berlində sülh gündəmini müzakirə edəcəklər. Hər halda rəsmi adlandırma belədir. Ancaq gəlin görək, görüşün elə bir faydası olacaqmı? Suala cavab vermək üçün bəzi məqamları vurğulamağa ehtiyac var.**



Ancaq əvvəlcə bir haşiyə çıxaq. Nazirlərin görüş təşəbbüsü Almaniyadan gəlib. Yəni, hazırda kollektiv Qərbin Azərbaycan – Ermənistan münasibətlərinin tənzimlənməsinə nisbətən bitərəf yanaşdığına dair təəssürat formalaşdıran ölkəsindən. Həqiqətən, müqayisəli yanaşsaq, Almaniya bu baxımdan Fransadan daha yaxşıdır. Yəqin, elə ona görədir ki, Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan baş naziri Nikol Paşinyanla görüşə vasitəçiliyin Almaniya Kansleri Olaf Şolts tərəfindən həyata keçirilməsinə razılıq verdi. Görünür, Berlin XİN rəhbərlərinin təmasına da evsahibliyini gerçəkləşdirməklə, belə demək mümkünsə, sülhyaratma estafetinin davamında maraqlıdır. Bəs nəyə görə iki Cənubi Qafqaz ölkəsinin əsas xarici siyasət adamlarının üz-üzə gəlmələrinin faydalılıq əmsalına şübhə ilə yanaşırıq? Əslində, buna və birinci abzasdakı suala cavab təxminən eynidir.

Birinci məqam. Baş nazir N.Paşinyan Münxendən sonra Parisə yollandı. Orada Nikolun keçirdiyi görüşlərin məzmun və motivinə diqqət yetirərkən, təmaslarının hamısının bu və ya digər dərəcədə anti-Azərbaycan ritorikasının inkişafına yönəldiyi aşkardır. Fransa isə kollektiv Qərbin başlıca söz sahiblərindəndir. İndi vasitəçiliyə qol çırmamış Almaniya, bu mənada, onun yanında heç nədir. İkincinin rəhbərliyi çox yaxşı dərk edir ki, prinsipcə Bakı – İrəvan münasibətlərinin tənzimləməsinin özünə o qədər də ciddi aidiyyatı yoxdur.

*(ardı 4-cü səhifədə)*

## “Şahdəniz”in şimal-şərq cinahında hasilata başlandı



Səhifə ⇨ 7



## Demokratiyanın tələbi, yoxsa Qərbin saxta silahı?

Səhifə ⇨ 10

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Yenidən Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ölkələrimiz arasında dialoqun və əməkdaşlığın daha da möhkəmlənəcəyinə ümid edirəm.

Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək şəhər kimi seçilməsi ölkənizin hər bir vətəndaşı və bütün dünya üçün dayanıqlı və təhlükəsiz gələcəyə töhfə verməklə yanaşı, Azərbaycana beynəlxalq nüfuzunu nümayiş etdirmək imkanı yaradır.

Qarşıda duran vəzifələrin icrasında Sizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İraq xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayırıq. Uca və Qadir Allahdan Sizə möhkəm cansağlığı, uğurlar, dost xalqınıza xeyir və firavanlıq diləyirik.

Sizin yenidən Prezident seçilməyiniz peşəkarlığınız, səriştəniz və siyasi təcrübəniz sayəsində möhtərəm xalqınızın Sizə olan yüksək etimadını və fəaliyyətinizin təqdir olunmasını əks etdirir.

İraqın müxtəlif sahələrdə dost ölkələrimizin və xalqlarımızın rifahı naminə birgə əməkdaşlığı davam etdirmək və qarşılıqlı əlaqələrin inkişafına nail olmaq istəyini Zati-alinizin diqqətinə bir daha çatdırırıq.

**Dərin hörmətlə,**

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Maldiv Respublikasının hökuməti, xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Ümid edirəm ki, əməkdaşlığımızı və dostluq münasibətlərimizi daha da möhkəmləndirmək üçün Zati-alinizlə sıx fəaliyyət göstərəcəyik. Əminəm ki, ölkələrimizin xalqlarının rifahı naminə əlaqələrimizi dərinləşdirmək üçün birgə işləyə bilərik.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

2024-cü il fevralın 7-də Qarabağ regionu da daxil olmaqla bütün Azərbaycan ərazisində keçirilmiş prezident seçkilərini böyük maraqla izlədik. Mozambik Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan Zati-alinizə seçkilərdə əldə etdiyiniz qələbə münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Bu qələbəniz öz ölkəsinin iqtisadi, sosial-mədəni sahələrdə inkişafına şahid olan Azərbaycan xalqının iradəsinin, həmçinin onun davamlı rifahla bağlı arzularını həyata keçirmək üçün Sizin bütün keyfiyyətlərə malik olduğunuza inamının ifadəsidir.

Fürsətdən istifadə edərək Mozambik Respublikasının Azərbaycan Respublikası ilə qardaş xalqlarımızın maraqları və rifahı naminə dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsində qətiyyətli olduğunu bir daha bildirirəm.

Zati-aliləri, Sizə cansağlığı arzulayır, ən yüksək ehtiramımı ifadə edirəm.

***Filipe Jasinto NYUSİ,***
***Mozambik Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Otuz ildən artıqdır ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı köçkünlərlə bağlı məsələlərin həlli istiqamətində Azərbaycan hökumətinin fəaliyyətini dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan Respublikası arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair 2021-2025-ci illəri əhatə edən Çərçivə sənədinə uyğun olaraq, Ali Komissarlıq Azərbaycanın sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərinə töhfə verməyə və BMT-nin ölkə nümayəndəliyi daxilində Azərbaycan hökumətinə dəstək göstərməyə hazırdır.

Təşkilatımız, həmçinin qaçqınlar, köçkünlər və onlara ev sahibliyi edən icmalar da daxil olmaqla təsirə məruz qalmış qrupların BMT-nin bu il Bakıda keçiriləcək İqlim Dəyişikliyi Konfransında (COP29) fəal iştirak etmələri məqsədilə səlahiyyətləndirilməsinin təşviqini davam etdirmək üçün Azərbaycan hökuməti ilə tərəfdaşlıq etməyə hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Bik LUM,***
***BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi***

***

**Cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə Azərbaycan arasında əməkdaşlıq çox yüksək qiymətləndirilir. Mən fürsətdən istifadə edərək, Ali Komissarlığın regionda köçkünlərlə bağlı məsələlərin həllində Azərbaycan Hökumətinin səylərini dəstəkləməkdə davam edəcəyini bildirirəm.

Eyni zamanda, yeni prezidentliyiniz dönəmində də əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Filippo QRANDİ,***
***Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımızı çatdırıram.

İki qonşu ölkənin – Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının xalqları arasında çoxillik dostluq, iqtisadi, mədəni və dərin tarixi mənəvi bağlar, həmçinin ölkələrimizin müxtəlif sahələrdə ümumi maraqları əlaqələrimizin möhkəm bünövrəsini qoyub. Əminliklə söyləmək olar ki, Sizin prezidentliyinizin növbəti dövründə Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin və qarşılıqlı işgüzar əlaqələrin daha da inkişafının şahidi olacağıq.

Xüsusilə qeyd edilməlidir ki, ölkələrimizin mehriban və qarşılıqlı hörmətə əsaslanan münasibətlərinin inkişafında tarixi rol zəmanəmizin görkəmli dövlət və siyasi xadimi, atanız Heydər Əlirza oğlu Əliyevə məxsusdur.

Siz böyük həmyerliniz Nikolay Baybakovun adını daşıyan Fondun fəaliyyətindən yaxşı xəbərdarsınız. Azərbaycan Respublikasında Baybakov Fondunun nümayəndəliyinin açılması sayəsində Fond beynəlxalq status alıb. Bu gün Fond Rusiyanın sosial-iqtisadi inkişafına sanballı töhfə verən elm, iqtisadiyyat, texnologiya və təhsil sahələrində yüksəkixtisaslı mütəxəssislərin böyük bir hissəsini öz ətrafında toplayıb. Biz elmi-texniki layihələrin həyata keçirilməsində əldə etdiyimiz təcrübəmizi Azərbaycandan olan həmkarlarımızla bölüşməyə hazırıq. Çoxşaxəli əməkdaşlığımız bizə Azərbaycanın və Rusiyanın alimlərinin, mütəxəssislərinin təcrübəsini, biliklərini birləşdirməyə və ölkələrimizin rifahına yönəltməyə imkan verəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasının qardaş xalqına isə tərəqqi, uzun əsrlər boyu sülh və xoşbəxtlik arzulayırıq!

**Dərin ehtiramla,**

***Valeri SEROV,***
***Baybakov Fondunun prezidenti, Rusiya Federasiyası Hökuməti sədrinin sabiq müavini***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə alman iqtisadiyyatının Azərbaycandakı rəsmi nümayəndəliyi olan Alman-Azərbaycan Xarici Ticarət Palatası adından təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Azərbaycan Cənubi Qafqaz regionunda enerji və ticarət baxımından Almaniyanın ən mühüm tərəfdaşıdır. Alman şirkətləri xarici əlaqələrdə sabitliyi, strateji uzaqgörənliyi və etibarlılığı yüksək qiymətləndirirlər. Alman Ticarət Palatası və onun üzv şirkətləri Azərbaycan hökumətinin apardığı islahatlar siyasətini dəstəkləyir və bununla bağlı öz töhfələrini təklif edirlər.

Biz öz təcrübəmiz və texniki imkanlarımızla Qarabağ bölgəsinin yenidən qurulması ilə bağlı Azərbaycan hökumətinin təşəbbüslərini dəstəkləməyə hazırıq. Biz qəti şəkildə inanırıq ki, ölkələrimiz arasında sıx əməkdaşlıq sayəsində regionun davamlı və uğurlu bərpası istiqamətində mühüm irəliləyiş əldə oluna bilər.

Yeni səlahiyyət müddətinizdə Sizə və Azərbaycan hökumətinə uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Anar HƏSƏNOV,***
***Alman–Azərbaycan Xarici Ticarət Palatasının İdarə Heyətini sədri,***
***Tobias BAUMANN,***
***Palatanın İdarə Heyətinin icraçı üzvü***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi əslən Azərbaycan, Gürcüstan və Şimali Qafqazdan olan dağ yəhudilərini öz sıralarında birləşdirən Moskva Dağ Yəhudiləri İcması adından səmimi-qəlbdən təbrik edirik.

Biz çox şadıq ki, məhz Siz Vətənimiz Azərbaycanın rəhbərisiniz. Siz tolerantlığın, Azərbaycan ərazisində yaşayan xalqlar arasında sülhün və dostluğun təminatçısısınız. Fəxr edirik ki, Sizin rəhbərliyinizlə Azərbaycanda tolerantlıq ənənələri qorunub saxlanılır və inkişaf etdirilir, antisemitizm hallarına yol verilmir.

Sizə cansağlığı, doğma Azərbaycanımızın tərəqqisi naminə uzun illər məhsuldar fəaliyyət arzulayırıq.

**Hörmətlə,**

***Arif RƏHİMOV,***
***Moskva Dağ Yəhudiləri İcmasının sədri, Rusiya Qafqaz Xalqları Konqresinin Rəyasət Heyətinin üzvü***

# F.T.Əhmədovun Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Turab oğlu Əhmədov Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 27 fevral 2024-cü il**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin mart ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Baş prokuror** Kamran Əliyev | **Cəlilabad** | Cəlilabad, Masallı, Yardımlı | 5 |
| 2 | **Mədəniyyət naziri** Adil Kərimli | **Zaqatala** | Zaqatala, Şəki, Balakən, Qax, Oğuz, Qəbələ | 6 |
| 3 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | 6 |
| 4 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Saatlı** | Saatlı, Sabirabad | 7 |
| 5 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | 7 |
| 6 | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Siyəzən** | Siyəzən, Xızı | 9 |
| 7 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | 11 |
| 8 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | 13 |
| 9 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | 13 |
| 10 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Şəmkir** | Şəmkir, Gəncə, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Daşkəsən, Samux, Göygöl | 14 |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Səyyad Salahlı | **Gəncə** | Gəncə, Naftalan, Daşkəsən, Göygöl, Samux, Goranboy, Xocalı, Kəlbəcər | 14 |
| 12 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Qubadlı | 15 |
| 13 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Laçın | 15 |
| 14 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 15 |
| 15 | **Ədliyyə naziri vəzifəsini müvəqqəti icra edən** Azər Cəfərov | **Saatlı** | Saatlı, Sabirabad, İmişli | 15 |
| 16 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Zərdab** | Zərdab, Ucar, Ağdaş, Kürdəmir | 15 |
| 17 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 15 |
| 18 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | 15 |
| 19 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Kürdəmir** | Kürdəmir, Ucar | 15 |
| 20 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Siyəzən** | Siyəzən, Şabran, Xaçmaz | 18 |
| 21 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, Göyçay, İsmayıllı | 18 |
| 22 | **Energetika naziri** Pərviz Şahbazov | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | 19 |
| 23 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Neftçala** | Neftçala, Salyan | 19 |
| 24 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | 19 |
| 25 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Kürdəmir** | Kürdəmir, Zərdab | 19 |
| 26 | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Ucar** | Ucar, Zərdab, Kürdəmir, Göyçay | 19 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# QDİƏT PA AŞPA-nı Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməyə çağırıb

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Beynəlxalq Katibliyi adından Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Rusopulosa müraciət ünvanlanıb.**




Məktub QDİƏT PA-nın vitse-prezidenti və qurumdakı Türkiyə nümayəndə heyətinin rəhbəri Fatih Dönmez, vitse-prezident və Albaniya nümayəndə heyətinin rəhbəri Petro Koçi, vitse-prezident və Gürcüstan nümayəndə heyətinin rəhbəri Ramaz Nikolaşvili, həmçinin Ukrayna nümayəndə heyətinin rəhbəri Anna Purtova, Serbiya nümayəndə heyətinin rəhbəri İqor Beçiç və Yunanıstan nümayəndə heyətinin rəhbəri Konstantinos Vlasisin adından göndərilib.

Sənəddə qeyd olunur ki, ötən müddət ərzində QDİƏT PA demokratiya və qanunun aliliyinə hörmət edən Avropa institutları ilə faydalı əməkdaşlıq edib. Lakin təəssüf ki, həm QDİƏT PA-nın, həm də AŞPA-nın üzvü Azərbaycan AŞPA-da səsvermə hüququndan məhrum olunub.

Məktub müəllifləri Cənubi Qafqazın aparıcı dövlətlərindən biri olan Azərbaycanın insan hüquqlarına hörmətlə yanaşdığını vurğulayaraq, yaxın gələcəkdə Azərbaycan nümayəndə heyətinin AŞPA-da səsvermə hüququnun bərpa olunacağına ümidlərini ifadə ediblər.

***XQ***

# XİN: Ermənistan Sumqayıt hadisələrini saxtalaşdırır

**Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır.**

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin mövzu ilə bağlı şərhində yer alıb.

A.Hacızadə, həmçinin bildirib: "Bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdidir.

Ermənistan XİN-ə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların, ekstremist təşkilatların əvvəlcədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi.

Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması bu iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyini sübut edir.

Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb.

***XQ***

# Bakı Təşəbbüs Qrupu: neokolonializmlə mübarizədə yeni tarixi səhifə

**I MƏQALƏ**

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Təzadlaşan dünya...

Təzad, ümumiyyətlə, dünyaya xas olan fenomendir. Ümumi halda uyğunsuzluğu, daha doğrusu, hansısa hadisəni və ya hadisələr toplusunu vahid rasionallıq çərçivəsində ziddiyyətsiz izah etmənin mümkünsüzlüyünü ifadə edir. Təzad fəlsəfədə geniş istifadə olunan anlayışlardandır. Böyük V.Hegel də dialektikanın qanunlarında bu anlayışdan yararlanmışdır.

Təzadlı məqamlara dövlətlərin fəaliyyətində, fəlsəfədə və politologiyada tez-tez rast gəlmək olur. Təzadlı situasiyalar bir sıra hallarda hansısa prosesə və ya onların sisteminə yeni baxışların formalaşmasını motivə edir. Və yaxud təzadlı hallardan daxili ziddiyyətləri aradan qaldırmağa xidmət edən yanaşmalar elmi perspektivli hesab olunur.

Bu mənada, öz fəlsəfi və elmi nailiyyətləri ilə Qərbin öyünməyə haqqı vardır. “Qoca qitə” dünyaya çox sayda elm, mədəniyyət, siyasət, humanist ruhlu dahi insanlar bəxş etmişdir. Bununla yanaşı, müasir dünyanın ən eybəcər olayları da məhz oradan qaynaqlanır. Yüksək fəlsəfi və elmi bazaya malik və dünyanın ən inkişaf etmiş bir məkanında o qədər təzadlar və onların ziddiyyətləri mövcuddur ki, buranın, doğrudan da, Avropa – demokratiya və liberalizm məkanı, olduğuna şübhə edirsən. Təzadlı Avropa ağılsız Avropa təsiri bağışlayır.

Bir tərəfdə Baxı, Bethoveni, Şekspiri, Hegeli, Kantı, Sartrı, Fukosu və minlərlə digər zəka sahibləri, digər tərəfdə isə əli qanlı faşistləri, nifrətlə dolu həyatları olan neofaşistləri, əli qana batmaqda davam edən neokolonialistləri... Bu, böyük təzad və ziddiyyət deyilmi? Avropa bunları, eyni zamanda, “mənəviyyat və zəka bətnində necə daşıya bilir”?

## Reallıq və fəaliyyət... Bakı nümunəsi

Bu reallığı inkar edə bilmərik – onun mövcudluğunu qəbul etməliyik. Lakin həm də barışmamalıyıq. Faşizmə, neofaşizmə, kolonializmə (müstəmləkəçilik) və neokolonializmə (yeni müstəmləkəçiliyə) qarşı güzəştsiz mübarizə aparmalıyıq. XXI əsrdə bunun ən yaxşı nümunəsini Azərbaycan Respublikası nümayiş etdirir. Məhz Azərbaycanın Prezidenti ən yüksək tribunalarda rasional əsası yüksək olan fikirləri ilə müstəmləkəçiliyin hər bir təzahürünə qarşı bəşəriyyətin birgə mübarizəsinin zəruriliyindən bəhs edir.

Keçən ilin yayında isə məhz Azərbaycanın təşəbbüsü və birbaşa fəaliyyəti sayəsində yeni müstəmləkəçiliyə qarşı Bakı Təşəbbüs Qrupu (BTQ) yaradılmışdır. Qrup indiyədək 7 mötəbər beynəlxalq tədbir keçirmişdir. Həmin tədbirlər birbaşa dünyada müstəmləkəçiliyin aradan qaldırılması üçün konkret fəaliyyət istiqamətlərinin müəyyən edilməsinə və praktiki kompleks addımlar atılmasına xidmət edir. Son İstanbul tədbirində bu motiv özünü daha qabarıq göstərmişdir. Orada Fransanın müstəmləkəçiliyindən əziyyət çəkən xalqların və ölkələrin haqlarının qorunması, onların təbii hüquqlarının təmin edilməsi kimi məsələlər müzakirə edilmişdir.

Konfransın mövzusunun “Dekolonizasiya: intibah dövrünün başlanğıcı” adlandırılması çox əlamətdardır. Çünki Bakı Təşəbbüs Qrupu, birincisi, 120 üzvü olan Qoşulmama Hərəkatı çərçivəsində yaradılmışdır ki, geniş bir coğrafi və geosiyasi məkanda xalqların haqq və hüquqlarının təmin edilməsinə həm məsuldur, həm də onun təmin edilməsinə çalışır, ikincisi, müstəmləkəçiliyə qarşı mübarizə, sözün həqiqi mənasında, dərin fəlsəfi, iqtisadi, siyasi və geosiyasi anlamlarda dirçəlişdir! XXI əsrin insan və mədəniyyət yüzili kimi obrazına tam uyğun olan zərurətdir! Çünki indi qlobal miqyada demokratiya, insan haqları, liberalizmdən danışanlar dünyanı haqq və hüquq məsələində iki düşərgəyə bölə bilməzlər. Dünyanın “ağ” və “qara” rəngi Qərbə sərfəli və ya sərfəsiz olmaq kriteriyası ilə artıq müəyyən oluna bilməz. Hər yerdə və hər zaman obyektiv demokratiya, haqq və hüququn tərəfsiz, universal qaydalara görə təmini olmalıdır.

Mümkün deyildir ki, harada müəyyən dövlətlərin (məsələn, Fransanın) marağı ödənirsə, orda demokratiyanın mövcudluğundan bəhs etsinlər. Bununla kifayətlənməyib bütün dünyanın da belə düşünməsi üçün ağılsız şantajlar etsinlər.

Yol vermək olmaz ki, həqiqətən, hüququ təmin edilməyən, haqsızlığa düçar olan, lakin müəyyən dairələrin təsiri altında olmaq istəməyən dövlətlər və ölkələr isə antidemokrat, sivil dünyaya uyğun olmayan, müxtəlif qondarma fobilərin hədəfi kimi təqdim edilməyə cəhd göstərilsin.

Bütün bunlara görə, Bakı Təşəbbüs Qrupu yeni tarixin çox vacib mütərəqqi fəliyyət üsullarından biridir. Onun memarı isə daim tərəqqidə olan Azərbaycan Respublikasıdır! Azərbaycan faktiki olaraq XXI əsrdə milli, regional və qlobal miqyaslarda humanitar tərəqqinin mərkəzlərindən və bu istiqamətdə real fəaliyyət göstərən dövlətlərdən birinə çevrilir! Bu tezisin məna işığında BTQ-nin müasir dünyada missiyasının müxtəlif aspektləri üzərində bir qədər geniş dayanaq.

## Qlobal təhlükəsizlik və tərəqqi kəsişirmi?

Müasir nəzəri fəlsəfi və politoloji şüurda olduğu kimi, praktiki siyasi fəaliyyətdə də şübhə etmirlər ki, qlobal tərəqqi ilə təhlükəsizlik bir-biri ilə sıx əlaqəlidir. Təhlükəsizliyin təmin olunmadığı yerdə müharibə paradiqması üstünlük təşkil edir və burada inkişafdan danışmaq yersizdir. İnkişaf da ədalətli, doğru, hüququn və qarşılıqlı faydalı qazancların olmadığı şərtlər daxilində aparılırsa, təhlükəsizliyin təmininə xidmət etmir. Bu gedişin sonu fəlakət və deqradasiya olur.

Burada müasir dünya üçün xarakterik olan başqa bir məqam da vardır. Məsələ ondan ibarətdir ki, indi dünya o dərəcədə qloballaşmışdır ki, onun hər hansı hissəsində (lokal fraqmentində) bir problem varsa, bütövlükdə, dünyaya mənfi təsir edir.




Buradan belə bir qənaətə gələ bilərik: planetimizin hətta kiçik ərazisində və yaxud bölgəsində təhlükəsizliyə, inkişafa və hüquqa təhlükə və ya maneə mövcuddursa, o, gec-tez bütövlükdə dünyanı tarazlığından çıxaracaq. Aydındır ki, həm öz dövlətçiliyi, həm də dünya qarşısında məsuliyyət hiss edən liderlər belə hallara qarşı mübarizə aparmalıdır. Təcrübə göstərir ki, bu prosesin ön sıralarında gedən liderlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyevdir.

İlham Əliyev müxtəlif platformalarda müstəmləkəçiliyə, xalqların hüquqlarının pozulmasına və ədalətsizliyə qarşı güclü məntiqi və fəal praktiki addımlarla mübarizə aparır. Bütün dünya xalqları üçün faydalı olan təşəbbüslər irəli sürür. Bu prosesin iki mühüm fərqli əlaməti özünü göstərir.

Birincisi, İlham Əliyev Cənubi Qafqaz regionu çərçivəsində bölgənin lider dövlətinin başçısı kimi, sabitlik, hüququn təmini, etibarlı təhlükəsizlik və qarşılıqlı fayda verən əməkdaşlıq naminə çoxşaxəli fəaliyyət göstərir. Etiraf edilməlidir ki, bu fəaliyyət öz praktiki nəticəsini verir və regional sabitlik qalır. Təhlükəsizliyin təmini üçün də “3+3” formatı üzrə birgə fəaliyyət platformasını irəli sürən İlham Əliyev onun realllaşması üçün titanik diplomatik və siyasi iradə nümayiş etdirir.

İkincisi, qlobal miqyasda özünü göstərən hüquq pozuntuları, ədalətsizlik və qeyri-konstruktiv münasibətlərə qarşı mübarizə üçün İlham Əliyev geniş surətdə regional və beynəlxalq təşkilatlarda fəaliyyət platformasından yararlanır. Pandemiya dövrü də daxil olmaqla ən böhranlı situasiyalarda belə Azərbaycan Prezidenti konstruktiv, real və ədalətli təklifləri ilə digər liderlərdən seçilmişdir. İlham Əliyev vurğuladığımız siyasi fəaliyyət praktikasını BMT, Qoşulmama Hərəkatı, MDB, Türk Dövlətləri Birliyi kimi təşkilatlarda çox uğurlu sınaqdan keçirmişdir. Müstəmləkəçiliyə qarşı barışmaz mübarizə kursu da Qoşulmama Hərəkatı çərçivəsində fəal aparılır.

Bunun səbəbi aydındır. Çünki məhz bu təşkilatda dünyanın müxtəlif regionlarının, o cümlədən, Afrika dövlətləri birgə fəaliyyət göstərirlər. İlham Əliyevin təklif etdiyi anti-müstəmləkə platforması bu aspektdə tam legitimdir və təşkilatın hər bir üzvünün maraqlarına cavab verir. Obrazlı desək, Azərbaycan Prezidenti “təşkilatdaxili inklüziv legitimlik” əsasında müasir dövrün bu utandırıcı faktına qarşı böyük mübarizəsinə başlamışdır. Axı, indiki tarixi mərhələdə ərazisindən asılı olmayaraq, hər hansı ölkəyə qarşı müstəmləkə siyasəti aparmaq geridə qalmışlıqla yanaşı, bütövlükdə, bəşəri proseslərə ziyan vurmaqdır.

Beləliklə, əmin oluruq ki, Azərbaycanın təşəbbüsü dərin və geniş geosiyasi, bəşəri və siyasi-mədəni reallıqların əsaslı təhlili sayəsində çıxarılan nəticələrin fonunda yaranmışdır. Bu, uzunmüddətli prosesdir, lakin mütləq müsbət nəticəsi olacaqdır. İndiki mərhələdə isə artıq bir neçə aspektdə həmin fəaliyyət bəhrəsini verməkdədir. Faktlara müraciət edək.

## Fransanın 13 müstəmləkə qurbanı

Danılmaz faktdır ki, Fransa XXI əsrdə dünyanın 13 lokal ərazisində müstəmləkə siyasəti yeritməkdədir. Onun adını “yeni müstəmləkə” də qoya blərik. Bununla mahiyyət dəyişmir. Müstəmləkəçilik əsasən Qərbə xas olan fəaliyyətdir (ABŞ, Böyük Birtaniya, Fransa, İspaniya, Almaniya...). Hələ XV əsrdən özünü göstərir. Avropalılar özlərini inkişaf etmiş və sivil saymaq əsasında dünyanın müxtəlif böləglərinə hərbi yürüşlər edir, oraları talayır, sərvətlərini qəsb edir, xalqları isə özlərindən asılı vəziyyətə salırdılar. Bu hadisələr Avropa da daxil olmaqla, Latın Amerikasında, Uzaq Şərqdə, Afrikada baş verirdi. Tarixçilərə minlərlə bu kimi faktlar məlumdur. Sadəcə, onlardan birini yada salaq.

İspanlar Latın Amerikasında mövcud olan İnka İmperiyasını XVI əsrdə vəhşicəsinə dağıtdılar. Burada “vəhşicəsinə” sözü kimisə pisləmək mənasında işlədilmir – dağıtma prosesinin mahiyyətini təşkil edir. İspan müstəmləkə hərbi dəstələrinə adelantado (“adelantado” “səlibçi”, “pioner” deməkdir və o dövrün İspaniyasında özünün ərazisindən kənarda olan yerləri zəbt etmək üçün təşkil edilən qoşunların başçısına verilən rütbədir) Fransisko Pisarro komandanlıq edirdi. F.Pisarro 1533-cü ildə İnka hökmdarı Atayalpı əsir ala bilmişdir. Atayalpı geri almaq üçün inkalılar ispanlarla bazarlığa getmişlər və ispanlar İnkanın malik olduğu bütün sərvət müqabilində hökmdarı azad edəcəyinə söz vermişlər. Lakin sövdələşmə baş tutandan sonra avropalılar vədlərinin əksinə olaraq tarixdə görünməmiş işgəncə ilə Atayalpı öldürmüşlər. Ancaq ispan müstəmələkəçilər hələ də dünyada rekord hərbi qənimət sayılan və dəyəri 309 milyon ABŞ dolları (2000-ci ilin kursuna görə) qızıl külçələrini qəsb etmişlər. Bu, Avropa müstəmləkə şüuru ilə davranış üsulunun klassik təzahürü və onların mahiyyətinin güzgüsüdür.

XV əsrdən bu yana avropalıların və onlara bənzəmək istəyənlərin şüurlarında dəyişiklik olmamışdır. Bunun bir bariz nümunəsi Fransanın müstəmləkə siyasəti, digəri isə Qarabağda havadarlarının ssenarisi üzrə azərbaycanlılara qarşı soyqırımı edən erməni davranış faktıdır. Qarabağı işğal etmək birbaşa erməni siyasi və ya dövləti gücünün yarada biləcəyi müstəmləkə siyasəti deyildi – o, öz müstəmləkə şüurunu dünyaya yaymaq arzusunda olan böyük dövlətlərin əməlidir. Ermənistan sadəcə onların maşası oldu.

Buna görə də Azərbaycanın dünya üzrə Fransanın müstəmləkə siyasətinə qarşı mübarizə aparması, ümumiyyətlə, müasir mərhələdə kolonializmi aradan qaldırmaq uğrunda böyük savaşın tərkib hissəsidir. Bu baxımdan Fransanın müstəmləkə siyasətinin bir sıra cəhətləri və onun nəticələri üzərində də dayanmaq Bakı Təşəbbüs Qrupunun strateji əhəmiyyətini anlamağa yardım edər. Təkcə onu deyək ki, Fransanın 13 müstəmləkə ərazisinin sahəsi 559 655 kvadratkilometrdir (!). Əhalisi isə 2 750 899 nəfərdir (2020-ci il məlumatı).

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# “Meğri azad iqtisadi zonası”

*(əvvəli 1-ci səhifədə)*

Böyük ehtimalla Meğri azad ticarət zonası ideyası “Dünyanın kəsişməsi” avantürasının tərkib hissəsi kimi nəzərdən keçirilir. Burada mahiyyət həm də başqadır – Ermənistan hakimiyyəti Azərbaycanın “Zəngəzur dəhlizi” ideyasına qarşı çıxır, mövcud xüsusda “Dünyanın kəsişməsi”ni ortaya atır, baş nazir Nikol Paşinyan administrasiyasının üzvləri, az qala, bütün beynəlxalq platformalarda məsələni təbliğ etirlər, amma heç bir nəticə yoxdur.

Bəli, hazırda Meğri azad iqtisadi zonası ideyası “Dünyanın kəsişməsi” fiaskosunun göstəricisi kimi meydana çıxıb. Ermənistan hakimiyyəti görür ki, hay-küylü təqdimat fonunda heç nə əldə edə bilmir, dəstək qazanmır. Buna görə məsələni, belə demək mümkünsə, lokallaşdırmaq qərarına gəlir. Lokallaşdırmaq və əvvəldə də bildirdiyimiz kimi, real müstəviyə daşımaq. Hər bir halda qərar İrəvanın avantüra məntiqinə sadiqliyinin nəticəsidir. Yəni, məqsəd Azərbaycana qarşı çıxmaqdır. Mövcud xüsusda isə İrəvan məhz İran müstəvisində oyun oynayır.

Diqqət yetirək, haqqında söz açdığımız üçtərəfli bəyanatda Ermənistan üzərinə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yola təminat vermək məsuliyyəti qoyulur. Sənədə baş nazir N.Paşinyan imza atıb. Lakin indi Nikol və komandası məsələdən yayınır. Bunu ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması kontekstində dəyərləndirir. Azərbaycan isə bildirir ki, Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır.

Ölkəmiz, eyni zamanda, bu fikirdədir ki, Naxçıvana yol “Azərbaycandan Azərbaycana yol” məntiqinə əsaslanmalıdır. Yəni, orada sərhəd və gömrük nəzarəti olmamalıdır. İrəvan razı deyil, Bakı isə Ermənistanın Naxçıvana yolda verdiyi təhlükəsizlik təminatı ilə kifayətlənmir. Çünki ölkəmiz bunu etibarlı saymır və saymamaqda haqlıdır. Həm də ona görə ki, otuz ilə yaxın davam etmiş işğal dövrü var...

Deməli, hər şey üçtərəfli Bəyanata əsaslanmalıdır. Bəyanatda Naxçıvana yolda təhlükəsizlik təminatını Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin həyata keçirməsi göstərilib. Yeri gəlmişkən, bununla razılaşmamaq Ermənistanın ənənəvi anti-Rusiya xəttinin bir göstəricisidir. Ancaq ölkəmiz öz prinsiplərini əsas götürür. Eyni zamanda, üçtərəfli Bəyanatın məntiqini. Ona görə də Azərbaycan alternativ olaraq Naxçıvana yolun İran ərazisindən keçməsini məğbul sayır.

Tam aydındır ki, Bakının yanaşması Ermənistanı təcriddə saxlayacaq. Çünki hazırda haqqında söz açılan Meğri azad iqtisadi zonası və “Dünyanın kəsişməsi” yox, məhz Naxçıvana İran ərazisindən keçməklə reallaşacaq marşrut qlobal əhəmiyyət daşıyır. Ermənistan hakimiyyəti İranla sərhəddə azad iqtisadiyyat zonası yaratmaqla, həmin qloballığa zərbə vurmağı hədəfləyir. Digər tərəfdən, İrəvanın Tehranın




köməyi ilə qlobal marşruta çıxış əldə etməyə çalışması da mümkündür. Əlbəttə, İrəvan bir çox məqamları hesablaya bilmədiyi kimi, hazırda qondardığı ideyanın da nəticələrini nəzərdən keçirməyi və proqnozlaşdırmağı bacarmır. Daha doğrusu, nəticəsizliyini. Nəticəsizlik isə göz önündədir və yazının sonunda bu barədə daha konkret söz açacağıq.

Hələlik isə bildirək ki, Meğri azad iqtisadiyyat zonası təşəbbüsü həm də İranı şirnikləşdirmək məqsədi güdən ideyadır. Görünür, erməni iqtidarı Tehranın köməyi ilə bu ideyanın uğur qazanacağına ümid bəsləyir. Amma tam aydındır ki, heç nə mümkün deyil. Onsuz da İran və Ermənistan arasında yol açıqdır. Həmin yolla Fars körfəzindən Qara dənizə daşımalar həyata keçirilir. Məsələ burasındadır ki, “Zəngəzur dəhlizi” ideyasının Naxçıvana İran ərazisindən keçməklə gedən yol məntiqi reallaşsa, bu, ənənəvi İran–Ermənistan və əks istiqamətə olan daşımalara mənfi təsir göstərəcək. Şübhəsiz ki, Tehran daha iri həcmli daşımaların reallaşmasında maraqlı olacaq.

Həm də nəzərə alaq ki, Naxçıvana yolun onun ərazisindən keçməsi İranı daha geniş areala çıxardacaq ki, bu isə ölkənin Qərbin sanksiyalarının vurduğu ziyanı aradan qaldırması baxımından sərfəlidir. Yəni, birmənalı şəkildə demək olar ki, Ermənistanın Meğri azad iqtisadiyyat zonası ideyası İslam respublikası üçün vazkeçilməz variant deyil. Deməli, nəzəri nöqteyi-nəzərdən də İrəvana görə Tehranın Bakıdan hansısa güzəştə getməsini istəməsi mümkünsüzdür. Bu isə yenə o deməkdir ki, Ermənistanın təcridi öz aktuallığını qoruyacaq.

İndi isə gələk Meğri azad iqtisadiyyat zonası ideyasına Ermənistanın daxilindəki yanaşmaya. Daha dəqiq desək, müsbət olmayan münasibətə. Fikrimizin təsdiqi üçün nazir müavini N.Teryanın başqa nələrdən söz açdığına diqqət yetirək. Hökumət rəsmisinin bildirdiklərindən belə çıxır ki, sözügedən ideya yalnız indinin söhbəti deyil. Yəni, hökumətin əvvəllər də mövcud istiqamətdə cəhdləri qeydə alınıb. Amma nəticəsiz. Nazir müavini Teryan deyir ki, əvvəlki təşəbbüs qaldırılanda Meğri azad iqtisadiyyat zonasında yerləşmək üçün cəmi bir şirkət müraciət edib. Yəni, “həmin şirkət ərizə verdi, lakin heç vaxt işə başlamadı”: “Ona görə də biz bu azad iqtisadi zonanın yeni inkişaf proqramını hazırlamaq qərarına gəldik ki, onu yaxın vaxtlarda təqdim edəcəyik”.

Göründüyü kimi, Ermənistanın özündə də qaldırılan təşəbbüsün faydasına inanan yoxdur. Hər halda reallıq başqadır, boş-boş danışmaq bir başqa. Yəqin, Ermənistandakı investorlar da məsələnin mahiyyətini yaxşı bilirlər. Ən əsası isə onlar İrəvanın təhlükəsizlik zəmanətlərinə etibar etmirlər.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Berlin görüşü: səmərəli təmas, yoxsa İrəvanın növbəti imitasiyası?

(əvvəli 1-ci səhifədə)

**İkinci məqam.** Paşinyanın Parisə yollanması və mövcud xüsusda həm keçirdiyi görüşlər, həm də "France 24" telekanalının efirindən söylədikləri onun Münxendə Prezident İlham Əliyevlə təmasının ab-havasını və gözlənilən müsbət davam trayektoriyasını heçə endirdi. Bundan sonra Bayramov – Mirzoyan görüşü ilə bağlı pozitivə köklənmək mümkünsüzdür.

**Üçüncü məqam.** Bayramov – Mirzoyan təmasına doğru gedən yola diqqət yetirək. Mirzoyan Cenevrədə BMT-nin İnsan Haqları Şurasının iclası çərçivəsində qurumun İnsan hüquqları üzrə ali komissarı Folker Turk ilə görüşüb. Görüşdə Ermənistanda insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar və nailiyyətlər qeyd edilib, İrəvanın bu baxımdan beynəlxalq reytinqlərdə regionda lider mövqe tutduğu önə çəkilib (?).

Deməli, subliminal mesaj verilib ki, Azərbaycanda mövcud istiqamətdə vəziyyət yaxşı deyil. Mesajı verən Ermənistandır. Ardınca isə Mirzoyan, bilavasitə, "mətləbə" keçib və deyib ki, Azərbaycan Qarabağ ermənilərini etnik təmizləməyə məruz qoyub, İrəvan isə hazırda onların ehtiyaclarının ödənilməsi və hüquqlarının müdafiəsi istiqamətində tədbirlər reallaşdırmaqdadır. Yəni ki, Azərbaycanın yol verdiyi insan hüquqları pozuntularını və dəymiş zərəri Ermənistan aradan qaldırır. Bir sözlə, həyasızlıq...

Daha sonra erməni nazir Bakı – İrəvan sülh tənzimləməsinə keçid alıb və ölkəsinin bununla bağlı yanaşmalarını təqdim edib. Bildirib ki, bu yanaşmalar ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və suverenlik prinsiplərinə əsaslanır. Mirzoyan, həmçinin vurğulayıb ki, sülh prosesində irəliləyişə yalnız sadaladığı prinsiplərə ciddi riayət etməklə, aqressiv ritorikadan, eləcə də yerlərdə vəziyyəti gərginləşdirən addımlardan çəkinməklə nail olmaq mümkündür.

Göründüyü kimi, vurğu Azərbaycanın, guya, Ermənistanın yanaşmalarına etinasız münasibət göstərdiyi üzərinə qoyulur. Bu isə öz növbəsində, reallıqların təhrifi və İrəvanın üzərinə götürdüyü öhdəliklərin icrasından yayınmasıdır. Yəni, Mirzoyan bir daha göstərib ki, İrəvan Bakının sülh gündəliyi ilə razılaşmır, konstruktiv mövqeyə gəlmək niyyətindən tam uzaqdır. Deməli, erməni XİN rəhbəri azərbaycanlı həmkarı ilə görüşə məhz belə bir əhval-ruhiyyə ilə yollanıb.

**Dördüncü məqam.** A.Mirzoyan Cenevrədə Beynəlxalq Qızıl Xaç Komitəsinin rəhbəri Mirjana Spolyariç-Eqqerlə görüşüb və adəti üzrə Azərbaycandan şikayətlənib. Ən pisi isə budur ki, "Azərbaycan tərəfindən Qarabağa hücum" məntiqini qabardıb. Deməli, bir tərəfdən ərazi bütövlüyü və suverenliyin qarşılıqlı şəkildə tanınması, digər yandan da ölkəmizin təcavüzkar kimi təqdimatı. Hər halda, böyük təzadı hiss etməmiş deyilsiniz.

Belə çıxır ki, Azərbaycan öz suverenliyini bərpa etməməli, Qarabağda separatçı rejim qalmalı idi. Nəyə görə? Ona görə ki, guya, həmin rejim bölgə ermənilərinin iradəsinin məhsulu kimi meydana çıxmışdı. Bir nüansı da yada salaq. Lokal xarakterli antiterror tədbirlərindən əvvəl həmin Paşinyan idi deyən ki, Qarabağın seçilmiş hakimiyyəti var. Bu deyimlə Mirzoyanın "Azərbaycanın Qarabağa hücumu" məntiqi zərbəni eyni hədəfə – ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhələndirməyə vurur.

Üstəlik, erməni XİN başçısı Beynəlxalq Qızıl Xaç Komitəsinin rəhbəri ilə görüşündə Azərbaycanda saxlanılan şəxslərin qaytarılmasının, eləcə də itkin düşmüşlərin taleyinin müəyyənləşdirilməsinin vacibliyini qabardaraq, Ermənistanın bu istiqamətdə komitə ilə əməkdaşlığa hazır olduğunu təsdiqləyib. Məgər Mirzoyan bilmir ki, haqqında söz açdığı məsələ cəfəngdir? Azərbaycan həbsxanalarındakı ermənilər 44 günlük müharibədən sonra ölkəmizin ərazisində kəşfiyyat-diversiya fəaliyyəti gerçəkləşdirmək istəyənlərdir, cinayətkarlardır. Əgər XİN başçısının heç nəyə baxmayaraq, bu cinayətkarlara ürəyi yanırsa və onların öz evlərinə qayıtmalarını çox istəyirsə, bilməlidir ki, mövcud istiqamətdə BQXK ilə əməkdaşlıq fayda verməyəcək. O tam dərk etməlidir ki, heç bir xarici təzyiq ölkəmizi tutduğu prinsipial baxışdan daşındırmayacaq. Humanistliyə gəlincə, Azərbaycan bunu indiyədək çox edib, yenə də edər. Ancaq baxır hansı şərtlərlə və hansı şəraitdə...

Əslində, Bayramovla görüş öncəsi gedib xaricilərə şikayətlənən Mirzoyan, eləcə də, digər Ermənistan rəsmiləri də yaxşı dərk edirlər ki, Bakı ilə təzyiq dilində danışmağın nəticəsi yoxdur. Əksinə, durum bir qədər də gəriginləşəcək. Görünür, Ermənistan rəhbərliyinin məqsədi elə budur – hər şeyi mürəkkəbləşdirmək. Başqa cür düşünmək üçün əsas yoxdur. Fikrimizi bir qədər də dolğunlaşdırmaq üçün baş nazir Nikol Paşinyanın söylədiklərinə diqqət yetirək.



**Beşinci məqam.** Deməli, N.Paşinyan Almaniya Bundestaqı Hüquq məsələləri komissiyasının sədri Elizabet Vinkelmeyer-Bekeri qəbul edərkən, Ermənistanda demokratik islahatların səmərəli təşviqində, eləcə də Cənubi Qafqazda sülhün və sabitliyin təminatlnda Almaniyanın dəstəyini xüsusi vurğulayıb. Sual olunur: Almaniya nə üçün Ermənistanın daxili işi olan məsələni təşviq etməli və İrəvan buna normal yanaşmalıdır? Nə isə, bu məqamın üzərində çox dayanmayaq. Çünki, necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Yəni, Nikol və komandasının üzvləri demokratiyadan, söz azadlığından və sair bu kimi beynəlxalq qüvvələrin manipulyasiya predmetinə çevrildiyi şübhə doğurmayan dəyərlərdən danışarkən, yuxarıda da vurğuladığımız kimi, subliminal mesaj verirlər. Sanki, beynəlxalq müstəvidəki bəzi dairələrin Azərbaycana qarşı ənənəvi qərəzli münasibətini yada salıb, üstünlük qazanmağa çalışırlar. Nə üçün belə düşüncədəyik? O səbəbdən ki, Paşinyan yuxarıda sadaladığımız fikirlərini bitirər-bitirməz, Azərbaycan–Ermənistan münasibətlərinə keçid alır.

Bəli, Paşinyan Mirzoyan kimi siyasi şivən qoparmasa da, onun mövqeyini pozitiv saymaq mümkünsüzdür. Diqqət yetirək, Nikol Kansler Olaf Şoltsun Bakı və İrəvan arasında sülh prosesinə verdiyi töhfəni xatırladır və ən əsası ötən ilin payızında Qranadada keçirilmiş görüşü önə çəkir. Əlbəttə, başa düşürük ki, Nikol yarımçıq bildiyi diplomatik etiket məsələsində Almaniya nümayəndə heyətinə Kansler barədə xoş söz demək istəyir. Ancaq, o, hər kəlməsinin fiksasiya olunduğunu nəzərə almır.

Erməni baş nazir nəzərə almır və düşünmür ki, Azərbaycan həmin Qranada sammitinə qatılmamışdı və Bakı üçün toplantı zamanı Avropa Şurası İttifaqının prezidenti Şarl Mişelin, Paşinyanın, Fransa prezdeinti Emmanuel Makronun və Kansler Şoltsun qəbul etdikləri sənəd mənasız kağızdan başqa bir şey deyil. Belədə nəyə görə həmin sənəd Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanmasının prinsipləri kimi nəzərdən keçirilməlidir? Yəni, Paşinyan hansı məntiqlə bu cür yolverilməz ritorikaya üstünlük verməlidir? O, Qranada sammitinin adını çəkməməlidir!

Sonda ümumən, belə nəticəyə gəlirik ki, Azərbaycan və Ermənistan nazirlərinin uzun fasilədən sonra Berlində görüşməsi müsbət haldır. O anlamda ki, tərəflərin təmaslarındakı ayrı-ayrı motivlər gərginlik riskinin aşağı düşməsini şərtləndirə bilər. Ancaq, bu, yetərli deyil. Ermənistan konstruktiv davranmalı, Prezident İlham Əliyevin də bildirdiyi kimi, ölkəmizin sülh şərtlərini qəbul etməlidir, ərazi iddiasından uzaqlığını təsdiqləməlidir. Söylədiklərimizə nəzərən belə görünür ki, Berlin görüşü bu nəticənin əldə olunması baxımından heç də tutarlı platforma deyil. Digər tərəfdən, İrəvanın öz "prioritetləri" var.

Erməni tərəfin Almaniyanın paytaxtında görüşə razılıq verməsi isə yalnız sülhdə maraqlı olduğuna dair rəy formalaşdırmaq, beynəlxalq ictimaiyyəti çaşdırmaqdır. Bu, sülh gündəmi ilə imitasiyadır. Özü də uğursuz imitasiya.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

# Fransız avantürizmindən sonra alman dəqiqliyi olacaqmı?

## *Bakı danışıqların yeni raundundan məhz bunu gözləyir*

**Məlum səbəblərdən ikitərəfli danışıqlarda müəyyən fasilə yaransa da, sülh sazişinin mətni üzərində iş davam etdirilir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasındakı görüşdən sonra prosesə yenidən start verilməsi barədə qərar qəbul olunmuşdu.**

Beləliklə, Almaniya paytaxtının sülh dialoqunun yeni platforması kimi təşəbbüsü ələ almağa çalışdığı göz qabağındadır. Bu gün Ermənistan və Azərbaycan XİN başçılarının Berlində görüşü başlayır. Bakının sülh danışıqlarının bu platformasından praqmatik alman dəqiqliyinə ümid bəsləməsi əbəs deyil. Bu ümidlərin indiki mərhələdə konkret motivə söykəndiyini deyə bilərik. Elə Avropa İttifaqında Fransanın "yedəyində getdiyi" görüntüsü yaranmış Almaniyanın bu təşəbbüsünü ümidləri doğrultmaq, özünü reabilitasiya etmək cəhdi kimi qiymətləndirənlər də az deyil. Rəsmi Berlinin bu şansdan necə yararlanacağı indi bəlli olacaq.



* * *

Hələlik Bakı və İrəvan arasında sülh sazişi üzərində dialoqun müvəqqəti "ölü nöqtə"dən tərpəndiyini söyləmək olar. "Son beş ay ərzində heç bir razılaşma əldə olunmasa da, Ermənistanla sərhəddə sülh və əmin-amanlıq hökm sürüb", – deyən Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov sülhdə maraqlı olmayan müəyyən dairələri gərginlik yaratmaqda ittiham edib.

"Beş aya yaxın müddətdə Azərbaycan və Ermənistan arasındakı şərti sərhəddə ən dinc dövr olub. Bəzi dairələr bu məsələdən narahatdırlar və vəziyyəti dəyişmək, gərginlik yaratmaq üçün əllərindən gələn hər şeyi edirlər". Qarşıdakı görüşlə bağlı mediaya açıqlamasında bu sözləri dilə gətirən C.Bayramov Avropa İttifaqı missiyasının fəaliyyətinin şərti sərhəddə gərginlik yaratdığını açıq şəkildə vurğulayıb: "Avropa İttifaqı missiyasının sərhəddəki fəaliyyəti, gərginlik olmadığı halda müxtəlif Qərb diplomatlarının sərhədə gəlməsi bu məsələnin daim gündəmdə saxlanılmasına və gərginlik kimi təqdim edilməsinə xidmət edir. Şoltsun təşəbbüsü ilə keçirilən görüşdən sonra sülh prosesinin inkişafının vacibliyi önə çəkildi və dialoq razılaşdırıldı. Amma bundan dərhal sonra Fransa prezidentinin bəyanatı, daha sonra bu ölkənin müdafiə nazirinin Ermənistana səfəri və onun qızışdırıcı açıqlamalarının şahidi olduq".

Əslində, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Berlin görüşünü tərəflər arasında fevraln 17-də Münxendə bərpa edilmiş ikitərəfli sülh danışıqları prosesinin növbəti mərhələsi kimi dəyərləndirmək olar. Son günlər İrəvanın günahı üzündən şərti sərhəddə vəziyyətin gərginləşməsi fonunda Münxendə əldə edilmiş razılaşmanın davam etdirilməsi qərara alınıb. Belə güman etmək olar ki, Berlin danışıqları müsbət məcrada baş tutarsa, tərəflər arasında müzakirə mövzusu olacaq əsas məsələ son vaxtlar müşahidə olunan eskalasiyanın aradan qaldırılması ilə bağlı olacaq.

Ehtimal edilən digər məsələ isə Ermənistan tərəfinin 2024-cü il yanvarın 4-də sülh müqaviləsi mətnində Azərbaycana təqdim etdiyi 6-cı prinsipin rəsmi Bakı tərəfindən redaktə edilərək yenidən İrəvana göndərilmiş son variantı üzərində müzakirəsi sayılır. Bu günlərdə Ermənistan mediasının tirajladığı məlumatlarda həmin təklifdə söhbətin sərhədlərin delimitasiyası və demarkasiyasının hansı xəritələr əsasında aparılacağı vurğulanır. Rəsmi İrəvan sərhədlərin SSRİ ordusunun Baş Qərargahı tərəfindən təsdiqlənmiş 1991-ci il xəritələri əsasında, yəni Alma-Ata Bəyannaməsinin imzalandığı dövrə istinadla müəyyənləşməsində israr edir. Fəqət Bakı İrəvanın bu mövqeyini ona görə qəbul etmir ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq müharibəsi aparmaqla Alma-Ata Bəyannaməsini pozub. Yəni, faktiki olaraq, Sovetlərin inzibati sərhədindən imtina edib. Ən azı bu səbəbdən sərhəd xətti yenidən çəkilməlidir.

* * *

Bakı sülh danışıqlarından ən müxtəlif bəhanələrlə, həm də dəfələrlə boyun qaçıran rəsmi İrəvana son xəbərdarlığını edib. "Özünə yeni sahib axtaran, kiminsə qucağına sığınan Ermənistan bilməlidir ki, onun yeganə yolu Bakının bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından imtina etməkdir". Aərbaycan Prezidenti İlham Əliyevin bu sözlərini rəsmi İrəvan məhz son şansı kimi dəyərləndirməlidir. Bu ismarıc həm də bölgədə özəl maraqlarını güdən kənar aktorlara ünvanlanıb.

İkitərəfli dialoqa hər cür dəstəyi davam etdirəcəklərini dəfələrlə təkrarlayan ABŞ Dövlət katibi Antoni Blinken Cənubi Qafqazı regionda davamlı sülhə nail olmağın açarı adlandırmışdı. Yəni, rəsmi Vaşinqton Ermənistanla Azərbaycan arasında qarşılıqlı münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxladığını, sülh gündəliyinin davamlı olması üçün atdığı addımlarda qəti mövqedən çıxış etdiyini ortaya qoymuşdu. Böyük güclərin Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması istiqamətində gedən prosesə dəstək nümayiş etdirmələri məsələnin beynəlxalq miqyasda diqqət mərkəzində saxlanıldığını deməyə əsas verir.

Bəli, Ağ Evin bölgədə tezliklə sülhə nail olunması üçün göstərdiyi səylər hamının gözü önündədir. Əlbəttə, onların bu bölgədə kəsişən maraqları da böyük əhəmiyyət daşıyır. Yeri gəlmişkən, bir müddət öncə ABŞ Ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi, xarici Ticarət Xidmətləri üzrə baş direktor Arun Venkataramanın Orta dəhlizin inkişafını dəstəklədikləri ilə bağlı bəyanatı təsadüfi sayıla bilməz. O, Orta dəhlizin tam işlək vəziyyətə gətirilməsi ilə ticarət imkanlarının, dövriyyənin kəskin artıracağını xüsusi vurğulamışdı. Burada diqqəti çəkən əsas məqam odur ki, Azərbaycan son vaxtlar hamının diqqətini cəlb edən və aktuallığı artan Orta dəhliz layihəsində ən əsas halqalardan biridir. Yəni, yaxın perspektivdə ölkəmiz öz ərazisində beynəlxalq tranzit marşrutlarını daha bir istiqamətdə şaxələndirmək imkanı qazanacaq. Bu isə Zəngəzur dəhlizi hesabına reallaşacaq.

Beləliklə, Ermənistan və Azərbaycan sülh danışıqlarının son və həlledici fazasına daxil olub. İrəvanın bu mərhələdə də, qərbli "bacılarına" uyub, qeyri-konstruktiv mövqe sərgiləməsi regionda əməkdaşlığı yubatmaqla yanaşı, özünün gələcək inkişafına sədd çəkəcək. Arxada buraxılan otuz illik işğal dövründə Ermənistan onsuz da təkcə hərbi deyil, həm də iqtisadi-siyasi müstəvidə çox şey itirib. İndiki mərhələdə sülhə əngəlyaratma siyasəti ona daha böyük zərbə vura bilər. Daha yolun sonudur, qarşıda yalnız dalan görünür. İrəvan hansı tərəfə vurnuxsa da, bu reallıqdan qaça bilməyəcək. Bu gün Bakı Berlində İrəvanı sadəcə sülhə deyil, həm də yeni əməkdaşlıq platformasına dəvət edir. Burada ən çox qazanan isə yeni inkişaf mərhələsinə başlamaq şansı əldə edəcək Ermənistan olacaq...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

Təəssüflər olsun ki, mənim Berlin danışıqlarından ciddi gözləntilərim yoxdur. Rəsmi İrəvan tərəfindən səsləndirilən son bəyanatlar onu deməyə əsas verir ki, Ermənistan hələ də sülhə tam hazır deyil və bizim təkliflərimizi qəbul etmir. Doğrudur, Berlin görüşü də dialoq formatıdır və oradan müəyyən pozitiv xəbərləri eşitmək istərdik. Amma buna ümid çox azdır. Çünki Nikol Paşinyanın Parisə səfəri zamanı çıxışında dediyi fikirlər, ittihamlar ümidverici heç nə vəd eləmir.

Aydın məsələdir ki, bu zaman uduzan Azərbaycan deyil, yenə Ermənistan olacaq. Bəli, Bakı özünün sülh gündəliyini formalaşdırıb, bütün məsələlər üzrə təkliflərini qarşı tərəfə verib. Amma burada bizim milli maraqlarımız, təhlükəsizliyimiz kimi vacib məsələlər də mövcuddur. Fakt budur ki, torpaqlarımız otuz il işğal altında olub. İndi Azərbaycanın sərgilədiyi mövqe məhz bu amilə söykənir. Bakı vəziyyətin bir daha bu həddə gəlib çatmasına heç vaxt yol verməyəcək.

Yəni, bütün bunları nəzərə alaraq, Berlin görüşü ilə bağlı optimist proqnozlar verməkdə çətinlik çəkirəm.

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Xarici işlər nazirlərinin Berlin təmasını Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında Münxendə baş tutmuş görüşün davamı kimi qiymətləndirmək mümkündür. Həmin görüş də Almaniya Kansleri Olaf Şoltsun vasitəçiliyi ilə keçirilmişdi. Düzdür, onda rəsmi Berlin aktiv vasitəçi kimi çıxış etməmişdi, amma yenə də, Münxenin ardınca sülh danışıqlarının Berlində davam etdirilməsi ondan xəbər verir ki, Almaniya beynəlxalq təşəbbüskar kimi Fransadan geridə qalmaq istəmir. Çünki Azərbaycan ermənipərəst mövqeyi ilə "məşhurlaşmış" Parisin vasitəçiliyini qəbul etmir. Azərbaycan yeni dialoq platforması kimi Almaniyanı qəbul edir, Ermənistan da buna etiraz etmir.

Azərbaycan və Ermənistan XİN başçılarının Berlin görüşündən böyük müsbət nəticələr gözləmək doğru olmaz. Münxen dialoqu da böyük nəticəyə hesablanmamışdı. Əsas məqsəd münasibətlərdəki qarşılıqlı gərginliyi yumşaltmaq idi. Bölgədə gərginlik məhz Ermənistan tərəfinin təxribatlarına görə artıb. Düşünürük ki, Berlin görüşünün məqsədi də münasibətləri yumşaltmaqdır. Müsbət hal o ola bilərdi ki, nazirlər çərçivə sənədinin mətni üzərində konkret irəliləyişə nail olsunlar. Fəqət bunu söyləmək çətindir.

Sonuncu Münxen görüşündə də müsbət atmosfer yaradılandan sonra Fransa özünün pozuculuq fəaliyyətini davam etdirdi. Paşinyan Parisə çağırıldı, orada hərbi yardımla bağlı beynini doldurdular. Baş nazir elə oradaca təxribatçı bəyanatlar verdi, Azərbaycanı Ermənistana təcavüzə hazırlaşmada ittiham elədi. Bu dəfə də oxşar situasiya yarana bilər. Berlində tətəflər arasında müsbət atmosfer yaradılsa da, yenə Paris Paşinyana təzyiqlər edə və sərhəddə gərginlik yarada bilər. Doğrudur, Ermənistan parlamentinin sədri Alen Simonyan son açıqlamalarında Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasının tərəfdarı olduğunu deyib, Berlin görüşünü irəliyə doğru atılan addım kimi qiymətləndirib. Amma bunlar şifahi jestlərdir, Bakı real addımlar gözləyir.

# “Dəmir yumruq” yerindədir

*(əvvəli 1-ci səhifədə)*



Xalqımızın əzmi, birliyi, mətanəti 2023-cü ilin yayında son çırpıntılarını edən separatçı xunta rejimi ilə mübarizədə özünü bir daha nümayiş etdirdi. Cəmiyyətimiz yenə Ali Baş Komandanın ətrafında sıx birləşib, yumruq kimi bir olaraq, bütün yay boyunca Ermənistandan, qondarma rejimdən və hayların xaricdəki havadarı olan böyük dövlətlərdən gələn əsassız hücumlara mərdliklə sinə gərdi. Bu hücumlar o qədər əsassız idi ki, onlara dözmək üçün hər birimizdən əsəblərin möhkəmliyi tələb olunurdu. Ancaq biz bu sınaqdan da layiqincə çıxmağı bacardıq. 2023-cü il sentyabrın 19-da başlanan və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olundu.

İndi isə ölkəmizin həyatında yeni dövr başlayır. Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində bildirdiyi kimi, biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Dövlətimizin başçısı qeyd etdi ki, bu dövrün böyük nailiyyətləri olacaq və o, buna şübhə etmir: “Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən, bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur”.

Prezidentin konsepsiya xarakterli, gələcəyin yol xəritəsi adlandıra biləcəyimiz məlum nitqində ordu quruculuğu məsələsinə də xüsusi diqqət yetirildi. Qeyd edildi ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, silahlı qüvvələrimizin daha da gücləndirilməsidir: “İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir”.

Bəli, Prezidentin bu sözləri bizi yaxın keçmişə apardı. 2022 il iyunun 26-da – Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə Döyüş Bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirakı zamanı etdiyi çıxışında Ali Baş Komandanı İlham Əliyev demişdi: “Müharibədən sonra – bu gün Azərbaycan Ordusu daha güclüdür. Həm təchizat, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək...”

Dövlət başçımız andiçmə mərasimində isə silahlı qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımların atıldığını, lazımi silah-sursat, texnika alındığını, yeni silahlı birləşmələr yaradıldığını bildirdi və qeyd etdi ki, Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış komando silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə ordu yaratmışıq ki, – bundan sonra da bu işlər davam edəcək, – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz.

Prezident bildirdi ki, biz, eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq: “Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan–İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan–Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin”.

Əlbəttə, dövlət başçımızın yeni dövrdə ordu quruculuğu və sərhədlərin təhlükəsizliyi ilə bağlı qarşıya qoyduğu vəzifələr mühüm aktuallıq kəsb edir. Məsələ ondadır ki, Azərbaycan ərazi bütövlüyünü tam bərpa etsə də, ölkəmizə olan hücumlar bir an dayanmayıb. Əksinə, müxtəlif anti-Azərbaycan dairələr bu hücumları genişləndirməyə çalışırlar. Belə olan təqdirdə ən münasib çıxış yolu ordumuzun gücləndirilməsidir. Yalnız güclü ordu qarşısında müxtəlif mərkəzlər özlərini, necə deyərlər, yığışdırmağa məcbur olurlar. Yalnız güclü ordu bizim bu torpaqlarda əbədi yaşayacağımızın təminatçısıdır. Əgər ölkəmizə qənim kəsilmiş qüvvələr ordumuzun zəif olduğunu görsələr, dərhal hər tərəfdən üzərimizə hücuma keçərlər.

Prezidentin çıxışı zamanı qeyd etdiyi sərhədlərin təhlükəsizliyi məsələsi də vacib məqamdır. Çünki sərhədlərimizin mühafizəsi ölkəmizin və onun vətəndaşlarının xarici risklərdən qorunması deməkdir. Son illərdə regionda baş verən proseslər Azərbaycan üçün də müəyyən risklər yaradır. Ölkə daxilində mövcud olan həmrəylik daxili riskləri sıfıra endirib. Dövlət başçımızın da dediyi kimi, mümkün olan bütün potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Bu baxımdan, təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur.

Mövzu ilə bağlı söhbətləşdiyimiz **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirdi ki,**



hazırda yalnız güclü dövlət özünün milli maraqlarını müdafiə və perspektiv inkişafını təmin edə bilər. Milli maraqların müdafiəsini təmin edən isə güclü ordu, eləcə də digər qoşun növləridir: “Silahlı Qüvvələrin Ali Baş Komandanı ordu quruculuğunu prioritet məsələ kimi qarşıya qoyub. Növbəti mərhələdə ordumuzun peşəkarlığının daha da artırılması, müasir silah-sursatla təchiz edilməsi, Türkiyə modelinə keçilərək inkişafın davam etdirilməsi gündəmdədir. Eyni zamanda, Vətən müharibəsindən sonra komando hərbi hissələri yaradılıb, onların sıralarında xidmət keçən hərbçilərin sayı minlərlədir və bu proses davam edir. Eyni zamanda, Xüsusi Təyinatlı Qüvvələrin sayı da bir neçə dəfə artırılıb. Azərbaycan Ordusunun süni intellektə malik silahlarla təchiz olunması istiqamətində də addımlar atılır. Cənab Prezident andiçmə mərasimindəki nitqində bizim ordumuzun nəyə qadir olduğunu da qeyd etdi. Bu günün Azərbaycan Ordusu paradlarda və təlimlərdə formalaşan ordu deyil, döyüş meydanında öz gücünü, nəyə qadir olduğunu göstərən ordudur”.

Ordu korpusunun sabiq komandiri dedi ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi də onların gələcəkdə orduda xidmət etdiyi zaman öz sözünü deyir: “Cənab Prezidentin qarşıya qoyduğu məsələlərdən biri də silah-sursat və hərbi texnika ilə təminat məsələsində xarici asılılıqdan, necə deyərlər, canımızı qurtarmaqla bağlıdır. Azərbaycanın hərbi sənaye kompleksinin, yaxud müdafiə sənayesinin imkanlarının artması ilə ordumuzun xarici asılılığı azalacaq. İkinci Qarabağ müharibəsi göstərdi ki, Azərbaycanın müdafiə sənayesi ordumuzu həm patron, həm mərmi, həm də minaatanlar üçün minalarla tam təmin etməyə qadirdir. Mən düşünürəm ki, bu, mühüm amildir. Xidmət etdiyim dövrdən bir misal gətirmək istəyirəm. Birinci Qarabağ müharibəsində Horadiz istiqamətində gedən döyüşlər zamanı biz həm silah, həm də sursat cəhətdən böyük korluq çəkirdik. Mən komandir kimi Müdafiə Nazirliyinin müvafiq idarəsinə tələb olunan mərmi üçün müraciət edəndə dedilər ki, bilirsiniz, biz bir mərmini 249 dollara alırıq. Yəni, bu, “yox!” demək idi”.

Müsahibimiz qeyd etdi ki, müharibə aparan tərəflərə silah-sursatın satılmasına məhdudiyyətləri də nəzərə almaq lazımdır. Digər tərəfdən, silah satan tərəf tələbin artmasından irəli gələrək qiymətləri də artırır: “Demək istəyirəm ki, müdafiə sənayesinin qısa zamanda yaradılması, inkişaf etdirilməsi və beynəlxalq sərgilərə yüzdən çox çeşiddə hərbi təyinatlı mallarla çıxması bizim böyük uğurumuzdur. Bu gün Azərbaycan Ordusunun inkişafı ilə müdafiə sənayesinin inkişafı paralel gedir. Hərbi təyinatlı mallar istehsal edən yeni müəssisələr yaradılıb. Onlar müasir cihazlarla təmin olunub. Azərbaycan Texniki Universiteti müdafiə sənayesi üçün ali təhsilli kadrlar – mühəndislər hazırlayır. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqəti bu gün müdafiə sənayemizin rentabelli sənayeyə çevrilməsinə də səbəb olub. Amma bizim üçün əsas məsələ məhz Azərbaycan Ordusunun təminatıdır”.

Ş.Ramaldanov onu da bildirdi ki, bütün bu uğurlar Azərbaycanda mövcud olan daxili sabitlik, iqtisadi inkişaf, xalqın öz liderinə inamı, onun ətrafında sıx birləşməsi nəticəsində əldə olunub. Onun sözlərinə görə, əlbəttə, bunlar olmadan belə böyük nəticələr qazana bilməzdik. Bu faktorlar Azərbaycan dövlətinin inkişafla bağlı qarşıdakı dövrdə mühüm, böyük planlar qurmasına imkan verir. Həmin planların icrası nəticəsində isə böyük nailiyyətlər əldə ediləcək.

***Səxavət HƏMİD***
***XQ***

# Keniyada COP29 müzakirəsi

**Dünən COP29-un Azərbaycan üzrə “Gənclər iqlim çempionu” Leyla Həsənova Keniyada fəaliyyət göstərən gənclər təşkilatlarının nümayəndələri ilə görüşüb. Toplantını Azərbaycanın Keniyadakı səfirliyi, bu ölkənin Milli Gənclər Şurası və QHT-lər Şurası təşkil edib.**

Leyla Həsənovanın Azərbaycan nümayəndə heyətinin tərkibində BMT-nin Ətraf Mühit Assambleyasının (UNEA) 6-cı iclasında iştirak etmək üçün Nayrobi şəhərinə səfəri çərçivəsində keçirilən görüşə Keniyada fəaliyyət göstərən 30-a yaxın gənclər təşkilatının nümayəndələri, Keniya Gənclər və Keniya QHT-lər şuralarının rəsmiləri qatılıblar.

Leyla Həsənova bildirib ki, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın multikultural irsi COP29-da bütün tərəfləri bir araya gətirməyə xidmət edəcək, təkcə dövlətləri deyil, gəncləri və vətəndaş cəmiyyəti təşkilatlarını da öz ətrafında birləşdirəcək.

Görüşdə COP29-da gənclər təşkilatlarının rolunun vacibliyi, Keniya ilə



Azərbaycan arasında, eləcə də regional istiqamət üzrə birgə təşəbbüs və əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin mart ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Əhmədov Əli Cavad oğlu | 4 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 5 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Əmiraslanov Azər Kamal oğlu | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 27 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 12 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 13 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 14 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 15 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 18 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 19 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 27 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 28 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 29 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 11 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

**Replika**

# Erməni özünüaldatmasının növbəti testi

## *Yaxud “feyk”in peyk zirvəsi*

**Hansısa sosioloqun sözüdür: bütün üsullar və versiyalar işə yarımayıb sıradan çıxanda dövriyyəyə “özünüaldatma testləri” buraxılır. Burada qarşı tərəfi inandırmaqdan daha çox, özünü və ərtafını, qısa müddətə olsa da, “uydurmanın təsir dairəsində saxlamaq” məqsədi güdülür. Bu zaman feyk-informasiyanın “etibarlı mənbədən” əldə edildiyi xüsusilə nəzərə çatdırılır.**




Beləliklə, bundan sonra Fransa Ermənistana Azərbaycan, İran, Rusiya və Türkiyə ilə bağlı kəşfiyyat məlumatlarını ötürəcək. Dünən bu barədə Fransa mediasına istinadla Ermənistan sosial şəbəkələrində eninə-uzununa “feyk-informasiya” dolaşdı. İş o yerə çatdı ki, “hadisə” ətrafında araşdırmalara da baş vuruldu. Belə incələmədən birini Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru, tanınmış siyasi-hərbi şərhçi İqor Korotçen-



ko apardı. Onun gəldiyi qənaət bundan ibarətdir ki, baş nazir Nikol Paşinyan Parisə səfəri çərçivəsində Fransa (DGSE) və Ermənistan xarici kəşfiyyat xidmətləri arasında sıx tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılıq əldə edib.

İ.Korotçenko özünün “Telegram” kanalında yazıb: “Qarşılıqlı şəkildə razılaşdırılmış məsələlərin siyahısına uyğun olaraq, İrəvana Azərbaycan, İran, Rusiya və Türkiyə üzrə DGSE tərəfindən alınan siyasi və hərbi xarakterli kəşfiyyat məlumatlarının, o cümlədən peyk və elektron kəşfiyyat materiallarının ötürülməsi nəzərdə tutulur”. Belə çıxır ki, Fransanın, o cümlədən, Avropa İttifaqının Ermənistan ərazisindəki fəaliyyəti, sadəcə, Azərbaycan əleyhinə yönəlməyib. Bu “siam əkizləri” Azərbaycan, İran, Rusiya və Türkiyə ilə bağlı kəşfiyyat məlumatlarını Ermənistana ötürəcəkmiş. Və bu gizli saziş barədə məlumat rahatca ictimaiyyətin diqqətinə çatdırılıb.

Yəni, “tam məxfi” qrifinə düşən dövlətlərarası xüsusi sövdələşmə sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilir. Ortadakı məntiqsizliyin dərəcəsinə təəccüblənməmək olmur. Buna hətta savadlı siyasi, hərbi şərhçilər ciddi reaksiya verməyə girişiblər. Tutaq ki, Parislə İrəvan arasında belə bir separat anlaşma olub. Sövdələşmə faş olandan sonra, Azərbaycan daxil olmaqla, həmin 4 dövlət sakit duracaqlarmı? Onları dövlət olaraq ortaq təhlükəyə qarşı birgə hərəkət etmək perspektivindən kimi məhrum edə bilər?

Əsl həqiqət isə ondan ibarətdir ki, son vaxtlar Fransa kəşfiyyat xidməti həm Azərbaycanda, həm də Türkiyədə ifşaedici zərbələrə məruz qalıb. Bu ölkənin məxfi şəbəkəsinin üzvləri Azərbaycan və Türkiyədə həbs olunublar. Üstəlik, casusluq fəaliyyəti ilə məşğul olan 2 diplomata “persona non-qrata” elan edilib. Bu səbəbdən Fransa Azərbaycan və Türkiyə ilə bağlı məxfi məlumatları Ermənistana hansı “kəşfiyyat şəbəkəsi” vasitəsilə ötürəcək? Əgər bu şəbəkə Azərbaycan və Türkiyədə hələ tam neytrallaşdırılmayıbsa, Ankara və Bakının bu yöndə hərtərəfli əməkdaşlığına heç nə əngəl ola bilməz.

Adını unutduğumuz həmin sosioloq həyati misallar üzərində qurduğu nəzəriyyəsinin sonunda belə qənaətə gəlir ki, bu prosesdə ən maraqlı cəhət yalan müəllifinin özünün uydurduğuna inanmasıdır. Bunu isə müəllif “feykin tiumfu” kimi səciyyələndirir.

Deməli, İrəvan da “istəyinə” nail olub və indi “feykin zirvəsində” qərar tutub. İntəhası, özgə atına minən tez düşdüyü kimi, hayların da o “zirvədən” aşağı yuvarlanması uzaqda deyil.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qorbaçovun "xeyir-dua"sı və ermənilərin "şər yuvası"

## Sumqayıt hadisələrindən 36 il ötür

**Ötən əsrin sonuna yaxın ermənilərin start verdiyi "Qarabağ hərəkatı"nın ilkin həlqələrindən biri də 1988-ci il fevralın 27–29-da baş verən Sumqayıt hadisələri oldu. Onda hələ sovet rejimi hökm sürürdü və Xəzərsahili beynəlmiləl şəhərdə qanlı aksiyaların törədilməsi aydın səmada şimşək kimi çaxdı. Üç günlük talanlar, qətllər tələm-tələsik foto və kino lentlərinə çəkilərək dünyaya yayıldı ki, "məzlum" hayların bizim əlimizdən nələr çəkdiyi bilinsin.**

Halbuki, "aysberq"in görünməyən tərəfində Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi niyyəti dururdu. Məhz Sumqayıt hadisələrindən sonra ermənilər uydurma "Dağlıq Qarabağ problemi" fonunda daha da fəallaşdılar və inandılar ki, ələ aldıqları SSRİ rəhbərliyinin, konkret olaraq SSRİ rəhbəri Mixail Qorbaçovun "xeyir-dua"sı ilə qondarma respublikalarının ərazisini bir qədər də böyüdəcəklər. Onlar Sumqayıt olaylarını dəstavuz edərək ilhaqçılıq fəaliyyətlərinə legitimlik donu geydirməyə çalışdılar. Sumqayıtdan tapılan "Paşa" ləqəbli keçmiş məhbus Eduard Qriqoryanın başıpozuq dəstəsinin əli ilə şəhərdə iğtişaşlar törətdilər. Evlər talan olundu, maşınlar yandırıldı, mağazalar qarət edildi və 26-sı erməni, 6-sı azərbaycanlı olmaqla 32 nəfər dinc sakin qətlə yetirildi.

Sumqayıtda yaşayan bu sətirlərin müəllifi o müdhiş hadisələrin şəxsən şahidi olub. Fevralın 27-si səhərdən əhalinin daha gur olduğu mərkəzi kolxoz bazarının ətrafında meşin gödəkçəli gəlmə şəxslər camaata Ermənistanın Quqark (Pəmbək), Leninakan (Gümrü) və Kirovakan (Böyük Qarakilsə) qaçıb gəldiklərini, oralarda azərbaycanlıların kütləvi qırğına məruz qaldıqlarını söyləyir, anti-erməni təbliğatı aparırdılar. Kimin ağlına gələrdi ki, onlar azərbaycanca təmiz bilən erməni missionerləri idi?

Tədricən böyüyən izdiham günortadan sonra şəhər partiya komitəsinin qarşısındakı meydana səmt aldı və orada "Ermənilərə ölüm!" şüarları ilə mitinq başlandı. Beləcə, qığılcımdan alov doğdu və növbəti günlərdə qarışıqlıq, talanlar bütün şəhəri bürüdü. 2-ci mikrorayonun "Dostluq" küçəsi səmtindəki evin 5-ci mərtəbəsindən bir erməni qocasının aşağı atıldığını, 45-ci məhəllənin "C.Cabbarlı" küçəsi tərəfində ortayaşlı erməni qadının lüt-anadangəlmə soyundurularaq çölə çıxarıldığını olduğu kimi xatırlayıram. Sonradan öyrəndim ki, həmin qoca xəstəxanada canını tapşırıb, qadını isə aparıb yandırıblar...

"Paşa"nın qoçuları şəhərdə, necə deyərlər, dördnala çapırdılar. Qarşısıalınmaz kütlə yaşayış binalarının konkret ünvanlı mənzillərinə hücum çəkir, erməni sakinlərə divan tuturdu. Sən demə, həmin ünvanlarda separatizm məqsədilə gizli formada yaradılmış "Krunk" ("Qərib durna") təşkilatı üçün ianə verməyənlərin siyahısında olan ermənilər yaşayırmış. Qriqoryanların xüsusi siyahı üzrə hərəkət etdiyini çoxları bilmirdi. Onlar isə əsasən talançılığa meyilli kriminal ünsürləri başına toplamışdılar. Əlbəttə, sadəlövhlükdən onlara qoşulan səbatsız azərbaycanlı gənclər də vardı.

Cinayətlə bağlı konkret rəqəm və faktlardan çox yazılıb. Bir daha onu qeyd etmək istəyirəm ki, fevralın 29-da şəhərin küçələrinə milis işçilərindən və sovet ordusu əsgərlərindən ibarət "kordon"lar düzülsə də, onların hamısı adi müşahidəçi rolunu oynayırdı. "Sülh" küçəsi boyunca rus zirehli transportyorları o baş-bu başa şütüyürdü. Gözü qızmış kütlənin arasından yola çıxaraq həmin "BTR"lərə benzin dolu şüşə qablar atan bir neçə nəfərin hərbi maşınların altında qalaraq öldüyünün də canlı şahidiyəm. Sonradan bilindi ki, təşkilatçılar quldur dəstəsini əvvəlcədən boruyayma zavodunda erməni ustaların hazırladığı şiş uclu dəmir parçaları ilə silahlandırıb, spirtli içki və narkotiklərlə yetərincə təmin ediblərmiş...

Prokurorluq orqanlarının arxiv materiallarından məlum olur ki, "Paşa" hələ 1988-ci ilin əvvəllərində Xankəndidə bir müddət sonra Ermənistanın prezidenti olacaq Serj Sarkisyanla, "Daşnaksütun"un ilkin maliyyə dəstəyi, katolikos I Vazgenin xeyir-dua verdiyi "Krunk"un fəalları Manucarov və Dədəmyanla görüşübmüş. Vəzifə yiyəsi olan qatı separatçıların Sumqayıtdan gələn tüfeyli, kriminal Ediklə nə işi ola bilərdi? Təbii ki, "uzaqgörən" plana əsasən, Qarabağın işğalı məsələsində Sumqayıt kartını ortaya atmaq üçün Azərbaycan dilini təmiz bilən cinayətkar ünsürü təlimatlandırırlarmış. O da tapşırıq alandan sonra qayıdıb Sumqayıtda aranı qatdı ki, ermənilərə zülm edildiyini və iki millətin bir arada yaşamasının mümkünsüz olduğunu aləmə car çəksinlər.

Sumqayıt hadisələrindən bir il sonra "Krunk" Abxaziyada erməni mədəni və xeyriyyə cəmiyyəti kimi rəsmi fəaliyyətə başlayıb. Bu təşkilatın Abxaziyada erməni icmasına qarşı ayrı-seçkilik fonunda narazı cəmiyyət formalaşdırdığı məlumdur və bu da istər-istəməz adamı abxaz separatizmində gizli erməni köklərinin olması barədə düşüncələrə vadar edir. Onu da deyək ki, 90-cı illərdə "Krunk"un Qarabağdakı ideoloji bölməsinin rəhbəri Xankəndi ipək fabrikinin ovaxtkı partiya təşkilatı katibi, Xocalı qatili, sonradan Ermənistanın prezidenti olmuş Robert Köçəryan idi…

Üç gün ərzində Sumqayıtda sabitliyin bərpası naminə heç bir tədbir görməyən hakimiyyət dairələri yalnız dalğa yatandan sonra, martın 1-də şəhərdə fövqəladə vəziyyət elan etdilər. Bundan sonra komendant saatı və pasport rejiminin heç bir mənası yox idi. Amma, görünür, bu, Moskvadan göndərilmiş istintaq qrupunun rahat işləməsi üçün lazım imiş. Hadisələrə görə 1000-ə yaxın adam şübhəli şəxs qismində saxlanıldı, 500 nəfər həbs olundu, 94 nəfər mühakimə edildi. Dəstə başçısı Eduard Qriqoryana 12 il, dəstə üzvü Taleh İsmayılova isə 15 il həbs cəzası verildi. Əhməd Əhmədov erməni lobbisinin hay-küyü ilə güllələndi. İkinci qrup əlil olan Elçin Gəncəliyev istintaq dövründə işgəncələrə dözməyərək təcridxana kamerasında özünü asdı.

Qriqoryanın havadarları onu hər vəchlə cəzadan qurtarmağa çalışırdılar. Təşkilatçılar Paşanın əməllərini gizlədir, kimləri isə başçı kimi qələmə verirdilər. Çox çəkmədi ki, Sumqayıtda həbs edilib cinayət məsuliyyətinə cəlb edilən Paşa erməni lobbisinin və Moskvadakı dayaqlarının köməyi ilə Azərbaycandan alınıb Stavropol diyarına göndərildi. Onu müdafiə edən erməni kütləvi informasiya vasitələri Qriqoryanın haqsız tutulduğunu yazırdı. Qatı cinayətkarın cəzası sonradan 9 ilə endirildi.


П О С Т А Н О В Л Е Н И Е
www.genprosecutor.gov.az



"Poçemu Sumqait" adlı məlum məqaləsində mərhum akademik Ziya Bünyadov yazırdı: "Qarabağ komitəsi"nin Sumqayıtda yaşayan üzvləri hadisələrdən bir qədər əvvəl əmanət kassalarında olan pullarını kütləvi surətdə çıxarmağa başlayıblar. Mindən yuxarı erməni dekabr–fevral aylarında 8 milyon 343 min 691 rubl pul çıxarıb Sumqayıtı tərk ediblər. Bu, bir daha sübut edir ki, Sumqayıt olayları qabaqcadan düşünülmüş, planlı bir aksiya idi".

Daha sonra məqalədə cinayəti törətməkdən ötrü nə üçün məhz Sumqayıtın seçilməsinə aydınlıq gətirilir. O zaman 260 min əhalisi olan Sumqayıtda yaşayanların əksəriyyəti gənclər idi. Onlar əsasən rayonlardan axışıb gəlmişdilər və valideyin nəzarətindən uzaq idilər. Belə gəncləri ələ almaq daha asan olardı. Bundan başqa, icbari iş almış 20 min dustaq da Sumqayıtda yerləşdirilmişdi. Cinayət üçün münbit şəraiti olan bu şəhərdə bir qığılcım bəs edirdi ki, ara qarışsın və yalan yerisin.

Həmin ərəfədə İsveçdən Artaşes Qabrielyan adlı bir erməni videokamera ilə Sumqayıta gələrək qabaqcadan planlaşdırılmış hadisələri lentə almaq üçün mövqe seçmişdi. Onun çəkdikləri "Bizi başkəsənlərdən xilas edin" adı ilə xarici ölkələrdə, necə deyərlər, isti-isti göstərilmişdi.

"Böyük Ermənistan" ideoloqları yeni "genosid"i operativ şəkildə yayıb, xislətlərinə uyğun olaraq ağlayıb qan-yaş tökdülər. "Azadlıq" radiostansiyasının erməni redaksiyasının baş redaktoru Eduard Ohanesyan Sumqayıt hadisələrini bəşər tarixində görünməmiş bir aksiya adlandırırdı. Ermənilər ölənlərin sayının 32 deyil, 500 nəfərdən çox olduğunu iddia edirdilər. Yerevanda təcili olaraq "Sumqait, genosid, qlasnost" adlı kitab da nəşr olunub bütün ölkəyə yayılmışdı.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bir sıra məsələlərlə yanaşı, Sumqayıt hadisələrinə də aydınlıq gətirilib, qanlı aksiyaların səbəbləri ətraflı araşdırılıb. Prezident İlham Əliyev 2019-cu il noyabr ayının 21-də Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdəki nitqində sözügedən hadisələrin mahiyyətinə, ermənilərin qanlı aksiyalarının əslində nəyə xidmət etdiyinə bir daha aydınlıq gətirib: "Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir".

Xatırladaq ki, Sumqayıt hadisələrinin təşkilatçılarını məsuliyyətə cəlb etmək üçün müvafiq beynəlxalq orqanlara müraciət edilməsi və bunun üçün hüquqi əsasların müəyyən olunması məqsədilə bir neçə il əvvəl Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Baş Prokurorluğu bununla bağlı istintaqı təzələmiş və araşdırmaların hərtərəfli aparılmasına başlamışdır. İstintaq nəticəsində Sumqayıt hadisələrinin həqiqi mahiyyəti üzə çıxmışdır. Hadisələrin əsas sifarişçi və təhrikçilərinin Mixail Qorbaçov, eləcə də sovet rəhbərliyində təmsil olunmuş ermənipərəst dairələr və "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçi və separatçı qüvvələrinin olması müəyyən edilmişdir. Sübuta yetirilmişdir ki, Sumqayıt təxribatı mahiyyətcə Dağlıq Qarabağın anneksiyasına bəhanə kimi törədilən aksiyadır.

Bəli, Sumqayıtı erməni qətllərinin törədildiyi məkan kimi təqdim etmək cəhdi, əslində, yalanla yoğrulmuş siyasi "tozanaq" idi.

---

**Hadisələrə obyektiv baxış**

# "Erməni tamaşası"nın yunan şahidi

**Bir vaxt dünyaya səs salmış Sumqayıt hadisələrindən ötən 36 ildə təkzibedilməz, ifşaedici faktlarla dönə-dönə sübut olunub ki, 1988-ci il fevral ayının son günlərində, o zaman beynəlmiləl şəhər kimi tanınan Sumqayıtda törədilən hadisələrdən əsas məqsəd ermənilərlə azərbaycanlıların birlikdə yaşamasının qeyri-mümkünlüyünü göstərmək və Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirmək üçün "zəmin" hazırlamaq olub. Amma nankor qonşularımız hələ də yerli-yersiz Sumqayıtda haylara qarşı qətliamlar törədildiyi barədə əsassız iddialar səsləndirirlər.**

Xatırladaq ki, Sumqayıtda "tapşırıq"larını can-başla yerinə yetirmiş "Nalyotçik" ekstremist qrupu – SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları təcili olaraq şəhəri tərk ediblər. Moskvaya qayıdan orqan işçilərinin rütbələri artırılıb, onların hər biri vəzifəcə yüksəlib. Amma hadisələrə obyektiv qiymət verən ruslar, hətta ermənilər də olub. Məsələn, Moskvada çıxan "Novoye vremya" sovet həftəliyi "Blokada" adlı məqaləsində yazırdı ki, oxucuların fikrincə, Sumqayıtda milli zəmində talanlar olmayıb. Təxribat məqsədilə erməniləri elə özlərininkilər öldürüblər. SSRİ DTK-nın sabiq əməkdaşı A.Kiçixin isə "Stolitsa" jurnalında yazırdı: "Biz Sumqayıt, Uzen və Oşda qanlı hadisələrin baş verəcəyi haqqında məlumatlı idik. Bu haqda DTK-ya məlumat verdik. Onlar da Mərkəzi Komitəni xəbərdar etdilər. Bizim bütün yazılı və şifahi məlumatlarımız MK-nın divarları arasında sükutla qarşılandı. Partiya rəhbərliyi separatçıların və cinayət dəstələrinin qarşısını almaq üçün heç nə etmədi".

Hətta o vaxt Sumqayıt şəhərinin komendantı olmuş V.Krayev "Pravda" qəzetinin 21 mart 1988-ci il tarixli sayındakı müsahibəsində bu barədə demişdi: "Ölüm çox ola bilərdi, əgər yerli əhali kömək etməsə idi. Bir avtobus sürücüsü elə həmin gün 10 erməni ailəsini öz doğma rayonu Şəkiyə aparıb". Rus yazıçısı Aleksandr Çekalin "Ekonomiçeskaya qazeta"da dərc etdirdiyi "1983–1993-cü illərdə SSRİ-yə kənardan vurulan 100 zərbə" məqaləsində Sumqayıt hadisələrini 17-ci sırada göstərib. İsveçdə yaşayan erməni siyasi xadim və yazıçı Vaqe Avetyan özünün sensasion fikirlərilə soydaşlarının iç üzünü ortaya qoyub. Sumqayıt hadisələrinin ildönümü ərəfəsində o bildirib ki, həmin dövrdə törədilən hadisələri azərbaycanlılar deyil, ermənilərin köməyilə SSRİ rəhbərliyi həyata keçirib. "Ermənilər Qarabağı qonşularından alıb dünyaya göstərmək istədilər ki, necə ağıllı, qədim keçmişə malik xalqdırlar. Eləcə də demək istədilər ki, azərbaycanlılar necə pis xalqdır", – deyə erməni yazıçı bəyan edib.

Erməni məkrinə bələd olanlardan biri də Ermənistanda doğulmuş yunan, 40 il Sumqayıtda yaşamış və böyük kimya birliyinin baş mühəndisi olmuş Lazar Avlastimovdur. Hazırda Rusiyada yaşasa



da, sumqayıtlı dostları ilə əlaqəsini kəsməyən bu qədirbilən insan həmin olayları yaxşı xatırlayır. Bu günlərdə keçmiş həmkarı, mühəndis-şair Süleyman Hüseynov onunla telefon əlaqəsi saxlayıb. Dostların söhbətində Sumqayıt hadisələri də xatırlanıb. Lazar Avlastimov bu barədə deyib: "Gözləri qarşısında baş vermiş o hadisələri unuda bilmirəm. Hansısa məkrli niyyət naminə insanlar öldürüldü, maşınlar yandırıldı, mağazalar, mənzillər talan edildi. Erməni millətçiləri dünya ictimaiyyətinə azərbaycanlıları başkəsən şovinistlər kimi qələmə verməyə çalışdılar".

Həmin hadisələr başlanan günün səhərisi alman televiziyasının hadisə yerindən reportaj verdiyini xatırlayan Lazar Avlastimovun fikrincə, tək bu fakt təsdiq edir ki, təxribat xarici qüvvələr və ermənilərin özləri tərəfindən təşkil edilmişdi. "Sonralar aydın oldu ki, millətçi "Krunk" təşkilatının Sumqayıtda gizli qrupu vardı. Və bizim "Kimyasənaye" istehsalat birliyində 360 erməni işləyirdi. Onlara rəhbərlik edənlər sex rəisi L.Abramyan və birlik mühasibatının hesablama hissəsinin rəhbəri Y.Gevorkyan olublar. Hamı bilir ki, ermənilər Azərbaycanda çox yaxşı yaşayıblar. Respublika rəhbərliyində, nazirliklərdə çoxlu sayda erməni işləyirdi, bundan əlavə, ticarət, məişət obyektlərinə əsasən ermənilər nəzarət edirdilər. Amma bu, onları qane etmirdi.

Sumqayıt hadisələrinə onlar əsaslı hazırlaşmışdılar. Bu hadisələrin ərəfəsində imkanlı ermənilər "Krunk" müntəzəm üzvlük haqqı ödəyirdilər, əmanət banklarından hesablarındakı pulları çıxartmışdılar. Bu təşkilata üzvlük haqqı verməkdən imtina edən erməni ailələri, ilk növbədə, zorakılığa məruz qaldılar. İndi bəziləri deyirlər ki, sumqayıtlılar ermənilərə qarşı zorakılıq ediblər. Lakin Ermənistandakı azərbaycanlıları dədə-baba torpaqlarından amansızcasına qovanda heç kəs ermənilərə güldən ağır söz demədi. İnsanları doğradılar, odda yandırdılar. Uşaq, qoca, hamilə qadınlara divan tutdular. Sağ qurtulanlar qarlı-buzlu yollarla Azərbaycana üz tutdular. Nədənsə unudurlar Sumqayıt hadisələrində məhz sumqayıtlılar erməniləri evlərində saxladılar, yedirib-içirtdilər. Hər erməni ailəsinə onların təhlükəsizliyinə cavabdeh şəxs ayrılmışdı. Mən bilən, bu gün də Azərbaycanda 30 mindən artıq erməni yaşayır. Halbuki, Ermənistanda, inanmıram ki, azərbaycanlı yaşasın..."

Süleyman Hüseynov o vaxt dostunun Yerevana getdiyini xatırladaraq həmin səfərin məqsədini soruşub. "– Hadisələrdən sonra qısa müddət ərzində şəhər rəhbərliyi dağıntıya məruz qalmış erməni mənzillərini əsaslı təmir etdirdi, yeni mebellərlə təmin edildi, – deyə o, cavab verib. – Respublika rəhbərliyi Sov.İKP MK ilə Ermənistana getmiş erməniləri Sumqayıta qaytarmaq məsələsini razılaşdırdı. Bu məqsədlə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini Musa Məmmədovun sədrliyi ilə komissiya yaradıldı. Məni də bu komissiyaya daxil etdilər. Lakin Yerevanda danışıq alınmadı. Sumqayıtlı ermənilərin əvəzinə görüşə 20-yə yaxın aqressiv fikirli adam gəldi və bizə hücum etdi. Ünvanımıza hədələr səsləndi. Sonra hündürboylu bir oğlan irəli çıxdı və onlara müraciət etdi.

– Heç bir görüş lazım deyil! Biz onlar kimi vəhşi deyilik! Hamı bilməlidir ki, biz sivil, yüksək mədəniyyətə malik millətik! Bütün suallar diplomatiya yolu ilə həll olunmalıdır.

Mən dözmədim və siqaret çəkmək üçün qaldığımız pansionatın balkonuna çıxdım. Bu vaxt mənə bir gənc yanaşdı və görünür, erməni olduğumu zənn edərək, dedi:

– Bunlara, bax, belə etmək lazımdır. Qoy, dünya bilsin ki, kim kimdir.

Ertəsi gün də bizə Sumqayıt erməniləri ilə görüşməyə imkan vermədilər. Düzdür, pansionatın direktorunun kabinetinə dəvət etdilər, lakin gələn olmadı. Sonra 2 nəfər bizə yaxınlaşdı. Onlardan biri Sumqayıtda sürücü işləmişdi, qardaşımı və məni də tanıyırmış. Dedi, danışmaq istəyirlər və məni bir kiçik otağa dəvət etdilər. Orada məni dinləmək belə istəmədilər və tələb etdilər ki, çıxaq, gedək. Bu



an otağın qarşısından keçən adamların danışığını eşitdim. Kimsə deyirdi ki, bizim kofeyə nəsə qatmaq lazımdır. Tanışım ehtiyatla mənə baxdı, çünki ermənicə bildiyimdən xəbəri vardı. Tez otaqdan çıxıb ki, bizimkilərə xəbər verməyə tələsdim. Bizimkilər sakitcə oturub və hələ də görüşün keçirilməsini gözləyirdilər. Həyəcanla "Tez durun, gedək!" – dedim. Musa Məmmədov sakitcə – "Sən nə danışırsan?" – deyə soruşdu və kofedən bir qurtum içmək istədi.

Mən onu əlimlə saxladım və təkrar etdim: "Tez getməliyik, vəssalam! Burda işimiz yoxdur!"

Mənim əndişəmdən vəziyyəti hiss edən komissiyanın üzvləri arxamca gəldilər. Pansionatın ehtiyat çıxışına yönəldik. Sumqayıt superfosfat zavodunun direktoru mərhum Nərçə Ağayevin əlaqələri sayəsində Ermənistan "Kəndkimya" birliyi sədrinin xidməti avtomobili ilə bizi Azərbaycana çatdırdılar...

Mən Ermənistanda doğulsam da, oradakı milli siyasət mənə vəhşilik münasibəti xatırladırdı. Təbii ki, mən buna dözə bilməzdim. Ona görə də Sumqayıtı seçmişdim. 18 yaşlı gənc ikən burada gün görməyə başlamış, heç bir tanışım olmaya-olmaya fəhləlikdən nəhəng bir sənaye birliyin baş mühəndisiliyinə kimi bir yol keçmişəm. Hər yerdə xeyirxahlıq, səmimiyyət hiss etmişəm. Bütün bunlar Ermənistanda mümkün olmazdı. Təqaüdə çıxandan sonra Krasnodara – övladlarımın yanına köçmüşəm.

Mən Azərbaycanla, Sumqayıtla həmişə əlaqə saxlayıram. Baş verən hadisələri müntəzəm izləyirəm. Qarabağın azad edilməsini sevinclə qarşıladım. Ötən il Heydər Əliyevin 100 illik tədbirlərini maraqla izləyirdim. Bu günlərdə Azərbaycan prezidenti seçkilərində İlham Əliyevin əzəmətli qələbəsi məndə qürur hissi yaratdı. Bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm! Mən də özümü bu ölkənin, bu xalqın oğlu hesab edirəm! Sumqayıtın oğlu hesab edirəm! Mən bu xalqa, bu şəhərə borcluyam".

...Bəli, vaxtaşırı "Sumqayıt kartı"ndan istifadə edən ermənilər hələ də anlamırlar ki, Qorbaçov Qərbin SSRİ-ni dağıtmaq planının baş icraçısı idi və onları da separatizmə ona görə həvəsləndirmişdi ki, həmin proses tezliklə baş tutsun, yaranan çat get-gedə böyüsün. Nəticədə sovet imperiyası çökdü, Qorbaçov Nobel mükafatı aldı, Qarabağ isə ermənilər üçün boş şirnikləndirmə vasitəsi olaraq qaldı. Bu gün artıq "DQMV" və "Artsax" yoxdur, hay-küyçü haylar İrəvanda belə pis günə düşüblər, Ermənistan dövlətinin etibarlı sabahına heç bir ümidləri yoxdur.

Bu da "Qarabağ hərəkatı", "Miatsum", "Sumqayıt hadisələri" adları altında başlanan oyunbazlığın sonu. İlhaqçının, işğalçının, qonşusuna xəyanət edən və onun torpağında gözü olanların bundan başqa aqibəti ola bilməz".

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycan müstəqillik dövrünün ən böyük elektrik stansiyasını tikir

## Bu nəhəng obyektin istismara verilməsi ilə il ərzində 1,2 milyard kubmetr təbii qaza qənaət ediləcək

**"AzərEnerji" ASC-dən redaksiyamıza daxil olan məlumatda bildirilir ki, ötən ilin fevral ayında Mingəçevir şəhərində təməli qoyulan və gücünə görə müstəqillik dövründə tikilən ən böyük elektrik stansiyasında işlər uğurla davam etdirilir.**



Yeni elektrik stansiyasına artıq İtaliyanın "Ansaldo Energia" şirkəti tərəfindən hazırlanan 2 turbin və 2 generator gətirilərək yerinə quraşdırılıb, 2 dəsti isə hazırda sifarişə uyğun olaraq adıçəkilən ölkədə yığılır və növbəti mərhələdə respublikamıza göndərilməsi nəzərdə tutulur. Bununla bərabər, stansiyanın qazan utilizatorları da artıq xüsusi texniki vasitələrlə gətirilərək ağır tonnajlı kranlar vasitəsilə yerində quraşdırılır.

Avadanlıqların quraşdırılması işlərinə, texniki vəziyyətinə baxış keçirmək üçün İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri və "Ansaldo Energia" şirkətinin prezidenti Fabbrizio Fabrinin rəhbərlik etdiyi nümayəndə heyəti Mingəçevirdə olublar. "AzərEnerji"nin rəhbəri Baba Rzayevin iştirakı ilə qonaqlar tikinti ərazisinə, turbin və generatorlara baxış keçiriblər.

Qeyd edək ki, 1280 meqavat gücündə yeni tikilən elektrik stansiyası ölkədə yaradılan bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, enerji istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması, ətraf mühitin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, bu stansiyanın "Azərbaycan" İES-in 7 və 8-ci bloklarına inteqrasiya edilməsi ilə ümumi gücün əlverişli nəticə sayılacaq 1880 meqavata çatdırılacağı gözlənilir. Başqa sözlə, yeni tikilən elektrik stansiyasının util qazanlarından çıxan buxarın "Azərbaycan" İES-in 7 və 8 saylı buxar turbinlərinə verilərək bu blokların qaz yandırmadan işləməsi nəzərdə tutulur.

"AzərEnerji" ASC-nin məlumatında, həmçinin bildirilir ki, yeni stansiyanın şərti yanacaq sərfiyyatı "Azərbaycan" İES-in digər blokları ilə müqayisədə hər kilovat saat üçün 120 qram azalmaqla 225 qram təşkil edəcək ki, bununla da illik 1,2 milyard kubmetr təbii qaza qənaət olunacaq. Eyni zamanda, elektrik stansiyasının faydalı iş əmsalı 55,5 faizə yüksələcək, ətraf mühitə atılan karbon qazının miqdarı 1,5 - 2 milyon ton azalacaq. Bütün bunlar isə "Yaşıl dünya naminə həmrəylik ili"nə önəmli töhfə olacaq.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, son 20 il ərzində respublikamızın energetika sistemində genişmiqyaslı layihələr gerçəkləşdirilib, bu sahədə böyük həcmdə yenidənqurma, tikinti layihələri icra olunub. Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə müasirləşdirilib, "itirilmiş" generasiya gücləri bərpa edilib. Dövlətimizin başçısının 25 oktyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamı da ölkəmizin elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə reallaşdırılmasına nail olmaq baxımından daim diqqət mərkəzində saxlanılıb.

Yuxarıda adıçəkilən sənəddə "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) modernləşdirilməsi respublikanın enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malik olduğu bir daha öz ifadəsini tapıb.

Prezident İlham Əliyev vurğulanan bu mühüm məsələlər barədə 2023-cü il fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimindəki çıxışında ətraflı bəhs edib. Dövlətimizin başçısı nitqində belə bir nəhəng infrastrukturun – Mingəçevir Elektrik Stansiyasının gələcəkdə – 2025-ci ildə istifadəyə veriləcəyini, bununla da ölkəmizin enerji potensialının böyük dərəcədə güclənəcəyini, şəhərin isə Azərbaycanın elektroenergetika mərkəzi kimi önəminin daha da artacağını bildirib. "Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir", – deyə ölkə rəhbəri vurğulayıb.

Hazırda Mingəçevir şəhərində keçən ilin fevral ayında təməli qoyulan və müstəqillik dövründə tikilən ən böyük yeni İstilik Elektrik Stansiyasında işlər "AzərEnerji" ASC tərəfindən sürətlə davam etdirilir. ASC-dən redaksiyamıza verilən məlumatda bildirilir ki, "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində inşa olunan 1280 meqavatlıq bu stansiyanın tikinti işləri Azərbaycanın ixtisaslaşmış yerli şirkətləri tərəfindən həyata keçirilir. Stansiyanın tikintisinə isə İtaliyanın "AFRY" məsləhətçi və İspaniyanın "İDOM" layihələndirmə şirkətləri nəzarət edir.

ASC-dən redaksiyamıza verilən məlumatda da vurğulanır ki, 1280 meqavatlıq yeni elektrik stansiyası və "Azərbaycan" İES-in mövcud 7 və 8-ci bloklarının əlaqələndirilməsi nəticəsində ümumi güc 1880 meqavat olacaq. Bununla da faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq. Daha dəqiqi, 1280 meqavatlıq yeni elektrik stansiyasının qaz turbinlərində bir dəfə işlənmiş qaz, utilizasiya yolu ilə suyu buxara çevirəcək və "Azərbaycan" İES-in 7 və 8-ci bloklarının buxar turbinlərində əlavə qaz işlətmədən enerji almağa imkan verəcək.

Sonda diqqətçəkən bir məsələni də qeyd edək. Hamımız yaxşı xatırlayırıq ki, İkinci Qarabağ müharibəsində erməni faşizminin hədəfində olan obyektlərdən biri də "Azərbaycan" İstilik Elektrik Stansiyası idi. Düşmən Vətən savaşında uduzduğuna görə, bu nəhəng stansiyanı dağıtmaqla qisas almağa cəhd göstərdi, bu son dərəcə əhəmiyyətli infrastrukturu uzaqmənzilli raketlərlə atəşə tutdu. Həmin raketlərin bir çoxu Azərbaycanın hava hücumuna qarşı müdafiə sistemləri tərəfindən məhv edildi, bəziləri isə hədəfə dəymədi.

Hazırda "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində inşa olunan yeni elektrik stansiyasının tikilməsi ilə Azərbaycanın enerji potensialı böyük dərəcədə güclənəcək. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə vurğuladığı kimi, bu, respublikamızın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yeri yaranacaq və beləliklə, ölkəmiz öz imkanlarından tam yararlanaraq həm daxili tələbatı ödəyəcək, həmçinin elektroenergetikanın inkişafını yeni inkişaf mərhələsinə qaldıracaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# "Yaşıl keçid"ə Avropa krediti

**Bu il mayın 1-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Direktorlar Şürası "AzərEnerji" Açıq Səhmdar Cəmiyytinə 30 milyon dollar məbləğində kreditin ayrılmasına baxacaq. Borcalan qismində Azərbaycanın Maliyyə Nazirliyi, icraçı qismində isə "AzərEnerji" ASC çıxış edəcək.**




Bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankı məlumat yayıb. Bildirilib ki, həmin kredit hesabına Azərbaycanda fəaliyyət göstərən 4 yarımstansiyanın gücləndirilməsi üçün avtotransformator avadanlığının alınması maliyyələşdiriləcək. Layihə Azərbaycanın bərpaolunan enerji potensialının inteqrasiyası üçün tələb edilən enerji sisteminin çevikliyini təkmilləşdirməyə imkan yaradacaq.

Yeri gəlmişkən, layihənin uğurla həyata keçirilməsi ölkədə bərpaolunan enerji layihələrinin inteqrasiyası üçün mühüm əhəmiyyət kəsb edən şəbəkənin gücləndirilməsi ilə bağlı digər layihələr üçün də, bir növ, müsbət təcrübə sayıla bilər.

# Xəzərdən Qara dənizə "konteyner körpüsü"

**Bu ilin ikinci yarısından Azərbaycan və Gürcüstan limanları arasında blokçeyn texnologiyasının tətbiqi nəzərdə tutulur. Bu, konteynerlərin sayının artmasına kömək edəcək.**



Bu barədə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının departament müdiri Xudayar Həsənli Gürcüstanda keçirilən Orta Dəhlizlə bağlı regional tədbirdə bildirib. Orta Dəhlizin inkişafı üçün infrastruktur imkanlarının təkmilləşdirilməsinin vacibliyini vurğulayan X. Həsənlinin dediyinə görə, bu sahədə lazımi potensialın olmadığı şəraitdə rəqəmsallaşma və təkmilləşdirmə işləri Çindən daha çox yükün cəlb edilməsinə kömək etməyəcək. "Biz Bakı Dəniz Ticarət Limanı olaraq fəaliyyətimizi genişləndirəcəyik və yükdaşıma imkanlarımızı artıracağıq", – deyə o əlavə edib.

Qeyd edək ki, dünən Tbilisidə Dünya Bankının bu yaxınlarda dərc etdiyi "Orta ticarət və nəqliyyat dəhlizi: Yüklərin üç dəfə artırılması və daşınma müddətini yarıya endirmək üçün siyasətlər və investisiyalar" adlı tədqiqata həsr olunan regional tədbir keçirilib. Gürcüstan, Azərbaycan, Qazaxıstan və Ermənistanın hökumət nümayəndələri, eləcə də dövlət müəssisələrinin, özəl sektor və beyin mərkəzlərinin təmsilçiləri iştirak etdikləri tədbirdə Dünya Bankının araşdırmalarının əsas nəticələri müzakirə olunub.

# Sığorta ödənişi 10,3 faiz çoxalıb

**Mərkəzi Bankın məlumatına əsasən, cari ilin yanvar ayında ölkəmizdəki 17 sığorta şirkəti tərəfindən 139 milyon 114 min manat sığorta haqları hesablanıb və 38 milyon 783 min manat sığorta ödənişləri həyata keçirilib.**



Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin yanvar ayında sığorta şirkətləri tərəfindən 131 milyon 814 min manat sığorta haqları hesablanmış və 35 milyon 168 min manat sığorta ödənişləri həyata keçirilmişdi.

Beləliklə, 2024-cü ilin yanvar ayında ötən ilin eyni ayı ilə müqayisədə hesablanmış sığorta haqları 5,5 faiz, sığorta ödənişləri isə 10,3 faiz artıb.

***XQ***

# "Şahdəniz"in şimal-şərq cinahında hasilata başlandı

**"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci il iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları tərəfindən yatağın qərb-cənub cinahı işlənməyə daxil edilib.**

Ötən il isə "Şahdəniz-2" layihəsi çərçivəsində aparılan işlər yatağın şərq-şimal cinahından 2024-cü ilin ilk rübünə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun həyata keçirilib. Hesabat dövründə layihə çərçivəsində şərq-şimal cinahında bütün sistemin istismar üçün təhvil verilməsi başa çatdırılıb. Bundan sonra bu cinahda "EN03" quyusunun tamamlama əməliyyatları, həmçinin sualtı və təhvilvermə işləri üzrə fəaliyyətlər davam etdirilib.

BP şirkətindən aldığımız məlumata görə, "Şahdəniz–2" layihəsi çərçivəsində artıq "Şahdəniz" yatağının şərq-şimal cinahından hasilata başlanılıb və ilin əvvəllərinə planlaşdırılan bu proses tam təhlükəsiz yerinə yetirilib.

Məlumatda qeyd edilir ki, bundan əvvəl şərq-şimal cinahında bütün əlaqədar tikinti işləri və istismar sınaqları uğurla başa çatdırılaraq sistem, bütövlükdə, istismara təhvil verilmişdi.

Yenicə istismara başlamış şərq-şimal cinahında hazırda 5 quyu, iki hasilat manifoldu, ümumilikdə, təqribən, 30 kilometr uzunluğu olan iki yeni axın xətti və dünya səviyyəli "Şahdəniz" qaz və kondensat ehtiyatı layına birləşmiş bir neçə sualtı qurğu var. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 79 milyon (ildə təqribən 29 milyard) standart kubmetrdir.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl "BP Azərbaycan" şirkətindən Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağındakı "SDX-8" kəşfiyyat quyusunun qazılması üzrə nəzərdə tutulmuş 7 min metrlik ümumi layihə dərinliyinə nail olunduğu bildirilmişdi. Məlumatda, həmçinin yerdə qalan quyu işlərinin də başa çatdırılacağı, əldə edilmiş məlumatların proqnozlaşdırılacağı və bu işlərin isə bir neçə ay ərzində başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edilmişdi.

Xatırladaq ki, BP "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş çərçivəsində müqavilə ərazisində yeni "SDX-8" kəşfiyyat quyusunun qazılmasına ötən il yanvarın 23-də başlanıb. Quyu 2022-ci ilin dekabrında "Şahdəniz" yatağının şərq cinahında, SDX-8 quyusunun ərazisində yerləşdirilən Heydər Əliyev adına yarımdalma qazma qurğusundan istifadə edilməklə qazılıb.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz"in zəngin qaz və kondensat ehtiyatları istismara veriləndən respublikamıza yönələn diqqət daha da güclənib, yataqdan hasil olunan "mavi yanacağ"ın Avropa alıcılarının sayı getdikcə şoxalıb. Cənub Qaz Dəhlizinin uğurlu fəaliyyəti isə "Şahdəniz" layihəsi səhmdarlarının fəaliyyətində səmərəliliyi artırıb.

"Şahdəniz"in istismarının ilk vaxtlarından yatağın fəal işlənmə prosesi diqqətdə saxlanılıb. BP şirkətinin 2023-cü ilin yekunları ilə bağlı məlumatına əsasən, hesabat dövründə "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 2 milyard 194 milyon dollar, əsaslı məsrəflərinə isə 892 milyon dollar xərclənib. Həmin vəsaitin böyük hissəsi isə qeyd edildiyi kimi, "Şahdəniz-2" layihəsinin fəal işlənmə prosesinə sərf olunub.



"Şahdəniz" yatağının səmərəli fəaliyyəti məqsədilə ötən müddətdə mühüm tədbirlər həyata keçirilib. Məsələn, gündəlik hasilat gücü təxminən 77 milyon (ildə 28 milyard kubmetrdən artıq) kubmetr təşkil edən iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü təxminən 77 milyon (ildə 28 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Ötən il "Şahdəniz-Alfa" və "Şahdəniz-Bravo" adlı platformalardan, ümumilikdə, təqribən, 26 milyard kubmetr qaz və 4 milyon tondan artıq kondensat çıxarılıb.

Onu da vurğulayaq ki, layihə səhmdarları tərəfindən "Şahdəniz" yatağının bir neçə mərhələdə işlənməsi ilə bağlı qərar qəbul olunub. Yatağın birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, ilk qazın hasilatına isə 2006-cı ilin sonlarında başlanılıb. Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından daha çox seçilib. İl ərzində əlavə olaraq daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutan bu mərhələ çərçivəsində nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilib.

Yeri gəlmişkən, "Şahdəniz-2" layihəsinə əsasən, Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyasının tətbiqinə başlanılıb. Bu, BP şirkətinin operatoru olduğu dünya üzrə ən iri sualtı infrasrukturu kimi qeydə alınıb. Təxminən, 28 milyard ABŞ dolları həcmində investisiya qoyulan bu layihə, ümumilikdə, planlaşdırılan ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilan iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir.

Hesabatda qeyd olunduğu kimi, ötən il "Şahdəniz" layihəsi çərçivəsində qazma əməliyyatları həyata keçirilməyib. Belə ki, "Şahdəniz-Alfa" platformasının qazma qurğusunda aparılan profilaktiki işlərlə əlaqədar burada quyu qazılmayıb. Bununla belə, "Şahdəniz" qaz-kondensat yatağında əsas kəşfiyyat-qiymətləndirmə quyularının qazılmasını həyata "İstiqlal" qurğusu vasitəsilə "SDF03" quyusunda təkrar tamamlama işləri başa çatdırılıb. Eyni zamanda, "SDF05" quyusunda tamamlama işləri yekunlaşdırılıb. Bütövlükdə isə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 21 quyu qazılıb. Həmin quyuların 5-i yatağın şimal cinahında, 4-ü qərb cinahında, 4-ü cənub-şərq cinahında, 5-i qərb-cənub cinahında, 3-ü isə şərq-şimal cinahında yerləşdirilib.

"Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Buradakı mövcud qurğular vasitəsilə qaz qəbul edilərək Cənubi Qafqaz boru kəmərinə (CBQK) ötürülür.

"Şahdəniz" qazı, eləcə də "Azəri–Çıraq–Günəşli" (AÇG) yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazı sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilir. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda, təqribən, 81 milyon kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik 100 milyon standart kubmetr təşkil edir. Qaz Səngəçal terminalından Cənubi Qafqaz boru kəməri və terminalın qaz emalı obyektlərini SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyininın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Ötən il buradan orta hesabla, gündəlik təxminən, 71 milyon kubmetr "Şahdəniz" qazı göndərilib.

Hesabat ili ərzində qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvan MR Ali Məclisinin plenar iclası



**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının növbəti plenar iclası keçirilib.**

Ali Məclisin sədr müavini Anar İbrahimov iclasın gündəliyində duran birinci məsələ ilə bağlı bildirib ki, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə 6 oktyabr 2023-cü il tarixdə dəyişikliklər edilib. Ali Məclisin Daxili Nizamnaməsində həmin dəyişikliklərə müvafiq uyğunlaşdırma aparmaq məqsədilə qanun layihəsi hazırlanıb, deputatlara paylanılıb və Hüquq siyasəti komitəsində müzakirə olunub.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Ali Məclis sədrinin müavini Anar İbrahimov qeyd edib ki, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu və buna müvafiq olaraq qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasında çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının dəqiq siyahısı müəyyən edilib. Müvafiq normativ hüquqi aktlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çap mediası subyektinin təsisçisi olmaq səlahiyyəti nəzərdə tutulmayıb. Belə olan halda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin təsisçisi qismində çıxış etməsi mövcud qanunvericiliklə ziddiyyət təşkil edir. Ali Məclisin qanunvericilik təşəbbüsü hüququ əsasında "Media haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edilməsi məqsədilə Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli qanun layihəsi barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Deputat Asim Əliyev "Şərq qapısı" qəzetinin muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və ədəbi-mədəni həyatındakı rolundan, ümummilli lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi illərdə muxtar respublikanın, ümumilikdə, Azərbaycanın gələcək taleyi ilə bağlı verilən mühüm qərarların qəzet vasitəsilə xalqa çatdırılmasında xidmətindən danışıb.

Anar İbrahimov bildirib ki, "Şərq qapısı" qəzeti Ali Məclisin normativ hüquqi aktlarının dərc olunduğu yeganə qəzetdir. Bundan başqa, qəzet Ulu öndər və Naxçıvanın böyük irsinin tərkib hissəsidir. Ümid edirik ki, buna görə də Milli Məclis məsələyə həssas yanaşacaq, qanunda müvafiq dəyişiklik həyata keçiriləcək.

"Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi oxunduqdan sonra səsə qoyularaq qərar qəbul olunub.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan Turan Məmmədli, Yeganə Məmmədova, Aidə Allahverdiyeva, Esmira Həsənova və Əmir Babayev içməli su təminatı, əhalinin məşğulluğunun təmin olunması və digər mövzularda çıxış ediblər.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası başa çatıb.

**XQ**

# Ordubadda Vergi Ödəyicilərinə Xidmət Mərkəzi

**Dünən Ordubad şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli mərasimdə iştirak edib.**



Səlahiyyətli nümayəndə bildirib ki, 1 il əvvəl Azərbaycan Respublikasının iqtisadiyyat naziri ilə birlikdə Naxçıvanda sahibkarlarla keçirilən görüşdə yerlərdə vergi ödəyiciləri üçün bu cür xidmət mərkəzlərinin qurulmasının vacibliyi səslənmişdi. Bundan sonra ötən il Naxçıvan şəhərində Vergi Ödəyicilərinə Xidmət Mərkəzi istifadəyə verilib. Bu gün isə analoji xidmətlər Ordubad və Şərur rayonlarında təşkil olunur. Vergi Ödəyicilərinə Xidmət Mərkəzi bu sahədə işin səmərəliliyini və xidmətin keyfiyyətini daha da artıracaq.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin açılışının muxtar respublikanın biznes mühitində mühüm hadisə olduğunu bildirib. O, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılmasına xidmət edəcəyini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov bildirib ki, mərkəzdə 9 mindən artıq vergi ödəyicisinə müvafiq istiqamətlər üzrə bütün xidmətlər təqdim ediləcək və onların vergi məsələlərinin həllinə dəstək göstəriləcək.

Sonra Vergi Ödəyicilərinə Xidmət Mərkəzi ilə tanışlıq olub.

**XQ**

# Bakı Təşəbbüs Qrupu petisiya başladıb

**Bakı Təşəbbüs Qrupu İstanbulda keçirtdiyi "Dekolonizasiya: İntibahın oyanışı" adlı konfransın ardınca vətəndaş cəmiyyəti təşkilatları adından beynəlxalq kampaniya başladıb.**




Petisiyada Fransa Prezidenti Emmanuel Makrona müraciət edilərək, Fransanın Afrikadan oğurladığı 90 mindən artıq maddi-mədəni əsərlərin mənşə ölkələrinə qaytarılması tələb olunur.

Afrika ölkələrindən müstəmləkə dövründə oğurlanmış, talan edilmiş 90 mindən çox mədəni sərvət hazırda Fransa muzeylərində nümayiş olunur.

Fransa Prezidenti Emmanuel Makron 2017-ci ildə bildirib ki, Afrikanın mədəni sərvətləri Afrikada sərgilənməlidir və 5 il müddətində hər bir mədəni, tarixi əşyanın geri qaytarılacağına söz vermişdi. Həmin vaxtdan 7 il keçməsinə baxmayaraq, Makron vədinə əməl etməyib.

Bakı Təşəbbüs Qrupu tələb edir ki, Fransa hökuməti qanunvericiliyinə dəyişiklik etməli, oğurladığı artefaktları mənbə ölkələrinə geri qaytarmalı və qanunsuz mülkiyyətçi kimi tarixi əsərlərin qanuni mülkiyyətçisi olan ölkələrə təzminat ödəməlidir.

## BTQ Beynəlxalq Ədalət Məhkəməsində Yeni Kaledoniyaya dəstək verəcək

**Bakı Təşəbbüs Qrupu Beynəlxalq Ədalət Məhkəməsində Kanaki – Yeni Kaledoniyaya dəstək verəcək.**

Bu barədə təşkilatın təşəbbüsü ilə Türkiyənin İstanbul şəhərində keçirilən "Dekolonizasiya: İntibahın oyanışı" adlı beynəlxalq konfransın yekunlarına dair yayılan kommunikedə bildirilib.

Kommunikedə bildirilib ki, Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən ölkələrin nümayəndələrinin, eləcə də BMT-nin ixtisaslaşmış institutlarının iştirak etdiyi konfransda Kanaki – Yeni Kaledoniyadan olan nümayəndə heyəti Fransa hökumətinin təşkil etdiyi kütləvi miqrasiyanı öz daxili qanunlarına uyğun olaraq qanuniləşdirmək üçün Emmanuel Makron hökumətinin atdığı addımlara qarşı, xüsusən də seçici kütləsinin sayını artırmağa hesablanmış addımları qınadığını bəyan edib.

"Bakı Təşəbbüs Qrupu Kanaki – Yeni Kaledoniyanın siyasi tarixinin böhran yaşanan bu dövründə ona dəstək verdiyini təkrar nümayiş etdirdi, regional və beynəlxalq təşkilatlarda, xüsusilə də Beynəlxalq Ədalət Məhkəməsi səviyyəsində fəaliyyətini davam etdirəcəyini bildirdi".

## Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası

**Fevralın 27-də Yeni Kaledoniyanın paytaxtı Numeada məhkəmə qarşısında Fransanın müstəmləkəçilik siyasətinə qarşı növbəti etiraz aksiyası keçirilib.**

Etirazçılar Fransa hakimiyyəti tərəfindən saxlanılmış fəalların azadlığa buraxılmasını tələb ediblər.

Xatırladaq ki, 21 fevral tarixində Fransanın daxili işlər və dənizaşırı naziri Gerald Darmaninin Yeni Kaledoniyaya səfəri zamanı Yeni Kaledoniyada etiraz aksiyası keçirilib. Həmin etiraz aksiyası zamanı Yeni Kaledoniyanın müstəqilliyi uğrunda mübarizə aparan bir neçə fəal Fransa polisi tərəfindən həbs edilib.

Aksiyada da həmişə olduğu kimi, ölkəmizə hörmət əlaməti olaraq, Azərbaycan bayrağı dalğalandırılıb.

**XQ**

# Hərbi Prokurorluq Xocalı istintaqını davam etdirir

**Hərbi Prokurorluqda Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.**



Ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, cinayət işi üzrə ümumilikdə 81 mindən artıq istintaq hərəkəti icra edilib, o cümlədən 29 mindən artıq şəxs zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınaraq dindirilib, 30 mindən artıq şəxs şahid qismində dindirilib, 18 mindən artıq şəxs mülki iddiaçı qismində tanınıb, 4 minə yaxın müxtəlif növ ekspertizalar keçirilib, 34 minə yaxın prosessual qərarlar qəbul edilib və digər çoxsaylı zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Cinayət işinin istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 40 nəfər şəxsin barəsində onların Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (İşgəncə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycandakı Milli Mərkəzi Bürosuna və Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin sırasında sabiq müdafiə naziri Ohanyan Seyran Muşeqoviç də vardır. Hazırda hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**XQ**

# Simonyanın "boyunduruq" məntiqi

## Ermənistan parlamentinin spikeri yeni müharibə anonsu verirmi?

**Ermənistan parlamentinin spikeri Alen Simonyan yenə Rusiyanı ittiham yolunu tutub. Amma bu dəfə ad çəkmədən. Nəinki bu şəxsin, eləcə də erməni iqtidarında təmsil olunan hər kəsin anti-Rusiya ritorikasını anti-Azərbaycan məntiqi ilə vəhdətdə tutduğu isə danılmaz həqiqətdir.**



Beləliklə, A.Simonyan deyir ki, Ermənistanı Azərbaycanla genişmiqyaslı müharibəyə sürükləmək, sonda sülhpərvər sifət ifadəsi ilə bunun qarşısını almaq və hər iki ölkənin boynuna kəndir keçirərək, regionda növbəti dəfə sülh yaratmaq planları olub.

Maraqlıdır, A.Simonyan hansı məqamı nəzərdə tutub? Çox güman, fevralın 13-dəki insidentdən danışıb. Yəni, başqa nə isə düşünməyə əsas yoxdur. Fevralın 13-də isə ilk atəş Ermənistan tərəfdən açılmışdı. İndi necə başa düşək, bunu Rusiyamı təşkil etmişdi? Hər halda, erməni spikerin fikirləri absurd görünür. Necə də görünməsin? Erməni mövqelərindən atəş açılır, buna qarşılıq Azərbaycan cavab verir və Ermənistanın dörd hərbçisi məhv edilir. Simonyanın məntiqi ilə təxribat üçüncü tərəfin işidirsə, hər halda bunu təsdiqləyəcək dəlil-sübut olmalıdır. Ancaq bu yoxdur. Olsaydı, yüz faiz ortaya çıxaracaqdı. O zaman kimdir müqəssir?

Haşiyə çıxaq ki, son günlər Ermənistan rəsmilərinin Rusiyanı hədəfə almaları, kifayət qədər, həyasız motivlərə və diplomatiyadan uzaq məqamlara köklənib. Baş nazir Nikol Paşinyan "France 24"ün efirindən bildirmişdi ki, ötən ilin sentyabrında Azərbaycan Qarabağa sahiblənəndə Rusiya rəsmiləri Ermənistanda hakimiyyəti devirmək yönümlü çağırışlar səsləndiriblər. Görəsən, kim idi bu Rusiya rəsmisi? Paşinyan da açıqlamayıb, məsuliyyətsizcəsinə danışıb.

İndi də Simonyan eyni yolu tutur. Bəlkə, aranı qarışdıran Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfində dayanmış Avropa Şurasının mülki müşahidə missiyasının təmsilçiləridir? Hərçənd, spikerin onları nəzərdə tutduğunu söyləmək yerinə düşmür. Axı avropalılar mütərəqqidirlər, ruslar kimi insanlıq, sülh düşməni deyillər (?). Bəs onda kim?

Əslində, A.Simonyanın digər fikirləri mövzudan, daha doğrusu, subliminal səslənmiş anti-Rusiya ritorikasından uzaqlaşmaqdır. İlk baxışdan, onun söylədiklərində məntiq yoxdur. Sanki iz azdırır. Ancaq gizlətmək istədiyini ortaya qoyması ilə fərqlənir. Məsələn, erməni parlament sədri ölkəsinin təhlükəsizliyinin təminatı prioritetindən söz açır və deyir: "Bizim əmrimizlə ordu Ermənistanın sərhədlərini qoruyur. Biz öz səylərimizlə sərhədlərimizi qorumaq üçün müxtəlif ölkələrdən silah gətiririk".

Bəli, əsas məsələ də elə budur. Ermənistan silah gətirirsə, deməli, onun istifadəsini düşünür. Düşünməyə bilməz. Əlbəttə, xaricdən hər silah-sursat alan ölkə onu öz qonşusuna qarşı istifadəni nəzərdən keçirmir ki, bu da təbiidir. Tutalım, Gürcüstan xaricdən silah alırsa, biz nəyə görə düşünək ki, məqsəd həmin silahdan Azərbaycana qarşı yararlanmaqdır. Eləcə də Azərbaycan eyni addımı atanda Gürcüstan heç bir əndişə keçirmir. Ermənistan isə xoflanır. Çünki xislətində xainlik var. Elə Simonyan da İrəvanın müxtəlif ölkələrdən silah gətirdiyini deyəndə, tonunu eyni xainliklə çatdırır.

Digər tərəfdən, Simonyan belə fikir bildirməklə, müəyyən mənada, köhnə mövzunu təzələyir. Əlbəttə, ən yaxın keçmişin anti-Rusiya ritorikasını. O, ötən il bildirmişdi ki, Moskva 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasına nail olmaqla, Qarabağı Azərbaycana verdi. O da məlumdur ki, erməni spikerin bu fikri Rusiyada birmənalı qarşılanmadı. Hətta, ölkənin Prezidenti Vladimir Putin başqa olmaqla, bir sıra yüksək rütbəli rəsmilər məsələ ilə bağlı mövqe səsləndirdilər. Putin baş nazir Nikol Paşinyanın 2022-ci ilin oktyabrında və 2023-cü ilin mayında keçirilmiş Praqa və Brüssel sammitləri zamanı Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını və bununla hər şeyin bitdiyini dilə gətirdi. Eyni məqamı Rusiyanın xarici işlər naziri Sergey Lavrov da vurğuladı.

Simonyanın isə hazırda söylədiklərindən belə nəticə hasil olur ki, Rusiyanın 2020-ci ildə Ermənistanı Azərbaycanın əlindən alması hər iki dövləti nəzarətdə saxlamaq istəyi idi. O zaman belə düşünə bilərik ki, İrəvan özünün qeyri-ordinar hərəkətləri ilə belə bir nəzarətə qarşı çıxdı və nə etdi? Qarabağda separatçı quruluşu qoruyub saxladı, bölgədəki erməni ordusuna məxsus hərbi birləşmələri çıxarmadı. Deməli, beynəlxalq hüquq normalarına etinasız yanaşdı.

O zaman daha bir sual yaranır: Qarabağda separatizmin saxlanılması yekunda kimin xeyrinə idi? Əlbəttə, Ermənistanın. Və məntiqlə İrəvan gərək üçtərəfli bəyanatın şərtlərini yerinə yetirə idi ki, boyunduruğa düşməsin. Ancaq buna getmədi, destruktiv mövqe tutdu. Azərbaycanla konflikti davam etdirdi. Bir halda ki, Azərbaycanla münaqişədə "boyunduruq" məntiqi var, olmazdımı ki, Ermənistan bundan uzaq dayanardı? Görünür, olmazmış!

Məsələyə başqa bucaqdan yanaşaq. Fərz edək ki, Moskva Qarabağı Ermənistanın nəzarətində saxlamaq istəyib, amma İrəvan bununla razılaşmayıb, ona görə ki, başına kəndir keçirilməsini istəməyib? Bu, əsla mümkün deyil. Həm də məsələ hansı boyunduruqdadır? Bəli, Ermənistan Qərbin boyunduruğunu başına salıb. Mövcud xüsusda ölkə özünü demokrat, insan hüquq və azadlıqlarını qoruyan ölkə kimi reklam edir. Bu ritorika ilə Azərbaycanı gözdən salmağa girişir. Halbuki, ölkəmizlə səmimi keçinmək üçün şansı olub. Hətta, bu gün də var. Sadəcə, erməni iqtidarında səmimiyyət çatışmır.

Bu yerdə A.Simonyanın başqa fikirlərinə də nəzər salaq. O, Azərbaycanla müharibə ehtimalını proqnozlaşdırmaq istəmədiyini, təmsil olunduğu komandanın belə bir təhlükənin qarşısını almaq üçün mümkün olan hər şeyi etdiyini vurğulayır. Əlbəttə, erməni parlamentari söz oyununa baş vurur. Çalışdığı budur ki, ölkəsi müdafiə tərəfi kimi görünsün. Heç şübhəsiz, belə yanaşma Azərbaycanı təcavüzkar qismində qələmə verməyin dəfələrlə sınaqdan çıxarılmış üsulu, erməniləri məzlum göstərməyin dəfələrlə sınaqdan çıxarılmış yarıtmaz metodudur. Çünki Simonyan vurğuladığımız kimi, hər şeyi açıqdan-açığa deyir. Yəni, dünyanın müxtəlif ölkələrindən silah aldıqlarını vurğulayır və bu deyimdə heç bir məzlumluq yoxdur. Əksinə, tam əminlik görünür. Belə nəticəyə gəlmək olar ki, Ermənistan parlamentinin spikeri dolayısı ilə yeni müharibə anonsunu verir. Onu da nəzərə alaq ki, ölkənin Azərbaycanla müharibəyə başlamaq niyyəti ilə bağlı məlumatları yayan elə erməni mediasının özüdür.

***R.ƏVƏZ***
***XQ***

## Tariyel Məmmədov – 75

**Onun kim olduğunu, Azərbaycan elmi və mədəniyyəti üçün hansı dəyər daşıdığını anlatmaq üçün, sadəcə, 30–40 il ərzində nələri yaratdığını, hansı mühüm işlərə imza atdığını sadalamaq yetər. Bu miqyaslar elə nəhəngdir ki, həmin sıranı göz önündən keçirincə bir adamın bu qədər vacib, əhatəli, qalıcı işləri ixtiyarında iri bir köməkçi heyət olmadan necə yerinə yetirməsinə heyrətlənməyə bilmirsən. Azərbaycan musiqişünaslığında bitmiş XX yüzil, artıq yaşa dolan XXI əsrin iki onilində bu həcmdə, bu səviyyədə, bu dəyərdə qiymətli işləri yerinə yetirməyi bacarmış professor Tariyel Məmmədovla müqayisə edilə biləcək ikincisi yoxdur. Onun yaratdığı və yaşatdığı "Musiqi dünyası" jurnalı isə həm musiqişünaslığımızda, həm mətbuat tariximizdə bənzəri olmayan sevimli elm və mədəniyyət hadisəsidir.**

# Tariyelin yolu

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin deputatı, akademik**

Onun getdiyi yol təzə deyil. Ən azı, səkkiz əsr öncə ulu babalarından birinin bu yolu hər kəsə örnək ola biləcək şərəf və sanballa getdiyi dünyaya bəllidir.

Bu şanlı, uzun tarixi yol ki var, Azərbaycan musiqişünaslığının bütün tarixindən keçən xiyabandır.

Bu yolun o başında – XIII yüzildə Səfiəddin Urməvi boyu qürurla dikəlir. Həmin möhtəşəm yolda Urməvidən bir əsr sonra Əbdülqadir Marağayi bərq vurur. Və o iki ulduzun nuru elə gurdur ki, yüzilləri adlayaraq daim elə hər səhər doğan Günəş kimi nur saçır.

Sonra XX yüzildə o böyük yolda daha bir ulumuz - elə həmin zirvələrə tay, onlar kimi işığı uzaqlardan gələn ulduz kimi yox, elə başımızın üstündəki Günəş kimi par-par yanan Üzeyir bəy Hacıbəyli göründü.

Böyük yol çoxdan açılmışdı. Sanki nəsə yeni söz demək müdhiş dərəcədə ağır idi. Sanki uzaq dünənlərdəki dahilərin şöhrət yükünün ağırlığı çiyinlərdən aşağı basa bilərdi. Ancaq Üzeyir bəy böyük yola bir səhər nəsimi kimi gəldi və köhnə cana təzə nəfəs gətirdi.

Urmiyalı Səfiəddindən "Kitab ul-ədvar", "Şərəfiyyə", Marağalı Əbdülqadirdən "Məqasid ul-əlhan", "Came əl-əlhan" kimi abidə kitabların yadigar qaldığı, onların səsinin yeni zaman içərisində bugünün ahənginə uyğun şəkildə yaşamasının gərək olduğu çağda tale və tarix bu möhkəm təməllər üzərində "Azərbaycan xalq musiqisinin əsasları" kimi təzə bir abidəni doğurmağı Üzeyir bəyə həvalə etdi.

XX yüzil idi. Büsbütün başqa əyyamlar idi. Üzeyir bəy artıq açılmış yolla gedə-gedə yeni yol açdı.

Bu ona bənzəyir ki, torpaq üzərində gedilən yol öncədən vardı. İndi səmaya ucalan, sabahlara baş alan, fəzalara yüksələn yol açdı Üzeyir bəy.

Və belə bir yolu açması ilə özündən sonra gələnlərə möhkəm qanadlar bağışlamış oldu. Vaxt ötdükcə bu yoldan çoxları keçəcək.

Və sürətlə uçan təyyarələr ki özündən sonra uzun zaman görünən, tədricən əriyərək ortaq böyük yola qovuşan iz qoyurlar, elə həmin təhər onların da adları, imzaları əbədiləşəcək...

Tariyel Azərbaycan musiqi mədəniyyətinin tarixində ilk olan "Musiqi dünyası" jurnalının birinci sayını buraxanda XX əsr bitir, astanadan XXI yüzillik gülümsəyirdi. 1999-cu il idi. Azərbaycanda birinci dəfə elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarifçi beynəlxalq toplu yola çıxırdı. Artıq üçüncü onillikdir ki, bu yol davam edir. Tariyelin qeyrəti, əzmi sayəsində davam edir!

Tariyelinsə bu barədə düşünməyə heç vaxtı yoxdur. Tariyel hələ yoldadır. Hələ arzular, niyyətlər çox, işləmək, çalışmaq həvəsi də sonsuz. Və arxada qalan yolun anlatdığı bir həqiqət də budur ki, əlbəttə, davam edən yol hələ bizləri çox sevindirəcək.

...Köhnə nəslin adamları – 1970-ci, 1980-ci illərdə mənim müəllimim olmuş və Azərbaycan ziyalılığının canlı klassikləri hesab edilən böyük alim və ədiblər – Abbas Zamanov, Qulam Məmmədli, Əkrəm Cəfər və digərləri deyirdilər ki, vaxtilə bircə "Maarif və mədəniyyət" çıxırdı, mədəniyyətin, ədəbiyyatın bütün sahələrinə onun səhifələrində yer vardı, hər kəs də o jurnalda arzuladığını tapırdı, amma indi jurnallar bolluğudur, di gəl o dərginin təkbaşına etdiyini bunlar hamısı yerinə yetirməkdə acizdir. Söz yox, "Maarif və mədəniyyət"in o səviyyəyə qalxmasına səbəb həm də müəlliflər idi – Azərbaycan ziyalılığı "qızıl dövr"ünü yaşayırdı, hələ repressiya səmumları sıraları seyrəltməmişdi, bir-birindən qüvvətli qələmlər yazıb-yaradırdılar.

Tariyel musiqi ilə nəfəs alan bir ailədə doğulub. İndi xəyalən 1950-ci illərə qayıdanda söyləyir ki, atam gözəl tar çalırdı. Nənəmin də yaxşı tar çalmağı vardı. Evimizdə, ailə albomunda qədimdən qalan fotolar var ki, dəstə ilə tar çalırlar, nənəm də o sıradadır. Amma musiqini belə qəlbən sevməsinə baxmayaraq, atam polis idi, polkovnik rütbəsində idi. Anam işləməyib, evdar qadın olub. Belə alındı ki, musiqi məktəbinə daxil oldum və əslində bu da göstərici deyildi ki, musiqiçi olacağam. O vaxt ziyalı ailələrinin əksəri uşaqlarını musiqi məktəbinə qoyurdu. Lakin mənim musiqiyə həvəsim ötəri bir hiss deyildi. Qərara aldım ki, musiqi təhsilimi davam etdirim. 1964-68-ci illərdə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbində oxudum. Bizim müəllimlər, əsasən, ruslar idi. Çünki o zamanlar musiqişünaslıqda azərbaycanlılar az idi. İfaçılıqla bağlı dərsləri aparanlar arasında isə azərbaycanlılar da var idi.

Tariyel uzaq olmayan tariximizi belə xatırlayır və bu, həqiqətdir. Burası da unudulmasın ki, hətta 1970-ci illərədək musiqişünaslığımızdakı yaxşı araşdırıcıların da əksəri rusdilli idi. 1960-70-ci illərdə zahirən bu baxımdan sonacan qəbul edilə bilən yeganə musiqişünasımız köhnə nəslin təmsilçisi olan Əfrasiyab Bədəlbəyli idi ki, əsl musiqi ustadı olmaqdan əlavə, həm də ərəb, fars dillərini bilirdi, qaynaqlarla işləməyi bacarırdı, mahir nəzəriyyəçi və təhlilçi idi. Bu gün isə artıq Azərbaycanda musiqimizin ən müxtəlif istiqamətlərini ən dərin qatlarına qədər incələməyi bacaran sıra-sıra musiqişünaslar yetişibsə, bu istiqamətdə son 30 ildə Tariyel Məmmədovun "Musiqi dünyası"nın da xidmətləri danılmazdır.

Bunu xatırlayan Tariyel Məmmədovdur: "1968-ci ildə mən məktəbi bitirdim, üz tutdum konservatoriyaya. O vaxtlar konservatoriyada çox güclü müəllimlər vardı. O vaxt rektor Cövdət Hacıyev idi. Amma 1968-ci ildə mən ilk cəhddən qəbul oluna bilmədim. Doqquz imtahan vardı, 45 bal almalı idim. Cəmi 42 bal yığdım. Amma imtahan verən digər uşaqlar da insafən güclü idilər. Mən girə bilmədim, gedib başladım musiqi məktəblərində işləməyə. 3-cü mikrorayonda musiqi məktəbində çalışırdım. Ramiz Quliyevlə işlədim, o, tar çalırdı, mən də müşayiət edirdim. Sonra 1969-cu ildə uğurla konservatoriyanın musiqişünaslıq fakültəsinə qəbul olundum. Bizdə Daniil Xristoforoviç Danilov kimi, Ella Markovna Nikomarova kimi, İzabella Vladimirovna Abezqauz ... kimi qabil müəllimlər dərs deyirdi. Bizdə indi Bakı Musiqi Akademiyası deyilən ovaxtkı konservatoriyada çox güclü məktəb var idi".

Bu qiyməti verən professor Tariyel Məmmədovdur: "Bu gün də Bakı Musiqi Akademiyası Azərbaycan üçün xüsusi bir işıqdır. Düzdür, aparıcı təhsil ocaqlarımız, şöhrətli musiqi mərkəzlərimiz var, amma heç biri gücdə, sanbalda Bakı Musiqi Akademiyasına çata bilməz. Tələbəlik illərində mən daha çox Qərb musiqisi ilə bağlı idim. Biz bir dəstə idik. Firəngiz Əlizadə də onlardan biri idi, digəri Fərəc Qarayev və daha neçələri. Biz Pool Hindemiti çalırdıq, Arnold Şönberqi ifa edirdik, Bela Bartoka meyil edirdik. Müasir musiqini araşdırdım, çaldım, müzakirə etdim, bu musiqinin qızğın təbliğçilərindən oldum. Amma burası da maraqlıdır ki, konservatoriyanı bitirəndə ovaxtkı rektorumuz, rəhmətlik böyük bəstəkar Soltan Hacıbəyov məni təyinatla yolladı Qarabağa – Xankəndiyə müəllim. Orada Sayad Nova adına orta ixtisas musiqi məktəbində müəllimlik elədim. İki ay musiqi nəzəriyyəsi, musiqi tarixi fənlərini apardım. Sonra hərbi xidmətə yollandım. Xidmət yerim də uzaq deyildi – Xəzər Dəniz Gəmiçiliyində qulluq edirdim. Orada ansambl vardı. Orada da bir az aranjiman elədim, yazdım-pozdum, leytenant rütbəsi aldım. Qayıtdım sonra yenə təyinatla göndərildiyim Xankəndiyə. Bizimlə iki-üç nəfər getmişdi. Pianoçular və bir də mən musiqi nəzəriyyəsi, musiqişünas kimi. Birgə işləyirdik, amma yenə də ermənilər tərəfindən qatı millətçilik hiss olunurdu. Elə vaxt gəlib çatmışdı ki, artıq qaynayırdılar. Onu da deyim ki, mən həm orada - Xankəndidə dərs deyirdim, həm də oradakı dərs saatlarım bitəndən sonra gedib Ağdamdakı orta ixtisas musiqi məktəbində dərs verirdim. Yaxın idi, nəqliyyat da yaxşı işləyirdi. Bazar günləri də, adətən, Şuşaya gedirdim istirahət etməyə. Şuşada yaşlı xanəndə vardı, Mürsəl kişi. Yığışardıq onun başına, Qarabağın keçmiş musiqi həyatından elə xatirələr söyləyirdi ki, doymaq olmurdu. Ya da Ağdamdakı orta ixtisas musiqi məktəbində dərslərim olan günlərdə arada gələrdik tarzən Xosrov Fərəcovun otağına. Kabinetdə otururdu, çay içirdik, keçmişlərdən maraqlı söhbətlər edirdi"...

Qarabağdan qayıdandan sonra Tariyel Elmlər Akademiyasına, Memarlıq və İncəsənət İnstitutuna işə düzəlir, Əhməd İsazadənin rəhbərlik etdiyi musiqi folkloru şöbəsində çalışır. Həmin şöbəyə o vaxtlar mən də tez-tez gedib-gələrdim. O vaxt orada Əminə xanım Eldarova, Qubad Qasımov kimi təcrübəli mütəxəssislər işləyirdi. Təbii ki, onlarla bir yerdə ötən illər Tariyeli xalq musiqisinə minbir tellə bağlayır və əslində onun gələcək musiqişünaslıq səmti də elə həmin dövrdə müəyyənləşir.

"Mən o vaxtlar ilk dəfə 80 aşıq havasını nota salmışam. Musiqini nota salmaq 1919-cu ildən başlayıb. Tabulatur nota salma vardı, Marağayi, Fani o cür yazırdılar. Bunlar not deyildi. Not sistemi, XI əsrdən – Qvido de Aretsodan gələn not sistemi bizdə yox idi. İlk dəfə partitura kimi Nəriman Məmmədov başladı, sonra Ramiz Zöhrabov yazdı muğamları. Mən də partitura kimi aşıq havalarını yazdım. Mən Moskvada, böyük alimlərin qarşısında sübut elədim, dedim ki, əlimdə musiqi aləti olmalıdır – tambur olsun, bayan olsun, saz olsun, hər hansı biri, sözlə olmaz, gərək çalasan, göstərəsən, fikrini əyani nümunə üzərində isbat edəsən".

Tariyel Məmmədovun fəaliyyətlərinin bir istiqaməti də qrammofon vallarında, lent yazılarında qalan musiqi irsimizə yeni həyat verməkdir.

"Biz bu gün məmnunluqla deyə bilərik ki, milli musiqi irsimizin bir çox nümunələrini bərpa elədik: Musiqi Mədəniyyəti Muzeyindən 200 ədəd qrammofon valını, 100 ədəd valı Üzeyir bəyin ev muzeyindən, daha 100-nü Dövlət Səsyazma Arxivindən, ümumilikdə 400 val. Bu gün də həmin iş davam edir. 124 hazır disk verdik Heydər Əliyev Fonduna. 350 ədəd də disk hazırlamışıq".

Tariyel həyatının əsas işini 1999-cu ildə başladı. "Musiqi dünyası"nı nəşrə başlamaq istəyəndə Fərhad Bədəlbəyli ilə, Tofiq Quliyevlə, Vasif Adıgözəlovla, Ramiz Quliyevlə söhbətləşdi. Hər biri dayaq duracağını vəd etdi. Tariyel o dağlara söykənərək bu gün artıq haqqında fəxrlə danışdığımız bu jurnalı araya-ərsəyə gətirə bildi.

"Musiqi dünyası"nın özü artıq Azərbaycan araşdırmaçılığında bir janrdır və bəhrələri də boldur. Dərginin həm Azərbaycanda, həm Azərbaycandan kənarda çoxlu sabit müəllifləri, mötəbər münsifləri var. Jurnalın yanında 46 veb sayt yaradılıb. Bu da bir ayrı zəngin irsdir. "Musiqi dünyası"nın bir mühüm xidməti də Azərbaycan musiqişünaslığının sağlam, sabit və öyrənilib davam etdiriləli terminolojisini və elmi üslubunu ortaya qoymasıdır. Gəncliyimiz, musiqişünaslığa yeni gələnlər buradan çox şey öyrənə bilərlər. Onların hansısa fikri necə ifadə etmək, hansısa termini nə şəkildə Azərbaycan dilində düzgün çatdırmaq barədə düşünməyə ehtiyacı yoxdur. Açsınlar, bu jurnalı vərəq-vərəq oxusunlar, arxada qalan 30 ilə çatan müddətdə yaranmış irs onlara musiqişünaslığımızın rəvan, şəkillənmiş, oturuşmuş elmi dilinin üfüqlərini açacaq. Maarifçilik bir işıqdır. Hər millətin bu işığa ehtiyacı var.



Gənc Tariyel Məmmədov elm yoluna çıxanda 1970-ci illər bitir, 1980-ci illər başlanırdı. Bu yolun, təqribən, 40 ilindən çoxuna bilavasitə şahidəm və həmişə onu sabaha baxan, vaxtın sürətindən bir az yeyin yeriməyə can atan görmüşəm.

1980-ci illərdə indi həyatımızın ayrılmaz parçasına çevrilmiş bilgisayarlar, elektron mühit, dünyanı ovuc içərisindəki kimi yığcam edən internet məkanı hələ xeyli aralıda idi. Tariyel həmin dəyərləri musiqişünaslığımız üçün çox doğma və sərfəli müstəviyə çevirməyin vacibliyini həssaslıqla ilk duyanlardan oldu.

Sadəcə, bu səmtə üz tutanlarda gərək Tariyeldəki kimi sevgi, yorulmazlıq, inadcıllıq, qətiyyət ola.

"Azərbaycan diskoqrafiyası 1900-1940-cı illər", "Azərbaycan musiqi vallarının antologiyası", "Üzeyir bəy ensiklopediyası", "Azərbaycan tarixinin canlı səsləri", "Azərbaycan epistolyar irsi", "Dədə Qorqud ensiklopediyası", "Azərbaycan foto-sənədlər irsi", "Azərbaycan teatrı: dünən, bu gün, sabah", "Azərbaycan ənənəvi musiqi atlası", "Muğam ensiklopediyası", Əfrasiyab Bədəlbəyli, Qara Qarayev, Tofiq Quliyevə həsr edilmiş saytlar, hələ bu anda sadalamadığım daha neçə elektron səs və təsvirlər yuvası ki, dünyanın istənilən nöqtəsində istənilən insan bu əsrarəngiz məkana rahatca qovuşa bilər.

Musiqimizə, mədəniyyətimizə Tariyeldən daha əvvəl də bu möhtəşəmlikdə qanadlar bağışlamış kim olub ki?!

Çox arzulayıram və yəqin, elə professor Tariyel Məmmədovun da istəyi budur ki, insanlarımızda yol açmaq qətiyyəti, yolun zəhmətlərinə dözmək dəyanəti, xeyirxah irs yaratmaq nəcibliyi daim var olsun, millətəxeyir işlərin qulpundan yapışanlarımız azalmasın!

Nə qədər çox olsalar, böyüklüyümüzü özümüz də daha aydın görəcəyik, millətimizin, yurdumuzun müstəsnalığına başqaları da daha artıq şahid kəsiləcək, Azərbaycan dühasına daha çox heyran qalacaq.

# ADA Universiteti Özbəkistanda

**2024–2025-ci tədris ili üçün tələbə qəbulu ilə əlaqədar Azərbaycanın ADA Universiteti nümayəndələri Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə Daşkənd və Səmərqənd şəhərlərindəki ümumtəhsil məktəblərinin sonuncu sinif şagirdləri və universitet tələbələri ilə görüşüb beynəlxalq təhsil proqramının təqdimatını həyata keçiriblər.**



Qonaqlar AMM əməkdaşları ilə birlikdə Daşkənd şəhərindəki 154, 5, 51, 17, 263 nömrəli, həmçinin Əl-Xarəzmi adına ixtisaslaşdırılmış məktəb, Genesis Education məktəbi, eləcə də Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Səmərqənd Dövlət Tibb, Heyvandarlıq və Biotexnologiya Universiteti, Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin Akademik Liseyi kimi bir sıra dövlət və özəl məktəblərdə olub, beynəlxalq təhsil proqramını şagird və tələbələrə təqdim ediblər.

Qeyd edək ki, ingilis və rus dillərində keçirilən təqdimatlarda ADA Universitetinin Tələbə Qəbulu Şöbəsinin nümayəndəsi Sona Məmmədova və Biznes fakültəsinin baş müəllimi Mukhammadfoik Bakhadirov ictimai və beynəlxalq münasibətlər, hüquqşünaslıq, biznes, təhsil, dizayn və memarlıq, kənd təsərrüfatı və qida elmləri fakültələrinin bakalavriat və magistratura səviyyələri üzrə ixtisaslarla tələbələri tanış ediblər. Həmçinin şagirdlərə xarici ölkələrdən olan tələbələrin həyat şəraiti, parklar və istirahət yerləri, asudə vaxtın təşkili, universitetdəki dostluq ab-havası və s. əks etdirən videolar təqdim olunub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

# Su bardağı



**Gənc şair Valeh Qoca sosial şəbəkə hesabında yazır: "30 ildən sonra Kəlbəcərdəki evimizdən tapdığımız anamın su bardağı məni çox duyğulandırdı".**

*Bu boyda məhlədən, bu boyda evdən,*
*Bir səni tapmışam ay su bardağı.*
*İndi ciyərim yox, ürəyim yanır,*
*Yoxmu sahibinə pay, su bardağı?!*

*Yox idin, ovcumu yerinə qoyub,*
*O qədər dağların çayın içmişəm.*
*Nə xoş halıma ki, ilk dəfə səndən,*
*Mən də bu yerlərin suyun içmişəm.*

*Bu evin gülləri solubdur, amma,*
*Hələ də üstündə gül yeri qalıb.*
*Ağzında atamın dodaq izləri,*
*Qulpunda anamın əl yeri qalıb.*

*Nə yaxşı sakini oldum yolların,*
*Nə yaxşı çatıbdır qatarım sənə.*
*O qədər əlindən su vermisən ki,*
*Gəl indi gözümdən qaytarım sənə.*

# Hər kitab bir dünyadır




## "Ölüm mələyi" Səfəvi sarayında

***"Təhsil" Nəşriyyatı yazıçı-publisist Mustafa Çəmənlinin "Ölüm mələyi" tarixi romanını çap edib.***

Əsər ilk dəfə 2012-ci ildə "Azərbaycan" jurnalının 4, 5, 6-cı nömrələrində, elə həmin ildə də kitab halında çap olunub. Növbəti ildə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl Kəlmə" ədəbi mükafatına layiq görülüb.

"Ölüm mələyi" romanında Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli bir dövrü təsvir olunur. Əsərdə I Şah Təhmasibin ömrünün son günləri, onun 19 il 6 ay 21 gün Qəhqəhə qalasında dustaq etdiyi oğlu İsmayıl Mirzənin hakimiyyətə gəlməsi və fəaliyyəti öz əksini tapıb. Romanın süjet xətti tarixi romanlara xas ənənəvi döyüş səhnələri ilə deyil, saraydaxili ziddiyyətlər, insan münasibətləri, hakimiyyəti əldə etmək və onu qorumaq uğrunda mübarizə yolları ilə səciyyəvidir.

Səfəvilər xanədanının böyük bir dövrünü əhatə edən bu romanda I Şah Təhmasib, II Şah İsmayıl, Pərixan bəyim, Gövhər bəyim, İbrahim Mirzə, Hüseynqulu Xüləfa və başqa tarixi şəxsiyyətlərin dolğun bədii obrazları yaradılıb.

## "Fransız leytenantın məşuqəsi" Bakıda




***Böyük ingilis yazıçı Con Faulzun dünyaca məşhur "Fransız leytenantın məşuqəsi" romanını Azərbaycan dilində oxumaq imkanı yaranıb.***

Romanda iki gəncin sevgisi fonunda çox maraqlı hadisələrdən bəhs edilir. Sara kiçik Laym qəsəbəsinin sakinidir. O, sonradan bu qəsəbəyə gələn fransız leytenantla eşq yaşayır. Leytenant Fransaya dönəndən sonra qız cəmiyyətdəki nüfuzunu itirir. O bütün günü sahildə dayanıb dənizə baxır.

Bir gün Çarlz və Ernestina adlı nişanlı cütlük gəzməyə çıxanda Saraya rast gəlir. Ernestina qızın başına gələnləri nişanlısına danışır. Sara Çarlzın böyük marağına səbəb olur. Bu, sonradan güclü sevgiyə çevrilir. Çarlz qohumlarından da, nişanlısından da ayrılmalı olur. Romanın sonuna doğru isə hər şeyin göründüyü kimi olmadığına şahidlik edirik.

Ötən əsrin ən ünlü yazıçılarından olan Con Faulzun bu məşhur romanı onun ən yaxşı əsərlərindəndir. Kitabın tərcüməçisi Vaqif Rəsulovdur.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Varlı qadın" və "Göyçək Fatma" Göyçayda

**Mingəçevir Dövlət Dram Teatrı aktyorlarının ifasında "Varlı qadın" pyesi və Azərbaycan xalq nağılları motivləri əsasında səhnələşdirilmiş "Göyçək Fatma" nağıl-tamaşası Göyçay rayon Mədəniyyət Mərkəzində nümayiş olunub.**



Yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin yazdığı, indiyədək ölkəmizdə və xaricdə bir sıra teatrlarda tamaşaya qoyulmuş "Varlı qadın" pyesinə Xalq artisti Valeh Kərimov quruluş verib və baş qəhrəman – Sarı rolunu da özü oynayıb. Ailə-məişət mövzusunda olan, eləcə də mənəvi məsələlərə toxunulan, ailə sevgisinin vacibliyinin vurğulandığı komediyada təsirli, dramatik situasiyalar da əks olunub. "Varlı qadın" rayon ictimaiyyəti tərəfindən alqışlarla qarşılanıb.

"Göyçək Fatma" nağıl-tamaşası isə azyaşlı tamaşaçıların böyük marağına səbəb olub.

***XQ***

**Armİnfo.am. xəbər portalında verilmiş ( 24 fevral 2024-cü il) " Rusiya Federasiyası və KTMT ilə əlaqələrin qırılması, eləcə də, Yerevanın Qərbə meyillənməsi Ermənistan üçün məhvedici vəziyyət yarada bilər" adlı material işğalçı ölkənin bugünkü reallıqlarının qiymətləndirilməsi baxımından olduqca maraqlıdır. Bu ölkədəki Respublika partiyası idarə heyətinin üzvü, keçmiş deputat Eduard Şarmazanovun öz Facebook səhifəsində baş nazirin "Franse-24" telekanalına verdiyi müsahibə haqqında yazdığı ( yəni müsahibə deyil ki, kimsə fikirləri kontestdən çıxartmış olsun – İ.M.) analitik materiala istinad edən sayt Nikol Paşinyanın düşdüyü durumun acınacaqlı olduğunu bildirib.**

Sayt yazır ki, tarix öz şəxsi həyatında baş verənlərdən dərs ala bilməyənlərə qarşı amansız olur. Şarmazanovun fikrincə, Nikol Paşinyan həmin müsahibədə Ermənistanın deyil, Ukraynanın maraqlarına xidmət etdiyini boynuna alıb. Siyasətçi soruşur: "Nikol Paşinyan, siz Ermənistanın təhlükəsizlik məsələlərini həll etmisiniz ki, indi Ukraynanın təhlükəsizliyinin qorunmasına qalxırsınız? Sizin Qərbin və Ukraynanın qarşısında bütün "rəqsləri ifa etməyiniz" azdırmı ki, indi də Kiyevin vəkili kimi çıxış edirsiniz? Deyirsiniz ki, Ukraynada baş verənlər Alma-Ata Bəyannaməsinin pozulmasıdır və bu, bizi çox narahat edir.

# Nikol Paşinyan yenə də "rəqs edir"

## Amma indi Şuşada yox, Günbatanda



Eduard Şarmazanov öz ölkəsinin dövlət başçısına xatırladır ki, Azərbaycan bizim sərhədlərimizdə və təmas xətlərimizdə nə etmək istəyirsə, onu da reallaşdırır. Siz isə gedib Avropada Ukrayna üçün ağlayırsınız.

Erməni siyasətçinin baş nazirə daha bir maraqlı sualı var: "Siz kimsiniz? Bayden, Blinken, Şolts, Ərdoğansınızmı ki, o boyda böyük problemə – Ukrayna məsələsinə baş qoşursunuz? Siz Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımısınız və soydaşlarınızın oradan köçməsini təmin etmisiniz. Bu dəhşət sizi narahat etməsə də, Ukrayna məsələsi sizi bərk həyəcanlandırır. Söhbət hansı Ukraynadan gedir, siz bilirsinizmi? Söhbət Azərbaycanın dostu və müttəfiqi olan, prezidenti Zelenski Qarabağdakı Zəfərə görə İlham Əliyevi təbrik etmiş Ukraynadan gedir, axı. O Ukraynadan ki, otuz il ərzində daim Qarabağın Azərbaycan ərazisi olduğunu iddia etmişdir. Gürcüstan rəhbərliyindən nümunə götürün və böyük problemlərə burnunuzu soxmayın".

Yeri gəlmişkən, Ermənistan Milli Məclisinin müxalifətçi fraksiyasından olan deputatı Artur Xaçatryan da fevralın 26-da bəyan edib ki, İrəvan rəhbərliyinin NATO-nun "əlinə oynaması" və KTMT ilə münasibətlərin dondurulması Ermənistanı meydanda tək qoyacaq. Deputat bu fikirlərini Ukrayna Prezidenti Volodimir Zelenskinin İrəvana gözlənilən səfəri barədə danışarkən deyib. Müxalif siyasətçi Nikol Paşinyanı öz xalqına xəyanətdə ittiham etməkdən də çəkinməyib: "Mən istisna etmirəm ki, İlham Əliyev, Volodimir Zelenski və Nikol Paşinyan Qarabağ məsələsində tamamilə həmrəydirlər".

Yəni, Nikol Paşinyan təkcə hərdəmxəyallığı, bu gün dediyini sabah təkzib etməsi, Şuşada şərab içib yatması, yerli-yersiz rəqsləri ilə deyil, həm də başı girməyən yerə bədənini də dürtmək cəhdləri ilə xalqının da gözündən düşür, dünya ictimaiyyətinin də. Ermənilər haqlı olaraq ondan soruşurlar: "Sənin Münxendə şadyanalıqla "İlham Əliyevlə danışdıq, Azərbaycan bizə hücum etməyəcək!"– deməyinlə, həmin gün axşamüstü Parisdən silah istəməyini necə anlamaq olar?".

Yazıq Nikol, indi qalıb od ilə su arasında. Azərbaycan haqlıdır, Türkiyə güclüdür, Rusiya göz yaşlarına daha heç inanmır, ABŞ çox uzaqdadır, Fransa isə məkrli, kələkbaz və kəmfürsət. İndi Ermənistanı ya Suriyanın gününə düşmək gözləyir, ya da məhv olub getmək. Amma prezidentlər Heydər Əliyev də, İlham Əliyev də son 30 ildə onlara xilas yolunu dəfələrlə göstərmişdilər: "Dağılmış Paris" o xilasa imkan vermədi ki, vermədi. İndi öz cəzalarını çəkməlidirlər və çəkirlər.

*İttifaq MİRZƏBƏYLİ*

# Rusiyanın dondurulan aktivləri Ukraynaya veriləcəkmi?

**G7 ölkələri, Avropa İttifaqı (Aİ) və Avstraliya tərəfindən Rusiyaya məxsus 260 milyard avronu dondurub ki, bunun da üçdə-ikisi Aİ-nin payına düşüb.**




Bununla bağlı Qərb ekspertləri bildiriblər ki, Rusiya aktivlərinin dondurulması beynəlxalq hüquq qaydalarına əsaslanır. "Bloomberg"in məlumatına görə, Belçika, Fransa, Almaniya, Yaponiya, Niderland, Böyük Britaniya və ABŞ-dan olan ekspertlərin fikrincə, günahsız hər hansı bir ölkənin aktivini dondurmaq qanunsuzdur. Lakin Rusiyanın aktivlərinin dondurulması onun işğalçılıq siyasətindən irəli gəlir.

Ekspertlər Rusiyaya qarşı sözügedən sanksiyanı imzalayan ölkələrin beynəlxalq mexanizmə uyğun və hüquqi cəhətdən əsaslandırılaraq dondurulan aktivlərin Ukraynaya verilməsini təklif ediblər.

"Bloomberg"in təhqiqatçıları bildiriblər ki, ABŞ və Böyük Britaniya Rusiya aktivlərini tam dondurublar. Paris və Berlin isə ehtiyat edərək bunun əleyhinə gediblər.

*Qəzənfər QASIMOV*
*XQ*

# Demokratiyanın tələbi, yoxsa Qərbin saxta silahı?

## ABŞ hakimiyyəti Culian Assanjı söz azadlığının gözdağına çevirir



*(əvvəli qəzetin 25 fevral tarixli nömrəsində)*

### "Cablegate" nədir?

"WikiLeaks" 2007-ci ildə Bağdadda, iki jurnalist də daxil olmaqla, mülki şəxslərin öldürüldüyünü göstərən ABŞ hərbi helikopterindən video görüntüləri saytında yerləşdirdi. Bu, 2010-cu ildə oldu. Rabitə qurğusunda pilotla danışan amiranə bir səs "Onların hamısını yandırın" deyir və pilotu helikopterin kiçik çaplı topundan mülki şəxslərə atəş açmağa təhrik edir.

O zaman "WikiLeaks" KİV-ə bildirmişdi ki, bu video "ABŞ hərbçilərinin silahdan istifadə edilməsi qaydalarının mükəmməl olmadığını" göstərir.

Bundan sonra "WikiLeaks" ABŞ hərbi kəşfiyyatının keçmiş analitiki Çelsi Manninqin təqdim etdiyi yüz minlərlə sənədi və diplomatik yazışmaları dərc etdi. Bu sənədlərdə Əfqanıstan və İraqdakı müharibələr zamanı mülki əhalinin itkiləri ilə bağlı hesabatlar öz əksini tapmışdı. Bəlli olurdu ki, ABŞ hərbçiləri İraq müharibəsi zamanı 66 min dinc sakini qətlə yetiriblər. Bu isə ABŞ hökumətinin əvvəllər açıqladığından xeyli çox idi.

Assanja qarşı irəli sürülən ittihamda ABŞ səlahiyyətliləri iddia edirlər ki, bu məlumatların dərci "adları çəkilən şəxsləri Əfqanıstan və İraqda ciddi zərər, işgəncə və hətta ölüm riski ilə üz-üzə qoyub". Demokratiya və insan haqları "çarcı"sının bu yanaşması hiddət doğurmaya bilərmi? Necə olur ki, ABŞ vətəndaşı olan hərbçilər İraqın 10 minlərlə mülki vətəndaşını, dinc insanı qətliama məruz qoyur, amma ABŞ hökuməti bunları törədənlərin həyatları üçün narahat olur. Deməli, İraqın 10 minlərlə sakininin taleyi ABŞ hakimiyyəti üçün heç bir əhəmiyyət kəsb etmir. Elə Əfqanıstanın, Liviyanın, Yəmənin, Suriyanın, bir sözlə ABŞ ordusunun hərbi əməliyyatlarda iştirak etdiyi bütün digər ölkələrdəki insanlar da bunun kimi...

Bir müddət keçməmiş Assanj məxfi məlumat əldə etmək üçün hərbi bazalara sızma ilə bağlı 18 cinayətdə ittiham olunur. 2010-cu ildə Assanja qarşı daha bir ittiham irəli sürülür: İsveç hökuməti onu ölkənin iki vətəndaşını zorlamaqda ittiham edir. İki həbs orderi aldıqdan sonra Assanj 2012-ci ildə qaçqın həyatı sürməyə başlayır. Zorlama ittihamları ilə üzləşməmək və İsveçə ekstradisiyası olunmamaq üçün Böyük Britaniya Ali Məhkəməsinə verdiyi apellyasiya şikayəti təmin edilmədiyindən toxunulmazlığını itirir və Ekvadorun Londondakı səfirliyinə sığınmaq məcburiyyətində qalır.

2019-cu ildə İsveçdə Assanja qarşı istintaq dayandırılandan sonra Ekvador hakimiyyəti onu səfirlikdən çıxarır. Nəhayət, Britaniya polisi Assanjı səfirliyin qarşısındaca həbs edir. O, London polisi tərəfindən girovdan yayındığına görə 50 həftə həbs edilir.

2021-ci ildə ilk məhkəmə prosesində Britaniya məhkəməsi bu qənaətə gəlir ki, ABŞ-a mümkün ekstradisiyası Assanjın psixi durumuna ciddi təsir edə və onu intihara sövq edə bilər.

### İşgəncəyə bərabər ekstradisiya

"Mən hesab edirəm ki, indiki vəziyyətində cənab Assanjın Amerika Birləşmiş Ştatlarına ekstradisiyası ona əzab verməyə bərabər olardı", – deyə hakim Vanessa Barayttser jurnalistlərə bildirib. Buna baxmayaraq, Birləşmiş Ştatların hakimiyyət orqanları onun ekstradisiyasında təkid edirlər.

Bir çox təşkilatlar və tanınmış şəxslər ABŞ hökumətinin bu ittihamlarına qarşı çoxsaylı arqumentlərlə çıxış edirlər. Məsələn, BMT-nın insan haqları üzrə eksperti Elis Cill Edvards İngiltərə Ali Məhkəməsində Assanjın ABŞ-a ekstradisiyası məsələsinə baxılarkən mediaya bildirib ki, "WikiLeaks" təsisçisinin hüquqlarının pozulmasından ciddi narahatdır. İşgəncə məsələləri üzrə ekspert olan Edvards İngiltərə hakimiyyətinə müraciət edərək Assanjın ekstradisiyasına imkan verməməyə çağırıb. BMT-nin xəbərlər xidmətinə müsahibəsində Assanjın psixi vəziyyətindən narahat olduğunu bildirib.

Edvards narahatlığını əsaslandırarkən vurğulayıb ki, C.Assanjın işi Birləşmiş Krallıqda uzun müddət davam edən "hüquqi dastan"a çevrilib. "BMT-nin xüsusi məruzəçisi kimi mənim vəzifəm kiminsə işgəncə və ya qeyri-insani, ləyaqəti alçaldan rəftar riski ilə üzləşdiyi yerə göndəriləbiləcəyinə dair əhəmiyyətli məlumat aldıqda, bu barədə açıq çıxış etməkdir.

Birləşmiş Krallıq BMT-nin İşgəncələrə Qarşı Konvensiyasına, eləcə də İnsan Hüquqları üzrə Avropa Konvensiyasına üzvdür. Hər iki sənəddə mövcud hakimiyyətlərə insanların bu cür rəftarla üzləşə biləcəkləri yerlərə göndərilməsini qadağan edən ekvivalent maddə, üçüncü maddə var. Assanj məsələsində, mənə təqdim edilən materiallara, eləcə də məhkəmə tərəfindən sənədləşdirilənlərə əsaslanaraq, bu mərhələdə məni xüsusilə narahat edən üç səbəb görürəm.

Birincisi, cənab Assanj depressiv xəstəlikdən əziyyət çəkir. Bu, onun ekstradisiyasının bu günə qədər saxlanmasının çox yaxşı sənədləşdirilmiş və məhkəmə tərəfindən də qəbul edilmiş əsas səbəbidir. Birləşmiş Ştatlara hər hansı bir ekstradisiya onun xəstəliyini pisləşdirə bilər və real intihar riskinə yol açar.

İkinci səbəb odur ki, ABŞ-da məhkəməni gözləyərkən və mühakimə zamanı cənab Assanjı həbsxana gözləyir. Günahı sübuta yetirilərsə, təbii ki, o, həbslə də cəzalandırılacaq. Birləşmiş Ştatlarda insanların ünsiyyət imkanı olmayan ayrı-ayrı kameralarda saxlanıldığı təcrid və təkadamlıq kameralardan istifadənin uzun tarixi var.

Məhkumlarla rəftar üçün minimum standart tələbləri tənzimləyən Nelson Mandela Qaydalarında deyilir ki, 15 günlük təcrid və ya bir nəfərlik kamerada saxlanma işgəncəyə bərabərdir. Beləliklə, hər hansı təcrid və təkadamlıq kameranın Assanjın psixoloji və hətta potensial fiziki sağlamlığına dözülməz təsir göstərməsi ehtimalı yüksəkdir.

Bu ekstradisiyanın çox güman ki, üçüncü maddənin tələblərinə cavab verməyəcəyinə inanmağımın üçüncü səbəbi isə cənab Assanjı 175 il həbs cəzasının gözləməsidir...

Avropa İnsan Haqları Məhkəməsi müəyyən edib ki, kobud şəkildə qeyri-mütənasib cəzalar beynəlxalq hüquqa əsasən pis rəftardır. Məncə, Assanja qarşı ittihamlara görə tələb edilən 175 illik cəza da bura daxildir".

Amma ABŞ-da bu qaydalara əsla əməl olunmaması və məhkumlarla dözülməz rəftar edilməsi heç kimdən gizli deyil. Məgər cənab Assanj təsisçisi olduğu saytda məhz bu kimi məxfi sənədləri dərc etməyibmi? Məgər bunlardan sonra ABŞ-da ədalət mühakiməsinə və həbsxanalarda insan haqlarına hörmətlə yanaşmağa inanmaq olarmı? Əsla yox. Dünyadan demokratiya, söz azadlığı və insan haqlarına hörmət tələb edən və buna "əməl etməyən" dövlətlərdə hakimiyyətləri devirən, bir çox dövlətlərə bomba yağdıran ABŞ nədən öz daxilində bunlara əməl etmək istəmir? Nədən ABŞ-ın kolonial rejimindən miras qalan ölüm hökmü, yüz illərlə həbsxana, ağlasığmaz işgəncələrlə ölümə məhkum etmə və sair cəzaların tətbiqini tələb edən qanunlar bu gün də Amerika hakimiyyətinin əlində ona qarşı çıxanlara qarşı işgəncə mexanizminə çevrilib?

Bu məsələ ilə bağlı BMT-nın insan haqları üzrə eksperti Edvardsın yanaşması daha məntiqli səslənir və obyektivdir. Ekspert deyir: "İstər dövlətə xəyanət haqqında qanun, istərsə də milli təhlükəsizlik haqqında qanun olsun, hər bir qanunda ittiham olunanların müdafiəsi təmin olmalıdır. İndiki mərhələdə ABŞ-da, mənim anladığım qədər, vəziyyət fərqlidir. Tətbiq olunan qanunlar XXI əsrin insan hüquqları standartlarını əks etdirmək üçün əsla yenilənməyib. Və bu, cənab Assanjın vəziyyətinə bənzər bir vəziyyətdə olan, hökumətləri tərəfindən həyata keçirilən və ya hökumətləri tərəfindən həyata keçirildiyi iddia edilən fəaliyyətlər haqqında məlumatı ifşa etmək istəyən hər kəs üçün çox ciddi problemdir".

Ekspert Edvardsın daha bir fikri ABŞ rəsmilərinin vədlərinə işıq tutur: "Birləşmiş Ştatların hökuməti tərəfindən təqdim edilən humanist davranmaya əmin etmək, Assanjın müdafiəsinə kifayət edən təminat sayıla bilməz, çünki qanun nöqteyi-nəzərindən onların icrası mütləq deyil".

Bu araşdırmamızı hazırlayarkən Culian Assanjla bağlı "TUCKER CARLSON NETWORK"-da yenicə nəşr edilən daha bir maraqlı materialla tanış olduq. Material məşhur amerikalı jurnalist Taker Karlsonun "WikiLeaks"-in təsisçisindən aldığı müsahibə haqqında danışır və qeyd edir ki, Vaşinqtonun bütün hakim sinfi Culian Assanja qarşı köklənib və məhz buna görə o, artıq neçə ildir ki, Londonun Belmarş həbsxanasındadır.

Taker Karlson deyir: "ABŞ-ın daimi dövlət aparatının əvəzedilməz elementləri tərəfindən ona (Assanja) o qədər edirlər ki, hansısa bir məqamda MKİ direktoru Mayk Pompeo Assanjın siyasi sığınacaq istədiyi Londondakı Ekvador səfirliyində onun öldürülməsi imkanlarını müzakirə edib. Amma Pompeo heç vaxt buna görə ittiham olunmayıb, bu cinayətdir – seçkili olmayan bürokratlar sadəcə onlara yaramayan insanları öldürə bilməzlər. Çox yəqin ki, ona (Pompeoya) qarşı belə ittihamlar heç vaxt irəli sürülməyəcək".

Jurnalist haqlı olaraq deyir ki, Assanja qarşı Böyük Britaniyada heç bir ittiham irəli sürülməyib, lakin o, orada həbsxanada saxlanılır.

Bəzi məsələləri araşdırmaq məqsədi ilə ötən payızda Belmarş həbsxanasına gedən Taker Culian Assanjla görüşür və ondan soruşur: "Necə düşünürsən, heç bir cinayət ittihamı olmadan sizi Amerikada ən çox axtarılan adam kimi nə üçün mühafizə altında saxlayırlar?"

Amerikalı jurnalist Assanjın ona cavabından heyrətə gəldiyini, bütün həyatını Vaşinqtonda keçirməsinə baxmayaraq, müsahibinin tamamilə haqlı olduğunu bildirir. Bəs Assanj nədə haqlı idi?

"O dedi ki, onu ilk dəfə məşhurlaşdıran "WikiLeaks" vasitəsilə ABŞ rəsmilərinin məxfi saxladıqları İraq və Əfqanıstandakı müharibələrə dair sənədləri və videoyazıları yayımlaması olub. Onlar Pentaqonu xeyli gözdən saldılar. Lakin qırmızı xətti keçməyim bu yox, bir neçə il sonra həmin "WikiLeaks" vasitəsilə Mərkəzi Kəşfiyyat İdarəsinin apardığı gizli izləmələr haqqında məlumatları dərc etməyim oldu".

Burada maraqlı məqam ondan ibarət deyil ki, Assanj MKİ-nin apardığı gizli izləmələri faş edib. Əgər Assanjın bu hərəkəti cinayətdirsə, bəs MKİ-nin hərəkəti nədir? Axı ABŞ qanunlarına görə məhkəmənin əsaslandırılmış müvafiq qərarı olmadan kimisə izləməyin özü də çox ciddi qanun pozuntusudur. Əgər belə isə, o zaman qanun MKİ-nin bu əmri verən şəxsinə niyə tətbiq olunmur?

Əlbəttə, deyə bilərsiniz ki, axı bunun bizə nə aidiyyəti var? Doğrudur, heç bir aidiyyəti yoxdur. Amma ABŞ administrasiyası, onun konqresi və digər qurumları niyə təkidlə bütün ölkələri, o cümlədən müstəqil Azərbaycanı xırda bir məsələdə belə demokratiya prinsiplərinin pozulmasına görə ittiham edirlər? Ataların gözəl bir məsəli var –"Öz gözündə tiri görməyən, özgə gözündə tük axtarır". Yaxşı olmazmı ki, ABŞ, o cümlədən demokratik Qərb əvvəlcə özündə lazımi məsələləri qaydasına salsın, sonra hansısa ölkəyə demokratiya tələbi irəli sürsün.

**İlqar RÜSTƏMOV**
**X Q**

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası QƏRAR

**№ 3-27/3-7-4/2024**

**Bakı şəhəri** **20 fevral 2024-cü il**

**"Yerüstü yayımın təmin olunması və siqnalın ötürülməsi ilə əlaqədar xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasını təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Yerüstü yayımın təmin olunması və siqnalın ötürülməsi ilə əlaqədar xidmət haqlarının məbləği" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il "20" fevral tarixli 3-27/3-7-4/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Yerüstü yayımın təmin olunması və siqnalın ötürülməsi ilə əlaqədar xidmət haqlarının məbləği**

| № | Xidmətin adı | Ölçü vahidi | Xidmət haqqı manatla (1 saat üçün ƏDV daxil olmaqla) |
|---|---|---|---|
| **1. Gücündən asılı olaraq rəqəmsal şəbəkədə 1 Mbit/saniyə üzrə televiziya yayımı üçün:** | | | |
| 1.1 | 10-50 | Vt | 0.55 |
| 1.2 | 51 – 300 | Vt | 0.71 |
| 1.3 | 301 – 1 200 | Vt | 1.17 |
| 1.4 | 1 201 – 3 000 | Vt | 1.51 |
| 1.5 | 3 001 və ondan yuxarı | Vt | 1.64 |
| **2. Gücündən asılı olaraq rəqəmsal şəbəkədə (DAB+) 128 kbit/saniyə üzrə radion yayımı üçün:** | | | |
| 2.1 | 10 – 300 | Vt | 0.72 |
| 2.2 | 301 – 1200 | Vt | 0.87 |
| 2.3 | 1201 - 2000 | Vt | 1.30 |
| 2.4 | 2001 - 3000 | Vt | 1.74 |
| 2.5 | 3001 və ondan yuxarı | Vt | 2.20 |
| **3. Gücündən asılı olaraq FM diapazonunda radioyayımı üçün:** | | | |
| 3.1 | 10 – 500 | Vt | 3.49 |
| 3.2 | 501 – 2 000 | Vt | 4.78 |
| 3.3 | 2 001 – 5 000 | Vt | 5.95 |
| 3.4 | 5 001 və ondan yuxarı | Vt | 7.45 |
| **4. Televiziya və Radio proqramlarının Radio Rele və kabel xətti ilə ötürülməsi üçün:** | | | |
| 4.1 | Kanalların radiorele xətti ilə ötürülməsi (1 mbit/saniyə/km üzrə) | mbt/san/km | 0.05 |
| 4.2 | Kanalların kabellə ötürülməsi (optik, mis və s.) | mbt/san/km | 0.06 |
| **5. TV və radioproqramların yayımında antenn-fider sistemləri və güc toplama qurğularından istifadəsi üçün:** | | | |
| **5.1. Gücündən asılı olaraq TV və FM radio proqramların anten-fider sistemi ilə ötürülməsi üçün(ayrıca istifadə olunduqda):** | | | |
| 5.1.1 | 100 – 2 000 | Vt | 0.72 |
| 5.1.2 | 2 001 – 5 000 | Vt | 1.88 |
| 5.1.3 | 5 001 – 10 000 | Vt | 2.44 |
| 5.1.4 | 10 001 və ondan yuxarı | Vt | 3.24 |
| **5.2. Gücündən asılı olaraq TV və radioyayım vericilərinin güc toplama qurğularından istifadəsi üçün (ayrıca istifadə olunduqda):** | | | |
| 5.2.1 | 100 – 2 000 | Vt | 0.24 |
| 5.2.2 | 2 001 – 5 000 | Vt | 0.63 |
| 5.2.3 | 5 001 – 10 000 | Vt | 0.82 |
| 5.2.4 | 10001 və ondan yuxarı | Vt | 1.06 |
| **6. Siqnalın peykə ötürülməsi:** | | | |
| **a) Televiziya proqramların qəbulu və ötürülməsi üçün:** | | | |
| 6.1 | ötürülmə | | |
| 6.1.1 | 0 - 4 | Mbt | 1.70 |
| 6.1.2 | 4,1 - 8 | Mbt | 1.85 |
| 6.1.3 | 8,1 - 12 | Mbt | 1.98 |
| 6.1.4 | 12,1 - dən yuxarı | Mbt | 2.08 |
| 6.2 | Qəbuletmə-proqram (TV) | proqram | 0.48 |
| **b) Radio proqramların qəbulu və ötürülməsi üçün:** | | | |
| 6.3 | Ötürülmə | | |
| 6.3.1 | 0 - 128 Kbt | proqram | 0.87 |
| 6.3.2 | 128,1 - 256 Kbt | proqram | 1.02 |
| 6.3.3 | 256,1 Kbt-dən yuxarı | proqram | 1.12 |
| 6.4 | Qəbuletmə-proqram (radio) | proqram | 0.24 |

**7. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyinin bina və qüllələrində sifarişçi təşkilatlara məxsus avadanlıqlara göstərilən aylıq xidmət üçün:**

| | Xidmətin adı | Ölçü vahidi | xidmət haqqı- avadanlığa görə (aylıq xidmət haqqı ƏDV-siz) | xidmət haqqı- anten sistemlərinə görə (aylıq xidmət haqqı ƏDV-siz) |
|---|---|---|---|---|
| **7.1. Bina və qüllələrdə hündürlüyə görə:** | | | | |
| 7.1.1 | +0 - 50 hündürlüyə | m | 100.00 | 100.00 |
| 7.1.2 | +51 - 150 hündürlüyə | m | 150.00 | 150.00 |
| 7.1.3 | +151 - 200 hündürlüyə | m | 250.00 | 250.00 |
| 7.1.4 | +201 hündürlükdən yuxarı | m | 300.00 | 300.00 |
| **7.2. Tutduğu sahənin ölçüsünə görə:** | | | | |
| 7.2.1 | 1 - dək | $m^2$ | 50.00 | 75.00 |
| 7.2.2 | 1.1 – 3 | $m^2$ | 100.00 | 175.00 |
| 7.2.3 | 3.1 – 6 | $m^2$ | 150.00 | 275.00 |
| 7.2.4 | 6.1 – dən yuxarı | $m^2$ | 250.00 | 525.00 |
| **7.3. Texniki xidmətə görə:** | | | | |
| 7.3.1 | Periodik | | 50.00 | 50.00 |
| 7.3.2 | Gündəlik | | 100.00 | 0.00 |
| **7.4. Mühafizə və təhlükəsizlik xidmətinə görə** | | | 60.00 | 60.00 |

**Qeyd 1:** Bu xidmət haqlarına radiotezliklərdən istifadə ilə bağlı ödənişlər daxil deyil.

**Qeyd 2:** 6 (a) bəndi üzrə təklif olunan xidmət haqqı, verilmiş aralıqlar üzrə hər bir Mbt/saniyə tutum üçün nəzərdə tutulur.

6 (b) bəndi üzrə təklif olunan xidmət haqqı, verilmiş aralıqlar üzrə bir proqram üçün nəzərdə tutulur.

**Qeyd 3:** 7-ci hissə üzrə xidmət haqlara faktiki enerji haqları daxil deyil və avadanlığın texniki parametrinə və ya sayğacın faktiki enerji sərfiyyatı göstəricisinə uyğun enerji haqqı hesablanır.

**Qeyd 4:** 7.4-cü (Mühafizə və təhlükəsizlik xidmətinə görə) bənd üzrə xidmət haqqı, avadanlıq və anten sistemləri quraşdırıldığı təqdirdə biri üçün hesablanır.

# Həcc ziyarəti sadələşdirilir

**Dünən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiən ilə görüşüb.**



Azərbaycanda din–dövlət münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edən A.Paşazadə bildirib ki, ölkəmizdə məzhəblər arasında heç bir ayrı-seçkilik yoxdur. Qafqaz Müsəlmanları İdarəsi Şimali Qafqazda İslamın bütün ənənəvi məzhəblərinin vəhdətinin tərəfdarıdır. Şeyxülislam diqqətə çatdırıb ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri arasında münasibətlər də çox yaxşı, qardaşlıq səviyyəsindədir. O, qonaqları, eyni zamanda, COP29 konfransı çərçivəsində BMT-nin dinlərarası pavilyonunun təşkil olunacağı və dini liderlər sammitinin keçiriləcəyi barədə məlumatlandırıb.

Nazir Taufiq bin Fauzən Əl Rabiən bu gün Prezident İlham Əliyevlə görüşündən böyük məmnunluqla danışıb. Bildirib ki, bu, iki ölkə arasında olan yüksək səviyyəli əlaqələrin nəticəsidir.

Azərbaycandan zəvvarların, turistlərin Səudiyyə Ərəbistanına getmələri üçün prosesin daha da asanlaşdırıldığını deyən nazir diqqətə çatdırıb ki, artıq vizanı onlayn və ya hava limanında əldə etmək mümkündür.

***

**Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə səfərdə olan Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiə fevralın 27-də Azərbaycan Respublikasına səfəri ilə bağlı brifinq keçirib.**

Nazir Prezident İlham Əliyev ilə görüşündən məmnunluğunu ifadə edərək deyib ki, Azərbaycandan müqəddəs məkanlara ziyarətlərin prosedurlarının sadələşdirilməsi yolları və Krallıq hökumətinin bu sahədəki səyləri müzakirə olunub.

Qonaq daha sonra bildirib ki, Krallığın hökuməti və onun bütün dövlət və özəl sektorları iki Müqəddəs Məscidi ziyarət etmək üçün dünyanın hər yerindən daha çox müsəlmanın gəlməsini asanlaşdırmaq məqsədi daşıyan prosedurlar və qanunlar hazırlamağa səy göstərir, onların Ümrə ziyarəti və iman səyahətlərini təkmilləşdirməyə, mədəni təcrübələrini zənginləşdirməyə çalışır. Azərbaycan Respublikası vətəndaşlarının ziyarətini sadələşdirmək məqsədilə, VİSİTSAUDİ portalı vasitəsilə və ya ölkəyə gəldikdən sonra hava limanlarında əldə edə biləcəkləri, bir il müddətinə çoxdəfəlik E-Viza istifadəyə verilib. Onunla qalma günlərinin ümumi sayı 90 günə qədərdir. Bu da zəvvarlara Ümrə ziyarətini yerinə yetirmək və Krallığın qalan bölgələri ilə tanış olmaq imkanı verir, həmçinin Nusk tətbiqi vasitəsilə Ümrə icazəsi və ər-Raudə əş-Şərifə ziyarət icazəsini asanlıqla və rahatlıqla əldə etməyə şərait yaradır.

Nazir Taufiq bin Fauzən Əl Rabiə dövlət qurumları və özəl sektor tərəfindən həyata keçirilən birgə səylərin Azərbaycan Respublikasından olan Ümrə zəvvarlarının sayının artmasına töhfə verdiyini vurğulayıb.

***Ə.ƏLİYEV***
***XQ***

# "Türk ocaqları" Ərzuruma toplaşıb

**Türkçülük ideyası ətrafında yaradılmış qeyri-hökumət təşkilatı olan "Türk ocaqları"nın növbəti konfransı keçirilib. Ərzurumda baş tutan mərasimdə İran türklərinin türk dünyasındakı yeri və fəaliyyəti müzakirə edilib.**




"Tarix boyunca Osmanlı–İran əlaqələri və İran türkləri" adlı məruzə ilə çıxış edən Ərzincan Universitetinin professoru Ali Kafkasiyalı bu barədə XQ-yə bildirib. Dünyada və qardaş Türkiyədə İran türkləri mədəniyyətinin tanınmış araşdırmaçılarından olan professor qeyd edib ki, hələ keçmişlərdən bəri dünyanın ən güclü dövlətləri olan İngiltərə, Rusiya, Fransa, Amerika üçün əhəmiyyətli olan İran, əlbəttə ki, Türkiyə və hətta Türk Dünyası üçün daha önəmlidir.

Tədqiqatçı XQ-yə bildirib: "Bu həqiqət çox yaxşı bilinməlidir ki, türk millətinin tarixdəki şanlı yeri onun türk dövlətlərinə və toplumlarına, ilk növbədə Qafqaz və İran türklüyünə verəcəyi önəmdən asılıdır. Biz türk aydınları da İran və İran türklərinin qədim zamanlardan günümüzə qədər coğrafiyasını, tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini və bədii dəyərlərini araşdırırıq ki, bu da bütövlükdə İran və İran türklərinin varlığını təmin etmək üçün çox mühüm elementlərdir. Biz bunu xalqımıza, xüsusilə gənclərimizə daha ətraflı təqdim etməliyik.

İran qədim türk vətənidir. Lakin Türkiyə və hətta türk dünyası İran türklüyünə dair kifayət qədər məlumata malik deyil. Halbuki, İran türklüyünü Türkiyədə və türk dünyasında yaxşı qiymətləndirmək və ciddiyə almaq lazımdır. Bu, tarixi bir məsuliyyət olsa da, türklüyün gələcəyi üçün çox önəmlidir".

Qeyd edək ki, türkçülük ideologiyasına xidmət edən insanları öz ətrafında birləşdirən "Türk ocaqları" Türkiyədə hələ Osmanlı dönəmində – 1912-ci ildə qurulub. Mərkəzi ofisi Ankarada yerləşən təşkilatın fəaliyyətində türk dünyasının müxtəlif yerlərindən, o cümlədən Azərbaycandan olan Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə kimi mütəfəkkirlərin, ictimai-siyasi şəxsiyyətlərin də böyük rolu olub. Dərnək qısa müddət Azərbaycanda da fəaliyyət göstərib. Türkiyədə və Avropanın bir çox ölkəsində 200-dən çox şöbəsi olan "Türk ocaqları" 2019-cu ilin sentyabrında Azərbaycanda fəaliyyətini bərpa edib. "Azərbaycan Türk ocağı"nın sədri, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlıdır.

**XQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki İstehsalat Xidmətləri İdarəsinin "Dənizçi" İstirahət Mərkəzinin həyətyanı sahəsində hovuzun tikintisi (soyunub -geyinmə binası, nasosxana, su tutumu 45m3) (mal-material və işçi qüvvəsi ilə birlikdə) işlərinin yerinə yetirilməsinin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 12-42

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki "Bibiheybət GTZ" üçün boya qatqılarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki gəmilər üçün yağ və yanacaq sayğaclarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 11-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 45 (30449) 28 fevral 2024-cü il, çərşənbə

# Astarada Şakir Yaqubovun xatirə guşəsi

**Astara rayonunun Kakalos kəndindəki Folklor evində fəaliyyət göstərən Tarix-diyarşünaslıq muzeyində mərhum jurnalist, Əməkdar mədəniyyət işçisi Şakir Yaqubovun xatirə guşəsi açılıb. Ekspazisiyanı muzeyin yaradıcısı– qocaman mədəniyyət işçisi Fərbiyə Şabanova təşkil edib.**



Şakir Yaqubov Kakalosla qonşu Bala Şahağacı kəndində anadan olub. Doğma kənddə səkkizillik məktəbi bitirdikdən sonra orta təhsilini qonşu Pensər kəndində başa çatdırıb. Fərbiyə xanım da gələcəyin tanınmış jurnalistini məhz məktəbli olarkən tanıyıb. Şagird dostları arasında dərs əlaçısı və fəal ictimaiyyətçi kimi seçilən gələcək jurnalist məktəbdə uşaqlar üçün təşkil edilən tədbirlərdə yaxından iştirak edərmiş.

İllər keçəndən sonra ölkəmizin nüfuzlu mətbu nəşrlərində çalışan Şakir Yaqubov "Azərbaycan gəncləri", "Kommunist" (indiki "Xalq qəzeti"), "Həyat" (indiki "Azərbaycan"), "Səhər" və "Panorama" qəzetlərində müxtəlif janrlı çoxsaylı maraqlı məqalə və publisistik yazılarla çıxış edib. "Mən şahidəm ki…", "Hakim mərkəzi göstərər", "Bizim səfər haçandı?!", "Banişevski olduğu kimi", "Taleyimdən keçənlər", "Yaddaşımın küncündən…", "Bir az da futbol(umuz)dan" və digər kitabların müəllifi idi.

Ustad jurnalistin doğum günündə onun ailə üzvləri və yaxın dostları muzeydə olub, guşəni ziyarət ediblər. Mərhum jurnalistlə bağlı xatirələr söylənilib, onun yaradıcılığı və xeyirxah əməlləri barədə danışılıb.

*XQ*

İdman

## Atıcılarımız Avropada 2 medal qazanıblar

**Azərbaycan atıcıları Macarıstanın Dyör şəhərində keçirilən Avropa çempionatında və Qətərin paytaxtı Dohada təşkil olunan Əmir Qran-prisində uğurla çıxış ediblər.**



Atıcılarımız Leyli Əliyeva və Vladislav Kalmıkov qitə birinciliyində 10 metr məsafə üzrə güllə atıcılığı yarışında bürünc medal qazanıblar.

Komandamızın digər üzvü Aylin Quliyeva isə Qran-pri turnirində səngər stendi üzrə yarışda 2-ci yeri tutub.

## Boks Federasiyası hesabat verib

**İclasda ötən ilin yekunları, qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri, hakimlərin fəaliyyəti ilə bağlı hesabatlar dinlənilib.**



Yığınacaqda federasiyanın yeni vitse-prezident də müəyyənləşib. Səsverməyə əsasən bu vəzifəni Vasif İsmayılov icra edəcək.

Qeyd edək ki, V.İsmayılov iş adamıdır və uzun illərdir diaspora sahəsində çalışır.

## Ölkə futbolunun növbəti 2 turu

**Futbol üzrə Azərbaycan Premyer Liqasında martda keçiriləcək 2 turun proqramı açıqlanıb.**




"XQ" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadla xəbər verir ki, XXVI və XXVII turun görüşlərinin keçirilmə vaxtı müəyyənləşib.

Oyunlar, müvafiq olaraq, martın 8–10-da və 15–17-də təşkil olunacaq.

*Leyla SABİRQIZI*
*XQ*

Sosial şəbəkələrdən seçmələr

# Mövlud Süleymanlı könüllərə köçdü...

**"Facebook"da şair Etimad Başkeçidin bu yaxınlarda rəhmətə getmiş məşhur yazıçı Mövlud Süleymanlı haqqında paylaşdığı xatirəni oxuyanda kövrək hisslər yaşadım. Güman edirəm ki, bu paylaşım oxucularımız üçün də maraqlı olar.**



Etimad Başkeçid yazır: "Slavyan Universitetində işlədiyim vaxtlardı, birinci kitabım yenicə çıxmışdı. Bir gün rəhmətlik Əhməd Oğuz zəng elədi ki, Mövlud səni çağırır, gəl gör nə deyir. Getdim. Otağında şirin-şirin xeyli söhbət elədik, yazılarımdan danışdı…

Çıxanda maddi vəziyyətimlə maraqlanıb kömək etmək istədi. Dedim ki, heç nəyə ehtiyacım yoxdur. Üstündən bir neçə gün keçmiş müəllimlərdən kimsə dedi ki, Mövlud Süleymanlı "525-ci qəzet"də səndən yazıb. Qəzeti açıb gördüm ki, kitabım haqqında bir qoşa səhifə məqalə yazıb…

Məqalədə rəğbətini bildirmək, hanısısa məqamı vurğulamaq üçün "Qanın üstünə tökülsün, Etimad" – deyə bir ibarə də işlətmişdi. Sonralar Əhməd mənə zəng eləyəndə, onun diliylə: "A qanın üstünə tökülsün, hardasan?" – deyirdi.

Əhməd dünyasını dəyişəndə Mövlud müəllimlə mən Şuşadaydıq. Səhər yeməyinə yenicə oturmuşduq, kimsə ona zəng elədi. Birdən əhvalı dəyişdi, yeməyini yarımçıq qoyub eşiyə çıxdı. Arxasınca çıxanda gördüm, lap kənara çəkilib ağlayır. "Nə yaşı vardı!" – deyə Əhməd üçün hayıfsılanırdı…

**P.S.** E.Başkeçid sonda yazıb: "Nə ölüm, nə başqa bir qüvvə səni bizdən qopara bilməz! Sənin məzarın ariflərin könlündədir!"

*Paşa ƏMİRCANOV*
*XQ*

Texnologiya

## "WhatsApp" – daha bir qadağa




**"WhatsApp" istifadəçiləri bundan sonra mesencerin gələcək versiyalarında profil fotolarının skrinşotlarını çəkə bilməyəcəklər. Belə qadağa artıq tətbiqin "Android" üçün beta versiyasında (2.24.4.25) quraşdırılıb və tezliklə o, ictimai versiyaya da şamil ediləcək.**

"Vesti.ru" yazıb ki, başqa istifadəçinin profil şəklinin skrinşotunu çəkməyə çalışdığınız zaman bu əməliyyatın həyata keçirilə bilməyəcəyi barədə bildiriş görünəcək. Bu tədbir tətbiqdə şəxsi məlumatların qorunması ilə bağlıdır.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Qərb bölgəsindən xəbərlər



### GƏNCƏ

**Gəncə Avtomobil Zavodu İstehsalat Birliyində 2023-cü il ərzində traktor istehsalı ötən ilin müvafiq dövrünə nisbətən artıb.**

2022-ci il ərzində 587 müxtəlif modeldə traktor yığılmışdırsa, 2023-cü ilin müvafiq dövründə bu rəqəm 662 traktor təşkil edib. Ötən il müəssisədə müxtəlif modeldə 366 yük avtomobili də istehsal olunub. Bundan əlavə, zavodda keçən il 341 KAMAZ, 50 ədəd SAMPO markalı kombayn və 23 ədəd KAMAZ şassisi üzərində quraşdırlımış vaxta avtobusu yığılıb.

Bütövlükdə, bugünədək müəssisədə 13 min 225 müxtəlif modeldə və modifikasiyada traktor, 2908 MAZ, 1032 KAMAZ, 593 URAL, 6 ədəd MAZ avtobusu, 4 ədəd elektrobus, 880 traktor qoşqusu, 301 ədəd MAZ qoşqusu yığılıb.

### NAFTALAN




**Ölkəmizin müalicəvi turizm mərkəzi kimi tanınan Naftalan şəhərinə gələn xarici turistlərin sayı hər il artır.**

Hazırda Naftalanda üçü 5 ulduzlu olmaqla 19 hotel və müalicə mərkəzi fəaliyyət göstərir. Bu da gün ərzində 4 minə yaxın turistə xidmət göstərməyə imkan yaradır. 2023-cü il ərzində şəhərə 40 minə yaxın turist gəlmişdir ki, onların da təxminən 13 min nəfəri əcnəbilər – 47 ölkədən olan xarici turistlərdir.

Turistlər arasında Rusiya Federasiyası, Qazaxıstan, Özbəkistan, həmçinin Belarus və Ukrayna ilə yanaşı, İsrail, Səudiyyə Ərəbistanı, Almaniya və digər inkişaf etmiş ölkələrdən olan turistlər üstünlük təşkil edir.

### AĞSTAFA

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən növbəti əmək yarmarkası Ağstafada təşkil edilib.**

Qazax–Tovuz Regional məşğulluq filialının təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif iqtisadi sahələrdən olan 12 işəgötürən iştirak edib və 106 vakansiya təqdim edilib. Vakansiyalara müraciət edən



şəxslərin CV-ləri qəbul edilərək ətraflı şəkildə qiymətləndirilib və uyğun namizədlərin qeydiyyatı aparılıb.

Tədbirdə işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq tədbirlərinə müraciət qaydaları barədə məlumat verilib.

### ŞƏMKİR

**Şəmkir şəhərində ən gözəl istirahət guşələrindən biri olan Xəqani İbrahimli adına parkda cari təmir və abadlıq işləri yekunlaşıb.**

Parkın elektrik sistemi tamamilə yenilənib, onun idarə olunması üçün müvafiq avadanlıqlar, yeni və müasir standartlara uyğun lampalar quraşdırılıb, işıq dirəkləri rənglənib. Parkın ərazisindəki fəvvarə təmir olunub, yeni tullantı qutuları qoyulub, skamyalar yenilənib, aqlay üzlüklərin cilalanması, o cümlədən sıradan çıxmış üzlüklərin dəyişdirilməsi və digər işlər icra olunub.

Parkda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən məşhur



azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru Fərman Salmanovun heykəlinin qoyulması istiqamətində işlər davam etdirilir.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

Sağlamlıq

## Səhərlər – ürəyi nə zəhərlər?



***Ürək–damar xəstələri üçün günün ən təhlükəli saatı səhərdir. Çünki səhər saatlarında trombositlərin aktivliyi artır, onlar bir-birinə yapışır. Məhz bu saatda insult və infarktların sayı artır.***

Araşdırmalara görə, qanda trombositlərin fəaliyyəti orqanizmin daxili bioritmi və saatı ilə tənzimlənir. Trombositlər aktivləşəndə qanın laxtalanması prosesi də artır və nəticədə damarı tromb tuta bilir.

Hətta inkişaf etmiş ölkələrdə də infarkt və insultların çoxu səhər saatlarına təsadüf edir. Əksər hallarda axşam xəstə normal olur, səhər isə qəflətən vəziyyəti dəyişir və infarkt, ya da insult baş verir.

Alimlər səhərlər trombositlərin funksiyası ilə sirkad ritm arasındakı mexanizmi öyrənib, vəziyyəti nəzarətə almaq istəyirlər. Bu sahədə elmi tədqiqatlara başlayan alimlər düşünürlər ki, orqanizmin daxili sirkad ritminin ürək-damar xəstəliklərinə təsirinin araşdırılması günün vacib məsələsi olmalıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

## Gündüz yağmursuz və dumanlı, gecə isə şaxtalı...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 2° şaxtadan 2°-dək isti, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 774 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 5-10° isti, dağlarda gecə 6-11°, yüksək dağlıq ərazilərdə 13-17°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Fikrət Əzizov, İlham Mədətov, Nadir Bədəlov və Cavanşir Quliyev Moskva İctimai Elmlər Akademiyasının aspiranturasında birgə təhsil aldıqları şair-publisist, muğam tədqiqatçısı

**GÜLHÜSEYN KAZIMIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorluğu və professor-müəllim heyəti dizayn və dekorativ-tətbiqi sənət kafedrasının dosenti Vüqar Əliyevə anası

**FİRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3817
SİFARİŞ 407
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00